RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 100 (9555) 15 may 2024-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# "Nəyi deyirəmsə, onu da edirəm!"

**"Bu gün düşmən bizim qarşımızda acizdir. Bu gün təkcə bizim tələbimizlə heç bir başqa, necə deyərlər, vasitəyə əl atmadan Qazaxın dörd kəndi bizə qaytarılır. Bir tələbimlə qaytarılır, bax, belə də olmalıdır. Bundan sonra belə də olacaq. Burada söz sahibi bizik, Qafqazda aparıcı dövlət bizik, iqtisadi, siyasi, hərbi, hər cəhətdən aparıcı dövlət bizik, bizimlə hər kəs hesablaşmalıdır. Həm Ermənistan, həm onun arxasında duran, onlara yalançı vədlər verən xarici dairələr bizimlə hesablaşmasalar peşman olacaqlar".**

Mayın 10-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada birinci yaşayış kompleksinin açılışı və şəhərə köçmüş ilk sakinlərlə görüş zamanı qalib komandan bir daha Zəfərin zirvəsindən Azərbaycanın qələbəsini həzm edə bilməyən, ölkəmizə iftiralar atan, eləcə də məğlub Ermənistan və onun arxasında durub yalan vədlər verən dairələrə ciddi xəbərdarlıq ünvanladı.

Prezident bir daha xatırlatdı ki, regionda söz sahibi Azərbaycandır və Cənubi Qafqazda marağı olan istənilən dövlət bütün məsələlərdə ölkəmizlə razılaşmalıdır.

Bütün zamanlarda yürütdüyü siyasət beynəlxalq hüquqa və ədalətə əsaslanan İlham Əliyev Hayastandakı revanşist qüvvələrə, onlara dəstək olan Fransaya da ayrıca mesaj göndərdi: "Əgər bu gün yenə də görsək ki, Ermənistanda revanşistlər baş qaldırır, Fransa Ermənistana öldürücü silahlar verir, o silahların kritik həddə çatmasını görsək, onda bizdən heç kim inciməsin".

→ 5

# ATƏT-in Minsk qrupunun ləğv edilməsinin vaxtıdır

## Prezident İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də ATƏT-in fəaliyyətdə olan sədri, Malta Respublikasının xarici, Avropa işləri və ticarət naziri İan Borqun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, İan Borq Azərbaycan Prezidenti ilə bu il Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən görüşü və müzakirələri məmnunluqla xatırlayaraq səfərinin regional xarakter daşıdığını dedi.

O, Maltanın Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşmasını və sülh müqaviləsi üzrə danışıqlar prosesini dəstəklədiyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan ilə Ermənistan arasında sülh prosesinin və bu prosesin əsasını təşkil edən fundamental prinsiplərin təşəbbüskarı məhz ölkəmiz olub və sülh müqaviləsinin mətni də Azərbaycan tərəfindən hazırlanaraq müzakirəyə təqdim edilib. Dövlətimizin başçısı bildirdi ki, hazırda sülh gündəliyinin irəliyə aparılması üçün Azərbaycan ilə Ermənistan arasında danışıqlar prosesi davam etdirilir.

→ 2

# Azərbaycan Çinin ərazi bütövlüyünü və "Vahid Çin" siyasətini daim dəstəkləyib

## Prezident İlham Əliyev Çin Xalq Siyasi Məşvərət Şurasının Ümumçin Komitəsinin sədr müavininin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də Çin Xalq Respublikasının Çin Xalq Siyasi Məşvərət Şurasının Ümumçin Komitəsinin sədr müavini, Şanxay Əməkdaşlıq Təşkilatının Mehriban Qonşuluq, Dostluq və Əməkdaşlıq üzrə Çin Komitəsinin sədri Şen Yueyuenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı əlaqələrimizin dostluq, qarşılıqlı anlaşma və dəstək prinsiplərinə əsaslandığını qeyd etdi.

Çin Xalq Respublikasının Sədri Si Cinpinlə görüşlərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev bu görüşləri dostluq münasibətlərimizin nümayişi kimi dəyərləndirdi və Si Cinpinlə növbəti görüşü məmnuniyyətlə gözlədiyini dedi.

Əlaqələrimizin daha yüksək səviyyəyə qaldırılması üçün real imkanların olduğunu və artıq ölkələrimizin müxtəlif sahələrdə çox yaxından əməkdaşlıq etdiklərini bildirən dövlətimizin başçısı son vaxtlar Azərbaycan ilə Çin arasında müxtəlif səviyyədə qarşılıqlı rəsmi səfərlərin sayının artdığını dedi, bunun da əlaqələrimizin möhkəmlənməsi işinə xidmət etdiyini vurğuladı.

→ 2

# Gülablıdan Cıdır düzünə və bütün dünyaya

## Ağdamdan başlayıb Şuşa və Laçınadək zəfər yolu keçən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı artıq qlobal mədəniyyət carçısına çevrilib

"Xarıbülbül" festivalı 1990-cı ildə beynəlxalq status alıb. Qarabağ münaqişəsinin başlaması ilə əlaqədar əsas konsertlər Ağdamda təşkil edilib. Festivalın bir sıra konsertləri Ağcabədi və Bərdədə təşkil olunub.

Şuşanın işğal altına düşməsinə görə, 2021-ci il mayın 12-nə qədər "Xarıbülbül" də doğma diyarından didərgin düşüb.

Azadlığından dərhal sonra qədim şəhərimiz Şuşa Prezident İlham Əliyev tərəfindən mədəniyyət paytaxtımız elan edildi. 2021-ci il mayın 7-də imzalanan sərəncamla Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği başlıca məqsədlər kimi müəyyən olundu.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu qala şəhərimizdə vandal düşmən tərəfindən dağıdılan, Azərbaycan xalqının milli sərvəti olan tarixi, dini, mədəni abidələrin bərpasını aparır. Eyni zamanda fond tərəfindən qədim şəhərimizdə var olan tarixi-mədəni ənənələrimiz müvəffəqiyyətlə bərpa edilir ki, bunlardan birincisi 2021-ci il mayın 12-də Şuşada, Cıdır düzündə təşkil olunan möhtəşəm "Xarıbülbül" Musiqi Festivalı oldu.




→ 9

# Qlobal istiləşmə bəşəriyyətə isti heç nə vəd etmir

## Bu səbəbdən onunla mübarizə yolları COP29-un prioritet mövzusu olacaq

İqlim dəyişikliyinin fəsadı olan qlobal istiləşmə, demək olar ki, bəşəriyyəti hər gün, hər saat təhdid edərək birnömrəli problemə çevrilib. Ən çox da inkişaf etməkdə olan və kiçik dövlətlər istiləşməyə məruz qalıb. Onların çirklənməyə görə məsuliyyət daşıyan sənaye ölkələrinin köməyinə ehtiyacı var. Həmin dövlətlər havaya buraxılan emissiya qazlarını azaltmalı deyil, davamlı maliyyə yardımı almalıdırlar. Məhz bu, COP29-un gündəliyində yer alan əsas məsələdir. Həmin gün Baham Adaları Birliyinin xarici işlər naziri Mitçel Frederik Audleyi qəbul edən Prezident İlham Əliyev məhz bu məsələyə toxunaraq ehtiyacı olan ölkələrə ediləcək yardımdan söz açıb: "Konfransda müzakirə olunacaq ən mühüm məsələ maliyyədir. Vəsaitlərin ayrılması üzərində fəal çalışırıq ki, həmin məsələlər həllini tapsın. Eyni zamanda anlayırıq ki, iqlim dəyişmələri bəzi ölkələr üçün problemdir, lakin digərləri üçün mövcudluqla bağlı olan məsələdir. Biz bunu aydın şəkildə anlayırıq. Düşünürük ki, kiçik ada dövlətlərinə yardım bizim üçün mənəvi borcdur. Sizi əmin edə bilərik ki, kiçik ada dövlətləri məsələsi, onlara dəstəyin verilməsi, onların müdafiəsi müzakirələrin təməlində dayanacaq. COP29-un sədri kimi, biz bunu diqqət mərkəzində saxlayacağıq. Həmçinin digər kiçik ada dövlətləri ilə məsləhətləşərək, COP29 zamanı yüksəksəviyyəli nümayəndələrin görüşünün təşkil olunmasını təklif edirik. Eyni zamanda kiçik ada dövlətlərinə dəstəyin verilməsi məqsədilə praktiki töhfəni və maliyyələşmə addımlarını bəzi tərəfdaşlarla artıq müzakirə edirik".



→ 7

# ATƏT-in Minsk qrupunun ləğv edilməsinin vaxtıdır

## Prezident İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

*Əvvəli 1-ci səh.*



Dövlətimizin başçısı qeyd etdi ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün və torpaqlarımızın işğalının nəticələrinin aradan qaldırılması ATƏT-in yaranmasından bu təsisatın gündəliyində olmasına baxmayaraq, nə bu təşkilat, nə də ATƏT-in Minsk qrupunun həmsədrlik mexanizmi münaqişənin nəticələrinin aradan qaldırılması, Azərbaycan ərazilərinin işğaldan azad edilməsi, məcburi köçkünlərin geri qayıtması üçün heç nə etməmişdir. Bu illər ərzində ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən aparılan danışıqlar prosesi də Azərbaycan ərazilərinin işğalının davam etdirilməsinə xidmət göstərmişdir. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan öz iradəsi və gücü hesabına beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Nizamnaməsinə uyğun olaraq ərazi bütövlüyünü və suverenliyini təmin edərək işğala son qoyub. Artıq Ermənistan-Azərbaycan münaqişəsinin tarixdə qaldığını və mövcud olmadığını deyən dövlətimizin başçısı qeyd etdi ki, buna görə ATƏT-in Minsk qrupu və onunla əlaqədar olan bütün təsisatların ləğv edilməsinin vaxtıdır. Azərbaycan tərəfi bu məsələni qaldırıb və Ermənistan tərəfinin də buna razı olmaması üçün hər hansı bir səbəb görünmür.

Görüşdə ATƏT çərçivəsində nəqliyyat bağlantıları məsələlərinə dair fikir mübadiləsi aparıldı.

İan Borq ölkəsinin kiçik ada dövlətləri və inkişaf etməkdə olan dövlətlər konsepsiyasını yaxından dəstəklədiyini və bu ölkələrin Avropa İttifaqı ilə əlaqələrinin inkişafına daim dəstək verdiyini diqqətə çatdırdı. O, Azərbaycanın COP29-a sədrlik etdiyini nəzərə alaraq bu mövzuda da ölkəmizlə əməkdaşlığa hazır olduğunu bildirdi.

Prezident İlham Əliyev qeyd etdi ki, ölkəmizin COP29-a sədrliyi çərçivəsində kiçik ada dövlətləri və inkişaf etməkdə olan dövlətlər mövzusu Azərbaycanın prioritetlərindən biri olacaq. Bu xüsusda Azərbaycan Prezidenti Millətlər Birliyi təşkilatının (Commonwealth) baş katibi Patrisia Skotlendin ölkəmizə səfərini qeyd edərək, bu təşkilat çərçivəsində olan kiçik ada dövlətləri və bu kateqoriyadan olan digər ölkələrlə əməkdaşlığın inkişaf etdirilməsi, onların üzləşdiyi ekzistensial problemlərlə bağlı məsələnin COP çərçivəsində qaldırılması və müxtəlif tədbirlərin keçirilməsinə toxundu. Bu xüsusda Azərbaycanın da Malta ilə əməkdaşlıqda maraqlı olduğu ifadə edildi.

# Azərbaycan Çinin ərazi bütövlüyünü və "Vahid Çin" siyasətini daim dəstəkləyib

## Prezident İlham Əliyev Çin Xalq Siyasi Məşvərət Şurasının Ümumçin Komitəsinin sədr müavininin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

*Əvvəli 1-ci səh.*





Prezident İlham Əliyev iqtisadiyyat, ticarət, nəqliyyat sahələrində artımın olduğunu deyərək, insanların qarşılıqlı gediş-gəlişinin artdığını da məmnunluqla qeyd etdi.

Dövlətimizin başçısı Şen Yueyuenin Azərbaycana səfərinin məhsuldar olacağına, dostluq əlaqələrimizin daha da möhkəmlənməsi işinə xidmət edəcəyinə və əməkdaşlıq perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaradacağına əmin olduğunu bildirdi.

Qəbula və xoş sözlərə görə minnətdarlığını bildirən qonaq dedi: "Uzun illərdir ki, Siz Çin Xalq Respublikasının Sədri Si Cinpinin və Çin xalqının dostusunuz. İlk növbədə Sizə Çin Xalq Respublikasının Sədrinin salamlarını və ən xoş arzularını çatdırmaq istərdim. Son illər Sizin qətiyyətli və müdrik rəhbərliyinizlə Azərbaycan xalqı birlik göstərərək inkişaf yolu ilə gedir. Ölkənizdə dayanıqlı sabitlik, sürətli iqtisadi inkişaf müşahidə edilir və Azərbaycanın qüdrəti böyük dərəcədə artmışdır".

Şen Yueyue Çinin Azərbaycan xalqının öz inkişaf yolu ilə bağlı etdiyi seçimini və Azərbaycanın Cənub-Cənub xətti üzrə qlobal iqlim dəyişiklikləri ilə bağlı fəal beynəlxalq əməkdaşlığını dəstəklədiyini vurğuladı. O, dünyada Azərbaycanın nüfuzunun daim artdığını deyərək bildirdi ki, bu, ölkəmizin yaxın dostu və etibarlı tərəfdaşı kimi Çini sevindirir.

Azərbaycanda keçirilən prezident seçkilərinə toxunan Şen Yueyue dövlətimizin başçısının bu seçkilərdə inamlı qələbə qazandığını vurğulayaraq təbriklərini çatdırdı və bunu Azərbaycan xalqının Prezident İlham Əliyevin siyasətinə olan böyük dəstəyinin nümayişi kimi dəyərləndirdi. Qonaq Çin xalqının özünə yaxın hesab etdiyi Azərbaycan xalqına inkişaf yolunda yeni uğurlar arzuladı. O, Si Cinpin ilə Azərbaycan Prezidentinin ikitərəfli münasibətlərimizin gələcək inkişafı ilə bağlı planları müəyyənləşdirdiklərini qeyd edərək iki dövlət başçısının strateji rəhbərliyi ilə Çin-Azərbaycan münasibətlərinin yeni mərhələyə qalxacağına və xalqlarımızın rifahına xidmət edəcəyinə əminliyini bildirdi.

Çin Xalq Respublikasının Sədrinin salamlarına, təbriklərə və xoş sözlərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı onun da salamlarını Si Cinpinə çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan Çinin ərazi bütövlüyünü və "Vahid Çin" siyasətini daim dəstəkləyib. Azərbaycanın Xarici İşlər Nazirliyi tərəfindən verilmiş açıqlamada Tayvanda keçirilən seçkilərin pislənilməsi və Çinin ərazi bütövlüyünə bir daha dəstəyin ifadə olunması qeyd edildi. Dövlətimizin başçısı vurğuladı ki, dünyada hələ də separatizmin dəstəklənməsi və ikili standartlara əsaslanan siyasətin aparılması tendensiyaları özünü büruzə verməkdədir.

Qonaq vurğuladı ki, Çin Xalq Respublikası daim Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və müstəqilliyini dəstəkləyib. O, "Vahid Çin" siyasətinə dəstəyə görə Azərbaycana təşəkkürünü bildirdi.

Azərbaycanın öz milli maraqları əsasında siyasət həyata keçirdiyini deyən Prezident İlham Əliyev vurğuladı ki, Si Cinpinin rəhbərliyi ilə Çin Xalq Respublikasının, o cümlədən Çin iqtisadiyyatının əldə etdiyi nailiyyətlər Azərbaycanı dost və tərəfdaş kimi sevindirir. Çinin dünya iqtisadiyyatında mühüm yer tutduğunu vurğulayan dövlətimizin başçısı bunun qlobal iqtisadiyyatın inkişafı üçün çox vacib olduğunu dedi.

Qonaq COP29-un Azərbaycanda keçirilməsi münasibətilə də təbriklərini çatdırdı və bu çərçivədə əməkdaşlıq məsələlərinə toxundu.

Söhbət zamanı vurğulandı ki, Azərbaycan Qlobal Cənubun tərkib hissəsidir və bu xüsusda Qoşulmama Hərəkatı çərçivəsində bu ölkələrin maraqlarını müdafiə edib. Həmçinin COP29 çərçivəsində də Azərbaycan Qlobal Cənub ölkələrinin maraqlarının təmsil olunmasına öz səylərini əsirgəməyəcək.

Vurğulandı ki, ölkəmiz COP29 çərçivəsində də Çin Xalq Respublikası ilə əməkdaşlığa hazırdır və Azərbaycanın COP29 nümayəndə heyəti Çinə səfər edərək müzakirələr aparıb.

Görüşdə hakim partiyalar - Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əlaqələrin inkişafından məmnunluq ifadə olundu. Çin nümayəndə heyətinin üzvləri Heydər Əliyev Fondunun dünyanın müxtəlif ölkələrində həyata keçirdiyi layihələri qeyd edərək, xalq diplomatiyası çərçivəsində Çinin aidiyyəti təşkilatları ilə əməkdaşlığın ölkələrimiz arasında əlaqələrin inkişafına töhfə verdiyini vurğuladılar.

Prezident İlham Əliyev hakim partiyalar arasında əməkdaşlığa toxunaraq, Çin Xalq Respublikasının müxtəlif təşkilatları ilə Heydər Əliyev Fondu arasında xalq diplomatiyası əsasında həyata keçirilən mədəni-humanitar tədbirlərin əhəmiyyətini qeyd etdi.

Söhbət zamanı bərpaolunan enerji sahəsində Çin şirkətlərinin Azərbaycan ilə əməkdaşlığa böyük maraq göstərdikləri bildirildi, Azərbaycanda elektroavtobusların və elektroavtomobillərin, həmçinin bərpaolunan enerji vasitələrinin istehsalının təşkili və bu istiqamətdə Çin şirkətləri tərəfindən investisiyaların qoyulması məsələsi müzakirə olundu.

Görüşdə Azərbaycanla Çin arasında siyasi, iqtisadi, sərmayə, nəqliyyat, "yaşıl enerji", xalq diplomatiyası və digər sahələrdə əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu, Çin-Azərbaycan əlaqələrinin keyfiyyətcə yeni müstəviyə çatdığı bildirildi. Ölkələrimizin bir-birinə qarşılıqlı dəstəyi, "Bir kəmər, bir yol" layihəsi, Orta dəhlizin inkişafı və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.

# "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" Azərbaycan Respublikasının 2022-ci il 2 dekabr tarixli 661-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanında dəyişiklik edilməsi, "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 4 avqust tarixli 171 nömrəli Fərmanının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 yanvar tarixli 2001 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestri haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestrinin (bundan sonra - Reyestr) fəaliyyətinin təşkili, saxlanılması və ondan səmərəli istifadənin təmin edilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

3.1. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq, Reyestrin "Hökumət buludu"nda yerləşdirilməsini təmin etsin;

3.2. "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq, Reyestrin aidiyyəti dövlət informasiya ehtiyatları və sistemləri ilə əlaqələndirilməsini Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə təmin etsin.

4. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti:

4.1. Reyestri mühafizə olunan telekommunikasiya kanalları ilə təmin etsin və təhlükəsizlik meyarları üzrə onun monitorinqini həyata keçirsin;

4.2. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə birlikdə Reyestrin təhlükəsizliyinin təmin edilməsi məqsədilə digər tədbirlər görsün.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 13 may 2024-cü il*

# Baş nazir Əli Əsədov Belarusun Baş nazirinin müavini ilə görüşüb

**Mayın 14-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Belarus Respublikasının Baş nazirinin müavini İqor Petrişenko ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana dövlət səfərinin əhəmiyyəti qeyd olunub, səfərin iki ölkə arasında dostluq münasibətlərinin möhkəmləndirilməsinə yeni təkan verəcəyinə əminlik ifadə olunub.

Bundan əlavə, ticarət-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Belarus Hökumətlərarası Komissiyasının cari ilin iyun ayında Minskdə keçiriləcək 14-cü iclasının vacibliyi vurğulanıb.

Görüşdə iki ölkə arasında müxtəlif sahələrdə münasibətlərin inkişafından məmnunluq ifadə olunub, qarşılıqlı maraq doğuran istiqamətlər üzrə gələcək qarşılıqlı əlaqələrin perspektivləri müzakirə olunub.

# ATƏT-in fəaliyyətdə olan sədri Azərbaycan-Ermənistan normallaşma prosesi barədə məlumatlandırılıb

**Mayın 14-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ölkəmizə səfəri çərçivəsində ATƏT-in fəaliyyətdə olan sədri, Malta Respublikasının xarici, Avropa işləri və ticarət naziri İan Borqun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Xarici işlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, Ceyhun Bayramov və İan Borq arasında təkbətək müzakirələrdən sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirilib, bir neçə əsas istiqamət üzrə ətraflı müzakirələr aparılıb.

Azərbaycan və Malta arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivlərinə toxunulub, enerji və turizm kimi sahələrdə münasibətlərin gücləndirilməsi üçün geniş imkanların mövcudluğu qeyd edilib.

Maltanın ATƏT-də sədrliyinin prioritetləri arasında ətraf mühit, bağlantılar kimi sahələrin əks olunmasının Azərbaycan tərəfindən müsbət qarşılandığı bildirilib. Xüsusilə Azərbaycanın COP29-a sədrliyi ilə Maltanın ATƏT sədrliyinin birgə səylər sayəsində qlobal ətraf mühit dəyişikliyinə reaksiya verilməsində sinerji effekti yarada biləcəyi diqqətə çatdırılıb.

Avropada təhlükəsizliyin ciddi çağırışlarla üzləşdiyi hazırkı dövrdə ATƏT-in regional ölçülü məsələlərin həllində rolunu qoruyub saxlaya bilmək üçün özünün hərtərəfli təhlükəsizlik konsepsiyasından və geniş üzvlük coğrafiyasından maksimum istifadə etməli olduğu vurğulanıb. Burada suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı kimi prinsiplərin ATƏT çərçivəsində təhlükəsizliyin təmini, inamın bərpası və əməkdaşlıq üçün təməl rolunu oynamalı olduğu xatırladılıb.

Ceyhun Bayramov postmünaqişə dövründə regional vəziyyət, Azərbaycan-Ermənistan normallaşma prosesi barədə maltalı həmkarına ətraflı məlumat verib. Ermənistan-Azərbaycan əlaqələrinin normallaşdırılması və nəticə etibarilə sülh sazişinin imzalanması üzrə birbaşa ikitərəfli danışıqların irəliyə getmək üçün ən yaxşı yanaşma olduğu bildirilib.

Keçmiş münaqişə dövründə bir sıra ATƏT təsisatlarının Ermənistan ilə Azərbaycan arasında 30 il davam etmiş münaqişənin həlli prosesində müvafiq mandat daşımasına baxmayaraq, hər hansı irəliləyişə nail ola bilmədiyi qeyd olunub. Keçmiş münaqişənin nəticələrinin aradan qaldırılması mövzusu üzrə danışarkən aktuallığını itirmiş təsisatlara istinadlar edilməsinin Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesinə xələl gətirdiyi bildirilib.

Postmünaqişə dövründə Azərbaycan tərəfinin tələbatı və müvafiq müraciətinə əsaslanaraq, ölkəmizdə minalardan və partlamamış sursatlardan təmizləmə, eləcə də məcburi köçkünlərin qayıdışını sürətləndirmə işlərinə dəstək verilməsinin vacibliyi vurğulanıb.

Nazirlər daha sonra mətbuat brifinqində görüşlərin nəticələrinə dair bəyanatlarla çıxış edib, jurnalistlərin suallarını cavablandırıblar.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 249 **QƏRAR** Bakı şəhəri, 11 may 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 yanvar tarixli 12 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyin qiymətləndirilməsi məqsədilə tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsi Qaydası"nda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 yanvar tarixli 12 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 69 (Cild I) ilə təsdiq edilmiş "Əlilliyin qiymətləndirilməsi məqsədilə tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.1-ci bənddə "verilməsini" sözü "verilməsi ilə bağlı münasibətləri" sözləri ilə əvəz edilsin.

2. 1.2-ci bənddə "əlçatanlığı" sözü "şəffaflığının və əlçatanlığının təmin edilməsi" sözləri ilə əvəz edilsin.

3. 1.2-1.4-cü bəndlərdə ismin müvafiq hallarında "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri ismin müvafiq hallarında "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin.

4. 1.5-ci bəndə "əsas" sözündən sonra "şərtlər" sözü əlavə edilsin.

5. 1.5.2-ci yarımbənddə "əqli pozuntuların və anatomik çatışmazlıqların, dərmanlara davamlı vərəm formalarının, IV mərhələ onkoloji xəstəliklərin, V mərhələ xroniki böyrək xəstəliyinin" sözləri "bu Qaydaya 1 nömrəli əlavədə qeyd olunan xəstəliklərin" sözləri ilə əvəz edilsin.

6. 1.5.3-cü yarımbəndə "xəstəliklərin" sözündən sonra "bu Qaydaya 2 nömrəli əlavədə qeyd olunan müalicə müddətləri nəzərə alınmaqla" sözləri əlavə edilsin.

7. 1.5.4-cü yarımbənddə "faizinin" sözü "dərəcəsinin" sözü ilə əvəz edilsin.

8. Aşağıdakı məzmunda 1.6-cı bənd əlavə edilsin:

"1.6. Bu Qaydanın 1.5-ci bəndində göstərilən əsas şərtlər mövcud olmadıqda, habelə şəxs bu Qaydanın 2.2-ci bəndində nəzərdə tutulan hallarda zəruri diaqnostik müayinələrdən keçməkdən imtina etdikdə Komissiya göndəriş verməkdən imtina edir.".

9. 2.3-cü bənddə "3 (üç) iş günü müddətindən gec olmayaraq" sözləri "dərhal" sözü ilə əvəz edilsin.

10. 2.4-cü bəndə "olduğu yerdə" sözlərindən əvvəl "ölkə hüdudları daxilində" sözləri əlavə edilsin.

11. 2.5-ci bənddə "həmin gün" sözləri "qərarın qəbul edildiyi gündən sonra 5 (beş) iş günü müddətindən gec olmayaraq" sözləri ilə əvəz edilsin.

12. 2.8-ci bənddə "1.5-ci bəndində nəzərdə tutulan hallar istisna olmaqla, digər" sözləri "1.6-cı bəndində nəzərdə tutulan" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 250 **QƏRAR** Bakı şəhəri, 11 may 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 24 iyul tarixli 226 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına təhsil tələbə kreditlərinin verilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 24 iyul tarixli 226 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 7, maddə 887 (Cild I) ilə təsdiq edilmiş "Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına təhsil tələbə kreditlərinin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 3.2.3-cü yarımbənd üzrə:

1.1. "hər iki valideyni (tək valideyni olduqda isə həmin şəxs)" sözlərindən sonra "və ya digər qanuni nümayəndələri" sözləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 5-ci abzas əlavə edilsin:

"5.ailə başçısını itirməyə görə əmək pensiyası alanlar;".

2. 3.2.5-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.2.6-3.2.8-ci yarımbəndlər əlavə edilsin:

"3.2.6. ailə başçısını itirməyə görə sosial müavinət alanlar;

3.2.7. bir valideyni orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş, digər valideyni orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq etdiyinə görə Azərbaycan Respublikası Prezidentinin təqaüdünü alan şəxslər;

3.2.8. bir valideyni müəyyən müddətə azadlıqdan məhrum etmə, ömürlük azadlıqdan məhrum etmə və ya azadlığın məhdudlaşdırılması növlərində cəza çəkən, digər valideyni bu Qaydanın 3.2.3-cü yarımbəndində qeyd olunan kateqoriyalardan hər hansı birinə aid olan şəxslər.".

3. 5.2-ci bənddə ", övladlığa götürənləri və ya himayəçisi" sözləri "və ya digər qanuni nümayəndələri" sözləri ilə əvəz edilsin.

4. 5.2.1-ci yarımbənddə ", övladlığa götürənlər və ya himayəçi" sözləri "və ya digər qanuni nümayəndələr" sözləri ilə əvəz edilsin.

5. 7.5-ci bənddə "və 7.4-cü" sözləri ", 7.4-cü və 7.5-1-ci" sözləri ilə əvəz edilsin.

6. Aşağıdakı məzmunda 7.5-1-ci bənd əlavə edilsin:

"7.5-1. TTK-nin qaytarılması zamanı bu Qaydanın 4.2-ci və 4.3-cü bəndlərində nəzərdə tutulmuş güzəştlərin tətbiq edilməsi elektron sistem vasitəsilə aşağıdakı qaydada həyata keçirilir:

7.5-1.1. borcalanın normativ təhsil müddətində bütün tədris semestrləri (yarımillər) üzrə elektron sistemə daxil etdiyi ÜOMG-si (peşə təhsili müəssisələrində təhsilalanlara münasibətdə aralıq qiymətləndirmə balı) barədə məlumatlarını təhsil müəssisəsinin məsul şəxsi gücləndirilmiş elektron imza ilə təsdiqləyir;

7.5-1.2. Fond elektron sistem vasitəsilə əldə etdiyi məlumatları nəzərdən keçirərək 3 (üç) iş günü müddətində bu Qaydanın 4.2-ci və 4.3-cü bəndlərində nəzərdə tutulmuş güzəştin tətbiq edilməsinə dair qərar qəbul edir. Həmin qərar qəbul edildiyi gün elektron sistemə ötürülür və tələbənin "Şəxsi kabinet"ində yerləşdirilir;

7.5-1.3. müvəkkil bank bu Qaydanın 7.5-1.2-ci yarımbəndində qeyd olunan məlumatları elektron sistem vasitəsilə əldə etdikdən sonra 3 (üç) iş günü müddətində borcalan ilə bağlanılmış kredit müqaviləsində müvafiq dəyişikliklər edilir və bu dəyişikliklər elektron sistemə ötürülür.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 251 **QƏRAR** Bakı şəhəri, 11 may 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 10 mart tarixli 87 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət qulluğu vəzifələri üzrə test imtahanından keçmək barədə Sertifikatın Forması"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 3696 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın 2023-2025-ci illərdə icrası üzrə Fəaliyyət Planı"nın 1.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 10 mart tarixli 87 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 3, maddə 486 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 aprel tarixli 184 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət qulluğu vəzifələri üzrə test imtahanından keçmək barədə Sertifikatın Forması"nın 4-cü hissəsindən "həmin altqrupun aid olduğu qrup daxilində" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 254 **QƏRAR** Bakı şəhəri, 13 may 2024-cü il

## "Azərbaycan Respublikası vətəndaşlarının müddətli həqiqi hərbi xidmətə çağırışı üzrə Mərkəzi Çağırış Komissiyasının tərkibi"nin və "2016-cı il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılan çağırışçıların say bölgüsü"nün təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 iyun tarixli 229 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 iyun tarixli 229 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1206 (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası vətəndaşlarının müddətli həqiqi hərbi xidmətə çağırışı üzrə Mərkəzi Çağırış Komissiyasının tərkibi"nin "Komissiyanın üzvləri:" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. Beşinci abzasa "təhsil" sözündən əvvəl "elm və" sözləri əlavə edilsin.

2. Yeddinci-doqquzuncu abzaslar on birinci-on üçüncü abzaslar hesab edilsin və aşağıdakı məzmunda yeddinci-onuncu abzaslar əlavə edilsin:

"Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 252 **QƏRAR** Bakı şəhəri, 11 may 2024-cü il

## "İdxalı və satışı əlavə dəyər vergisindən azad edilən mineral gübrələrin və pestisidlərin siyahısı"nın təsdiq edilməsi haqqında

"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1033-VIQD nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 dekabr tarixli 2439 nömrəli Fərmanının 2.2.9-cu yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"İdxalı və satışı əlavə dəyər vergisindən azad edilən mineral gübrələrin və pestisidlərin siyahısı" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 255 **QƏRAR** Bakı şəhəri, 13 may 2024-cü il

## "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1059-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1059-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 18 yanvar tarixli 8 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 1, maddə 69 (Cild I) ilə təsdiq edilmiş "Nəzarət markalarının və beynəlxalq standart eyniləşdirmə nömrələrinin verilməsindən əldə olunan vəsaitdən istifadə edilməsi və həmin vəsaitdən istifadə haqqında hesabatın dərc olunması Qaydası"nın 5-ci hissəsində "Qanununun 12-1-ci maddəsinə uyğun olaraq" sözləri "Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 yanvar tarixli 15 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 72 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 13 mart tarixli 150 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Hüquqi nəticə yaradan hərəkətləri dövlətin adından həyata keçirən, Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxsin (statusu Azərbaycan Respublikasının qanunu ilə müəyyən edilən, habelə dövlət orqanlarının strukturuna daxil olmayan tabeliyindəki publik hüquqi şəxslər istisna olmaqla) işlər görülməsindən və xidmət göstərilməsindən əldə etdiyi vəsaitin (o cümlədən tutulan xidmət haqlarının) həmin publik hüquqi şəxsin sərəncamında qalan hissəsindən istifadə Qaydası"nın 6.1-ci bəndində "Qanununun 12-1-ci maddəsinə uyğun olaraq" sözləri "Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 14 dekabr tarixli 495 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1598 (Cild I) ilə təsdiq edilmiş "İcbari tibbi sığorta vəsaitlərinin uçotunun aparılması və hesabatının təqdim edilməsi Qaydası"nın 2.4-cü bəndində "Qanununun 8.1-1-ci maddəsinə uyğun olaraq" sözləri "Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 13 oktyabr tarixli 309 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1178 (Cild I); 2024, № 2, maddə 235) ilə təsdiq edilmiş "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və maddi-texniki bazasının yaxşılaşdırılması məqsədilə həmin Agentliyin hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nın 6.1-ci bəndində "Qanununun 12-1-ci maddəsinə uyğun olaraq" sözləri "Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Əməkdaşlıq uğurla davam etdirilir

**Bakı Konqres Mərkəzində Çinin "Huawei" şirkətinin "Huawei Tech Carnival & Partner Summit 2024" adlı üçgünlük tədbiri işə başlayıb. Orta Şərq və Mərkəzi Asiya regionu ölkələrinin İKT liderlərini bir araya gətirən tədbirin açılış mərasimində Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin nümayəndələri iştirak ediblər.**

Dövlət Xidmətindən AZƏRTAC-a bildirilib ki, tədbirdə çıxış edən Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti rəisinin müavini general-mayor Allahverən İsmayılov informasiya təhlükəsizliyi, kibertəhlükəsizlik, kritik infrastrukturun mühafizəsi, məlumatların qorunması, habelə texnoloji inkişaf, rəqəmsallaşma və süni intellektin tətbiq edilməsi haqqında danışıb, bu sahədə məqsədyönlü işlər aparıldığı və bu istiqamətdə irəliləmək üçün ölkəmizdə texnologiyanın bütün potensialından istifadə etməyə yönəlmiş bir sıra təşəbbüslərin həyata keçirilməsindən bəhs edib. O deyib ki, Ümummilli Lider Heydər Əliyevin 2003-cü ildə təsdiqlədiyi "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya"nın sonrakı illərdə Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilməsi nəticəsində hazırda ölkəmiz sənaye inqilabı üzrə regional mərkəzə çevrilməkdədir.

Çıxışında milli kibertəhlükəsizlik problemlərinin həlli sahəsində tənzimləmə siyasətinin inkişaf etdirilməsi, texnoloji yeniliklər və potensialın artırılması kimi vacib məsələlərə də toxunan xidmət rəisinin müavini vurğulayıb ki, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti daha dayanıqlı rəqəmsal infrastruktur qurmaq üçün "Huawei" və digər tərəfdaşları ilə əməkdaşlığı uğurla davam etdirir, bu istiqamətdə səyləri daha da gücləndirəcək.

Qeyd edək ki, mayın 15-dək davam edəcək tədbir çərçivəsində müxtəlif mövzularda təqdimatlar, texniki sessiyalar, biznes-forumlar, "dəyirmi masa"lar keçiriləcək, "Huawei" şirkətinin İKT məhsulları və həlləri, o cümlədən intellektual IP və optik şəbəkə, eləcə də məlumatların saxlanması və informasiya təhlükəsizliyi ilə bağlı ən son yenilikləri nümayiş olunacaq.

# Avropa Parlamentinin üzvü məcburi köçkünlər üçün yaradılan şəraitlə tanış olub

**Avropa Parlamentinin ispaniyalı üzvü Xaviyer Nart ölkəmizə səfəri çərçivəsində Abşeron rayonunun Masazır qəsəbəsindəki keçmiş məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı "Zəngilan" şəhərciyində olub.**

Bu barədə AZƏRTAC-a Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən məlumat verilib.

Bildirilib ki, Milli Məclisin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin və Zəngilan Rayon İcra Hakimiyyətinin nümayəndələrinin müşayiət etdiyi qonaq şəhərcikdə sakinlərlə görüşüb, onların yaşayış şəraiti ilə maraqlanıb.

Ermənistanın işğalçılıq siyasətinin ağır nəticələri, məcburi köçkünlərin üzləşdiyi çətinliklər, onlara göstərilən dövlət qayğısı haqqında avropalı deputata ətraflı məlumat verilib. Bildirilib ki, məcburi köçkünlərin problemlərinin həlli Prezident İlham Əliyevin sosial siyasətinin prioritetlərindəndir. Birinci vitse-prezident Mehriban xanım Əliyeva da bu kateqoriyadan olan vətəndaşlara xüsusi diqqət və həssaslıqla yanaşır, onlara hərtərəfli kömək edir. Hazırda məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərdə yeni salınan və bərpa edilən daimi yaşayış yerlərinə qayıdışının başlandığı, həmin yerlərdə layiqli həyat şəraitinin yaradılması üçün məqsədyönlü iş aparıldığı qeyd olunub.

Avropalı qonaq Zəngilan rayon 33 nömrəli tam orta məktəbin yuxarı sinif şagirdləri ilə görüşüb, onlara özünün jurnalist və siyasi fəaliyyəti haqqında danışıb, təhsil və fərdi inkişafla bağlı tövsiyələr verib. "Şəfəq" uşaq bağçasında isə məcburi köçkün ailələrdən olan balacalar qonağa nağıl qəhrəmanları haqqında yığcam səhnəcik təqdim ediblər.

Xaviyer Nart 44 günlük Vətən müharibəsinin ən gənc şəhidlərindən olan İsmayıl Davud oğlu Mehdiyevin ailə üzvləri ilə də görüşüb. Ona şəhidin bioqrafiyası, döyüş şücaəti barədə məlumat verilib. Bildirilib ki, məcburi köçkünlüyün məhrumiyyətlərini görmüş İsmayıl doğma yurdun azad edilməsi üçün canını fəda edib. Avropalı qonaq şəhid ailəsinə başsağlığı verib, bölgədə sülhün bərqərar olmasının vacibliyini vurğulayıb.

Xaviyer Nart məcburi köçkünlərlə görüş üçün yaradılan şəraitə görə minnətdarlıq edib, görüşlərdən razı qaldığını bildirib.

Avropalı deputatın işğaldan azad edilmiş ərazilərdə yaradılan bərpa-quruculuq işləri ilə tanış olmaq üçün Şuşaya səfər etməsi nəzərdə tutulur.

# Milli Məclisin Sədri Sahibə Qafarova Sinqapur Respublikasına rəsmi səfərə gedib

**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti mayın 14-də Sinqapur Respublikasına rəsmi səfərə gedib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, "Sinqapur Çanqi" Beynəlxalq Hava Limanında Milli Məclisin Sədrini Azərbaycanın İndoneziyadakı səfiri Cəlal Mirzəyev və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində Milli Məclisin Sədri Sahibə Qafarovanın Sinqapur Respublikasında bir sıra rəsmi görüşləri nəzərdə tutulub.

Nümayəndə heyətinə deputatlar Məşhur Məmmədov, Səttar Möhbalıyev, Cavanşir Paşazadə, Nurlan Həsənov, parlament Aparatının rəhbəri Fərid Hacıyev və digər rəsmi şəxslər daxildirlər.

*"Azərbaycan"*

# Azərbaycanla Sinqapur arasında geniş əməkdaşlıq imkanları mövcuddur

**Milli Məclisin Sədri Sahibə Qafarova Sinqapur Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkə Parlamentinin Sədri Seah Kian Penq ilə görüşüb.**





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərə dair müzakirələr aparılıb. Seah Kian Penq bu səfərin ölkələrimiz və parlamentlərimiz arasında əlaqələrə töhfə verəcəyinə inamını ifadə edib. O, ölkələrimiz və qanunvericilik orqanlarımız arasında əlaqələrin daha da inkişafının vacibliyini vurğulayıb.

Söhbət zamanı bu il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünün tamam olduğu diqqətə çatdırılaraq, ötən illər ərzində Azərbaycan və Sinqapur arasında bir sıra sahələrdə əməkdaşlığın inkişaf etdiyi bildirilib. Qeyd olunub ki, coğrafi məsafəyə baxmayaraq, ölkələrimizin qarşılıqlı maraqlarına xidmət edəcək geniş əməkdaşlıq imkanları mövcuddur.

Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar, o cümlədən Qoşulmama Hərəkatı çərçivəsində uğurla əməkdaşlıq etdiyi bildirilib. Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin fəaliyyəti haqqında məlumat verərək, şəbəkənin parlamentlərimizin əməkdaşlığı baxımından mühüm bir platforma ola biləcəyini söyləyib. Spiker Azərbaycan Milli Məclisinin 2022-ci ildə ASEAN Parlamentlərarası Assambleyasında müşahidəçi statusu aldığını, bu təşkilatın da əməkdaşlıq baxımından daha bir imkan olduğunu deyib.

Bu səfərin Azərbaycan Milli Məclisi Sədrinin Sinqapura ilk səfəri olduğu diqqətə çatdırılaraq, iki ölkə arasında səfərlərin və fikir mübadilələrinin davam etdirilməsinin vacib olduğu bildirilib.

Sahibə Qafarova parlamentlərin qarşılıqlı fəaliyyətinin ikitərəfli və çoxtərəfli münasibətlərə mühüm və müsbət təsir göstərən amillərdən biri olduğunu diqqətə çatdıraraq, iki ölkənin parlamentləri olaraq əməkdaşlığı daha da inkişaf etdirmək, həmçinin parlamentlərarası təşkilatlarda bir-birimizi dəstəkləmək üçün qarşılıqlı fəaliyyətin daha da genişləndirilməsinin vacibliyini vurğulayıb.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadi, ticarət, nəqliyyat sahələrində əməkdaşlıq məsələləri də nəzərdən keçirilib. Həmçinin təhsil, elm, mədəniyyət, gənclər və idman sahələrində əlaqələrin inkişafının əhəmiyyəti qeyd olunub. Vurğulanıb ki, bu cür əməkdaşlıq ölkələrimiz arasında əlaqələrin inkişafına, insanlar arasında təmasların möhkəmlənməsinə töhfə verir.

Milli Məclisin Sədri qarşı tərəfə bu ilin noyabr ayında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 haqqında da məlumat verib. O, ölkəmizin belə mühüm beynəlxalq tədbirə evsahibliyi etməsinin Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizədə təkcə milli deyil, həm də regional və qlobal miqyasda göstərdiyi səylərin tanınmasının göstəricisi olduğunu söyləyib. Spiker sessiya çərçivəsində Parlamentlərarası İttifaq və Milli Məclisin birgə təşkilatçılığı ilə keçrilməsi nəzərdə tutulan parlament iclası haqqında da məlumat verərək, Sinqapur parlamentinin sədrini bu mühüm tədbirə dəvət edib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

Görüşdən sonra spiker Sahibə Qafarova Xatirə kitabını imzalayıb. Sonra Milli Məclisin nümayəndə heyəti Sinqapur parlamenti ilə tanış olub.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan-Çin münasibətləri yüksək inkişaf dinamikası ilə seçilir

**Mayın 14-də Milli Məclis Sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Çin Xalq Siyasi Məşvərət Şurasının Ümumçin Komitəsinin (ÇXSMŞ ÜK) sədr müavini, Şanxay Əməkdaşlıq Təşkilatının Mehriban Qonşuluq, Dostluq və Əməkdaşlıq üzrə Çin Komitəsinin sədri Şen Yueyuenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, birinci vitse-spiker qonaqları salamlayaraq Azərbaycanla Çin arasında yüksək inkişaf dinamikası ilə seçilən münasibətlərin strateji xarakter daşıdığını və ölkələrimizin bir çox istiqamətlərdə uğurla əməkdaşlıq etdiklərini bildirib. O, Azərbaycanın həmişə "Vahid Çin" siyasətini, onun ərazi bütövlüyünü və suverenliyini birmənalı olaraq dəstəklədiyini diqqətə çatdırıb və Çinin ölkəmizin ərazi bütövlüyünü və suverenliyini müdafiə etməsini də yüksək qiymətləndirib.

Əli Hüseynli ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlığını vurğulayıb, bir çox qlobal əhəmiyyətli layihələrdə, eləcə də Orta dəhlizin reallaşması çərçivəsində birgə səylərini yüksək dəyərləndirib, Azərbaycanda iqtidar partiyası olan Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında müntəzəm əlaqələrin əhəmiyyətini qeyd edib, bir sıra sahələrdə və parlament müstəvisində əlaqələrimizin inkişaf etdirilməsi, o cümlədən işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı infrastruktur layihələrində Çin şirkətlərinin iştirakı barədə fikirlərini bölüşüb.

Çin Xalq Siyasi Məşvərət Şurasının Ümumçin Komitəsinin sədr müavini Şen Yueyue ölkəmizə səfəri ilə bağlı xoş təəssüratlarını bildirib, göstərilən yüksək qonaqpərvərliyə, Azərbaycanda Çinə və Çin xalqına olan isti münasibətə, dəstəyə görə təşəkkür edib. Azərbaycan-Çin əlaqələrinin möhkəmlənməsində dövlət başçılarının xüsusi rolunu vurğulayan qonaq bu yüksək siyasi dialoqun iqtisadi-ticari münasibətlərə və digər sahələrdə əməkdaşlığın inkişafına müsbət təsir etdiyini vurğulayıb, əlaqələrin genişləndirilməsi ilə bağlı fikirlərini səsləndirib.

Sonra Milli Məclisin Çinlə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Siyavuş Novruzov, qrupun üzvü İsa Həbibbəyli ölkələrimiz arasında bir sıra istiqamətlərdə münasibətlərin gələcək perspektivləri haqqında danışıblar.

Söhbətdə tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparıblar.

Görüşdə Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov, deputatlar Rauf Əliyev, Elman Nəsirov, parlament Aparatı rəhbərinin müavini Rüstəm Mahmudov və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# Çin Xalq Siyasi Məşvərət Şurasının nümayəndə heyəti Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib





**Azərbaycanda səfərdə olan Çin Xalq Siyasi Məşvərət Şurasının Ümumçin Komitəsinin sədr müavini Şen Yueyuenin başçılıq etdiyi nümayəndə heyəti aprelin 14-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil qoyub.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, sonra nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edərək ölkəmizin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər çiçəklər düzüb.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə ətraflı məlumat verilib.

Ziyarət zamanı nümayəndə heyətini Milli Məclisin deputatı Fatma Yıldırım və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

**Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**



Mayın 14-də baş prokuror Kamran Əliyev Göyçay Rayon Prokurorluğunun inzibati binasında Göyçay, Kürdəmir, İsmayıllı, Qəbələ rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, qəbulda iştirak edən 67 vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb. Eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.

# Milli Məclisin deputatları Şimali Kiprdə "İtirilmiş avtobus" abidəsinin açılışında iştirak ediblər

**Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan-Şimali Kipr Türk Respublikası (ŞKTR) parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun sədri Cavanşir Feyziyevin başçılıq etdiyi deputat qrupu Şimali Kiprdə "İtirilmiş avtobus" abidəsinin açılışında iştirak edib.**



AZƏRTAC xəbər verir ki, 60 il əvvəl işə gedərkən yunan millətçiləri tərəfindən qətlə yetirilən 11 kiprli türkün xatirəsinə həsr olunmuş mərasimdə ŞKTR-in Prezidenti Ersin Tatar, parlamentin spikeri Zorlu Töre, Baş nazir Ünal Üstel çıxış ediblər.

O faciəli gündə - 1964-cü il mayın 13-də fəhlələri daşıyan həmin avtobusu tapmaq mümkün olmayıb, faciə qurbanlarının cəsədlərinin qalıqları isə 2009-cu ildə kənd quyularının birində aşkar edilib. Qatillər onları güllələdikdən sonra quyuya atıblar.

Prezident Ersin Tatar çıxışında azərbaycanlıların günahsız dinc insanların öldürülməsi kimi faciələrin acısını bütün xalqlardan yaxşı bildiyini qeyd edərək, ermənilərin Xocalıda törətdikləri qanlı soyqırımı aktını nümunə göstərib.

Siyasətçi mərasimdə iştirakına görə azərbaycanlı parlamentarilərə təşəkkür edib, türk xalqlarının yaxınlaşmasında Azərbaycan rəhbərliyinin və şəxsən Prezident İlham Əliyevin mövqeyini yüksək qiymətləndirib.

ŞKTR-in Baş naziri Ünal Üstel çıxışında Lefkoşanın Ankara və Bakı ilə həmrəyliyinin əhəmiyyətindən danışıb. Onun sözlərinə görə, Azərbaycanla yaxınlaşma istiqamətində atılan hər yeni addım digər dövlətləri Şimali Kipr Türk Respublikası ilə dialoqa stimullaşdırır.

Baş nazir Şimali Kipr sakinlərinin gənc nəslini tarixi faktları yadda saxlamağa və yalan təbliğatla mübarizə aparmağa çağırıb.

Sonra çıxış edən ŞKTR parlamentinin sədri Zorlu Töre ölkəsinin suverenlik və müstəqilliyin təmin edilməsi istiqamətindəki kursunun dəyişmədiyini bildirib. "Xalqın tarixini unutdurmaq yolverilməzdir. Bundan dərs almaq və gələcək nəsillərə çatdırmaq vacibdir. Əks halda, faciəli hadisələr təkrarlana bilər və dezinformasiya Kiprdə baş verən hadisələrin təhrif olunmasına gətirib çıxarar", - deyə o vurğulayıb.

Azərbaycan və ŞKTR parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun sədri Cavanşir Feyziyev xatırladıb ki, Azərbaycan tarixiboyu dəfələrlə çağırış və təhdidlərlə üzləşib, lakin sonda bəlalara və problemlərə son qoyub. Millət vəkili buna misal olaraq Vətən müharibəsində ölkəmizin Qələbəsini göstərib.

"Əminəm ki, ŞKTR xalqı da müstəqillik mübarizəsində uğurlar qazanacaq. Azərbaycan sakinləri Kipr türk xalqına dərin rəğbət bəsləyir və həm parlament, həm də digər strukturlar səviyyəsində dəstəyə hazırdırlar", - deyə Feyziyev vurğulayıb.

Onun sözlərinə görə, Milli Məclis ŞKTR ilə dialoq üzrə gələcək addımları müzakirə etməyə hazırdır.

Mərasim iştirakçıları "İtirilmiş avtobus" abidəsinin açılışını bildirən qırmızı lenti kəsiblər. Heykəlin ətrafında yunan millətçilərinin qurbanlarının qalıqlarının yanında aşkar edilmiş əşyaların nümayiş olunduğu stend yaradılıb.

# Qərbi Azərbaycan İcması ATƏT-i Ermənistandan qovulmuş azərbaycanlıların öz evlərinə qayıdışına dəstək verməyə çağırıb

**Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli ATƏT-in fəaliyyətdə olan sədri, Maltanın xarici işlər naziri İan Borqa məktub göndərərək ATƏT-i Ermənistandan qovulmuş azərbaycanlıların öz evlərinə qayıdışına dəstək verməyə çağırıb.**

İcmadan AZƏRTAC-a bildiriblər ki, məktubda Ermənistandan azərbaycanlıların qovulması, onların mədəni irsinin, məscidlərinin, qəbiristanlıqlarının və digər müqəddəs yerlərinin dağıdılması barədə məlumat verilir. Ə.Ələkbərli Qərbi Azərbaycan İcmasının fəaliyyətinin əsas məqsədinin Ermənistandan qovulmuş azərbaycanlıların beynəlxalq hüquq çərçivəsində sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə öz evlərinə qayıtmalarını təmin etmək olduğunu vurğulayıb. Məktubda icmanın beynəlxalq hüquqa, o cümlədən dövlətlərin ərazi bütövlüyünə hörmətlə yanaşdığı, qayıdış məsələsi ilə bağlı Ermənistan ilə dialoqa hazır olduğu bildirilir və Ermənistanın dialoqdan boyun qaçırdığı təəssüflə qeyd edilir.

Ə.Ələkbərli həmçinin ATƏT-in tədbirlərində Qərbi Azərbaycan İcmasının iştirakına Ermənistanın əngəl törətməyə çalışması faktlarını diqqətə çatdırıb, ATƏT-i Ermənistanın ifadə azadlığı və vətəndaş cəmiyyətinin fəaliyyətinə qarşı olan bu cəhdlərini pisləməyə çağırıb.

Məktubun əsli icmanın nəzdində fəaliyyət göstərən "Qərbi Azərbaycan Televiziyası" kanalının müxbiri tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin Bakıda Azərbaycanın xarici işlər naziri ilə keçirdiyi mətbuat konfransında ona təqdim edilib.



# “Nəyi deyirəmsə, onu da edirəm!”

*Əvvəli 1-ci səh.*

Dövlət başçısının söylədiyi kimi, artıq hər kəs Azərbaycanın nəyə qadir olduğunu yaxşı bilir. Siyasi və iqtisadi müstəqilliyə, qüdrətli orduya, sarsılmaz xalq-iqtidar birliyinə sahib olan ölkə kimi Cənubi Qafqazın liderinin məqsədi yalnız bölgənin təhlükəsizliyinin təminatıdır.

Azərbaycan heç zaman müharibə istəməyib və bu gün də istəmir.

Azərbaycanın heç kimin torpağında gözü olmayıb, bu gün də yoxdur.

Azərbaycanın yeganə istəyi bölgədə sülhün bərqərar olması və Qafqazda yeni dönəmin başlanmasıdır. Əgər sülh olarsa, regionda yeni əməkdaşlıq platformalarının yaranması da qaçılmazdır. Bu isə, əlbəttə ki, region ölkələrinin iqtisadiyyatına öz müsbət təsirini göstərəcək.

Yox əgər regionda marağı olan qüvvələr Azərbaycanın xəbəri olmadan hansısa layihəni, hansısa mənfur planı həyata keçirmək istəsə, onda vəziyyət dəyişəcək. İlham Əliyev bir daha bölgə ilə bağlı çirkin planlar düşünən, buna cəhd etmək istəyən qüvvələrə səslənərək dedi ki, Azərbaycansız bölgədə heç bir proses alınmayacaq. Ölkəmizin nəyə qadir olduğunu həmin qüvvələr də yaxşı bilir. İstənilən təxribata layiqli cavab veriləcək. Heç kim Azərbaycanın qarşısında dura bilməz: "Hər kəs yaxşı bilir ki, biz nəyə qadirik, ordumuz nəyə qadirdir və iradəmiz nə qədər möhkəmdir. Heç kim bizim qabağımızda dura bilməz. Heç kim bizə heç nə diktə edə bilməz və bizim daxili işlərimizə müdaxilə edə bilməz. Nəyi lazım biliriksə, onu da edəcəyik".

Qalib Komandan bir daha həm Ermənistana, həm onun havadarlarına, həm də bütün antiazərbaycançı şəbəkəyə xəbərdarlığını etdi. Yəqin ki, bu gün Ermənistanda küçələrə düşüb Azərbaycanla sülh müqaviləsinin imzalanmasının əleyhinə çıxan keçmiş hərbi xuntanın tör-töküntüləri, revanşist qüvvələr İlham Əliyevin xəbərdarlığından dərs götürəcəklər. Çünki həmin qüvvələrə yaxşı bəllidir ki, Azərbaycan Prezidenti eləbelə söz demir. İlham Əliyev deyir və edir.

Dövlət başçısı keçmiş Minsk qrupunun iki üzvünə də sözünü çatdırdı. Hələ müharibədən öncəki illəri xatırladan İlham Əliyev dedi ki, konkret olaraq ABŞ və Fransa keçmiş Dağlıq Qarabağ problemini həll etmək istəməyiblər. Çünki həmin ölkələr bu torpaqları ermənilərə vəd vermişdilər: "Necə ki, sovet dövründə ermənipərəst Qorbaçov və ondan sonra Yeltsin bu torpaqları ermənilərə vəd vermişdilər və Fransa da, Amerika da həmçinin eyni addımı atmışdı".

Əgər diqqət etsək görərik ki, İkinci Qarabağ müharibəsindən sonra da Azərbaycana qarşı təxribatlarda əsas rol oynayanlar - Fransa və ABŞ-dir. Fransa prezidenti Emmanuel Makron "ermənidən çox ermənilik" prinsipinə sadiq qalaraq Azərbaycana qarşı bütün çirkin kampaniyalarda iştirak edir. ABŞ isə sözdə Azərbaycanın yaratdığı reallıqları dəstəklədiyini bildirsə də, əməldə Ermənistanın sülh müqaviləsini imzalamaması üçün çalışan Fransanın yanındadır. Ona görə də İlham Əliyev bir daha həqiqətləri söyləyərək hər iki ölkəyə fikirlərini çatdırdı: "Onlar da bilməlidirlər ki, bizim iradəmizdən kənar bu bölgədə heç bir məsələ həll olunası deyil. Burada, bu torpaqda söz sahibi bizik... Həm Azərbaycan xalqına, həm də bu bölgəyə maraq göstərənlərə bir daha demək istəyirəm ki, bizimlə hesablaşmadan burada bir addım da atılmamalıdır bundan sonra. Əminəm ki, mənim sözümü eşidirlər, bilirlər mən nəyi deyirəmsə, onu da edirəm".

Bir sözlə, İlham Əliyev Zəfərin zirvəsi olan Şuşadan tək Ermənistana, ona dəstək verən Fransa və ABŞ-yə deyil, dünyaya səslənərək Azərbaycanın mövqeyini, məqsədini açıqladı. Azərbaycan yalnız sülh istəyir. Müharibə istəyən qüvvələrlə də mübarizə aparmaq gücünə, qüdrətinə sahibdir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Böyük qayıdış daha intensiv şəkil alacaq

## Qarabağ və Şərqi Zəngəzurda güclü infrastruktur qurulur

**"Mayın 10-da xalq olaraq növbəti dəfə qürur hissi yaşadıq və dünyaya kimliyimizi, Azərbaycanın gücünü, qüdrətini nümayiş və isbat etdik. Qarabağın göz bəbəyi olan Şuşada Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə silsilə açılışlar baş tutdu və bu tədbirlərin hər birində dövlət başçısının dili ilə dünyaya mesajlar çatdırıldı".**

Milli Məclisin deputatı Jalə Əliyeva qəzetimizə açıqlamasında bildirib ki, dövlətimizin mövqeyi, bu günü və sabahı, həyata keçirdiyi siyasət ilə bağlı ölkə rəhbərinin ifadə etdiyi fikirlərin hər biri özünü azərbaycanlı sayan hər kəs üçün böyük qürur və sevinc qaynağına çevrildi. Həmin gün Prezident evlərin açarlarını uzun illərdən bəri torpaqlarına, doğma ocaqlarına həsrət qalan şuşalılara təqdim etdi.

Artıq üç ildir ki işğaldan azad olunmuş ərazilərə köçün başladığını deyən Jalə Əliyeva bildirib ki, bu gün Böyük qayıdış daha sürətlə davam edir. Şərqi Zəngəzur və Qarabağda quruculuq işlərini həyata keçirərək bölgədəki mövqeyimizi, söz sahibliyimizi gücləndiririk. "İşğaldan azad olunmuş şəhər və kəndlərimizə qayıdış bundan sonra da davam edəcək. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, qayıdış daha intensiv şəkil alacaq və bu bölgə dünyanın ən gözəl guşəsinə çevriləcək. Bunu Azərbaycan edəcək. Xalqın əvəzsiz, xilaskar Prezidenti öz dəmir iradəsi, gücü ilə kökünü Ulu Öndər Heydər Əliyev siyasətindən almış praqmatik liderlik məharəti ilə bütün bunlara nail olacaq", - deyə o əlavə edib.



Uzun illər işğal altında qalmış, dağıdılmış ərazilərimizin yenidən canlandığını diqqətə çatdıran deputat vurğulayıb ki, həmin ərazilərdə bərpa və yenidənqurma işləri davam etdirilir. Bu torpaqlarda güclü infrastruktur qurulur, insanlarımızın normal yaşaması, yaratması üçün vacib olan bütün layihələr həyata keçirilir. İstər inzibati binalar, istər təhsil müəssisələri, xəstəxanaların, hotellərin tikilməsi, hava limanlarının salınması bu gün dünya standartlarına cavab verən layihələrdir.

Deputat qeyd edib ki, möhtəşəm quruculuq işlərinin arxasında ilk növbədə Azərbaycanın qəti qələbəsi, Azərbaycan insanının bu torpağın əzəli və əbədi sakini olması faktı dayanır: "Qarabağın işğaldan azad olunduğu günlərdə Prezidentin dili ilə səslənən "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!" mesajı bu gün öz təsdiqini tapıb. "Sözümüz imzamızdır" deyən dövlət başçısının dediyi kimi, bunlar yalnız sözdən ibarət deyil. Hər birinin arxasında güclü iradə, imza dayanır. Bu da Prezident İlham Əliyevdir. Qürurluyuq, sevincliyik, xoşbəxtik. Nə yaxşı ki, azərbaycanlıyıq. Nə yaxşı ki, artıq Qarabağlı Azərbaycanıq deyə bilirik".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Ermənistanın sülh müqaviləsini imzalamaqdan başqa yolu yoxdur

**"Azərbaycan qalib dövlət olaraq Cənubi Qafqaz regionunda yeni reallıqlar yaradıb. Faktiki olaraq, konfrontasiya geosiyasi xəttini sındıraraq regionu əməkdaşlıq və təhlükəsizlik müstəvisinə çevirib. Bunun tarixi, siyasi, sosial, mədəni, iqtisadi və hərbi-strateji nəticələri özünü göstərir. Dövlətimizin yaratdığı reallıqlar bundan sonra Cənubi Qafqazı ziddiyyətlər və münaqişələrdən xilas edib, sülh və əməkdaşlıq məkanına çevirməyə xidmət edir".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Sevinc Fətəliyeva deyib. Deputat qeyd edib ki, dövlətimiz işğaldan azad edilmiş ərazilərimizi ən müasir formada bərpa edir, keçmiş məcburi köçkünlər doğma yurdlarına qayıdırlar: "Mayın 10-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Şuşa şəhərində ilk yaşayış kompleksinin açılışı və sakinlərin doğma yurda qayıdışı da buna nümunədir".

Deputat bildirib ki, dövlət başçısı Şuşaya qayıdan ilk sakinlərlə görüşü zamanı həyata keçirilən bərpa-quruculuq işləri, regionda sülh prosesi barədə fikirlərini ifadə edib, eləcə də sülh imkanlarını pozmaq istəyən dairələrə mesajlar verib: "Məlumdur ki, bəzi beynəlxalq güclər, Fransa, ABŞ və başqaları Azərbaycanın qələbəsi, yaratdığı reallıqlar ilə barışmaq istəmirdilər. Bu ölkələrin səfirləri Qarabağın incisi Şuşaya səfərdən imtina edirdilər. Amma bir neçə gün öncə ABŞ-nin səfiri Şuşaya səfər etdi. Bu kimi faktlar təsdiqləyir ki, bütün dünya Azərbaycanın yaratdığı yeni reallıqları qəbul etməyə məcburdur".

Sevinc Fətəliyevanın sözlərinə görə, bölgənin inkişafı, yeni reallıqların formalaşması, siyasi-iqtisadi münasibətlər sisteminin qurulması Azərbaycanın iradəsindən asılıdır. Prezident İlham Əliyev Şuşaya köçmüş ilk sakinlərlə görüşündə bildirdi ki, biz heç vaxt müharibə istəməmişik, bu gün də istəmirik: "Bizə müharibə lazım deyil, bizə torpaqlarımız lazım idi. Minsk qrupunun 28 ildəki fəaliyyəti Azərbaycan xalqına qarşı yönəldilmişdir. Onların yalançı vədləri və fəaliyyətsizliyi təsadüfi deyildi. Onlar məsələni həll etmək istəmirdilər. Onlar bu torpaqları ermənilərə vəd vermişdilər. Necə ki, sovet dövründə ermənipərəst Qorbaçov və ondan sonra Yeltsin bu torpaqları ermənilərə vəd vermişdilər və Fransa da, Amerika da həmçinin. Bu gün də baxın, bizə qarşı kimlər, necə deyərlər, əsas rol oynayırlar - Fransa və Amerika. Bunu açıq demək lazımdır, daha çox Fransa. Onlar da bilməlidirlər ki, bizim iradəmizdən kənar bu bölgədə heç bir məsələ həll olunası deyil".

Deputat vurğulayıb ki, hazırda sülh prosesinin aktiv müzakirəsinin aparıldığı, Azərbaycanla Ermənistanın müvafiq delimitasiya komissiyalarının razılaşmalar əldə etdiyi bir zamanda bəzi xarici qüvvələr müəyyən təxribatlara cəhd göstərirlər: "Başda Fransa olmaqla bəzi dairələr Cənubi Qafqazda qeyri-sabit siyasi vəziyyət yaratmaq istəyi ilə addımlar atır və bu addımların effektivliyini artırmaq üçün bir sıra qaranlıq məsələlərə baş vururlar. Ermənistanın silahlandırılması da bu məqsədə xidmət edir. Amma Ermənistandakı baş qaldırmış revanşist qüvvələr və onları himayə edənlər unutmamalıdır ki, "dəmir yumruq" hər zaman yerindədir. Prezident İlham Əliyev görüş zamanı həmin qüvvələrə bir daha xəbərdarlıq edərək deyib: "Əgər bu gün yenə də görsək ki, Ermənistanda revanşistlər baş qaldırır, Fransa Ermənistana öldürücü silahlar verir, o silahların kritik həddə çatmasını görsək, onda bizdən heç kim inciməsin. Hər halda hər kəs bilir ki, biz nəyə qadirik, Ordumuz nəyə qadirdir və iradəmiz nə qədər möhkəmdir. Heç kim bizim qabağımızda dura bilməz".

Sevinc Fətəliyeva yekunda qeyd edib ki, Prezident İlham Əliyev Cənubi Qafqazda yeni geosiyasi reallıqlar yaradıb: "Bölgədə dövlətimizin iradəsindən kənar hər hansı planın həyata keçirilməsi qeyri-mümkündür. Ona görə də Ermənistan anlamalıdır ki, sülhə gəlməkdən başqa alternativi yoxdur".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# Qarabağ və Şərqi Zəngəzur dirçəlir

## İşğaldan azad olunan ərazilərin milli iqtisadiyyata reinteqrasiyası dövlət siyasətinin əsas xəttini təşkil edir

**"Azərbaycan 44 günlük Vətən müharibəsi nəticəsində öz ərazi bütövlüyünü bərpa etdikdən sonra işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və bərpası, Qarabağ və Şərqi Zəngəzur rayonlarının milli iqtisadiyyata reinteqrasiyası əsas prioritetə çevrilib. Bu tədbirlər üzrə maliyyələşdirilmə hazırda ölkəmizdə həyata keçirilən siyasətin əsas xəttini təşkil edir".**

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib. Deputat bildirib ki, Böyük qayıdış proqramı çərçivəsində tikinti və şəhərsalma, infrastrukturun yaradılması, insanların öz evlərinə geri dönüşünün sürətlə təmin edilməsi və digər mühüm layihələr fasiləsiz şəkildə davam etdirilir. İndiyə qədər Zəngilanın Ağalı kəndinə, Füzuli şəhərinə, Talış kəndinə, Laçın şəhərinə, Zabux və Sus kəndlərinə sakinlərin qayıdışı, eləcə də mayın 10-da Şuşaya ilk qayıdışın gerçəkləşməsi bu prosesin ümumdövlət işinə çevrildiyini təsdiqləyir.

Deputat qeyd edib ki, bu il Cəbrayıl, Xocalı, Xocavənd və Xankəndiyə də keçmiş məcburi köçkünlərin qayıdışı baş tutacaq. "Bu ilin ilk 6 ayında Xocalıya və Xankəndiyə ümumilikdə 100 ailənin köçürülməsi planlaşdırılır. Eyni zamanda Şuşa və Kəlbəcərdə, Laçında, Zəngilanda və digər ərazilərdə inşa edilən kənd və qəsəbələrin tikintisi yekunlaşdıqca il ərzində həmin şəhər və rayonlara da köç gerçəkləşəcək. Cənab Prezident İlham Əliyev insanların 30 illik Vətən həsrətinə son qoyduğu kimi, doğma ocaqlarına qayıdışı, layiqli yaşayışı, işlə təmin olunması üçün də yorulmadan çalışır", - deyə deputat əlavə edib.



A.Hüseynov bildirib ki, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası tamamilə ölkəmizin maliyyə imkanları hesabına həyata keçirilir və bu proses davam etməkdədir. Ötən il dövlət büdcəsinə yenidən baxılması nəticəsində büdcədən bu məqsədlər üçün əlavə 1,8 milyard manat ayrıldı. Eləcə də 2023-cü ildə "Böyük qayıdış"ın icrası üçün əlavə olaraq həm Prezidentin ehtiyat fondundan, həm də dövlət büdcəsinin ehtiyat fondundan vəsait ayrıldı. Beləliklə, bu məqsəd üçün ümumi məbləğ 5 milyard manatı üstələdi. 2024-cü ilin dövlət büdcəsində də işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinə müəyyən vəsaitlər nəzərdə tutulub. Dövlətin maliyyə imkanlarından asılı olaraq, əlavə gəlirlər gəldikcə və yaxud büdcə vəsaitlərinə qənaət olunduqda həmin pullar qeyd etdiyim məqsədlərə yönəldiləcək. Nəticədə büdcədə imkanlar artdıqca ilk növbədə Böyük qayıdışın sürətli icrası təmin ediləcək.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Bakı Təşəbbüs Qrupu Fransa hakimiyyəti tərəfindən Yeni Kaledoniyada kanakların həbsini və mülki şəxslərə qarşı zorakılığı pisləyib

**Bakı Təşəbbüs Qrupu Fransa hakimiyyəti tərəfindən Yeni Kaledoniyada kanakların həbs olunmasına və mülki şəxslərə qarşı zorakılığa dair bəyanat yayıb.**

AZƏRTAC bəyanatı təqdim edir: "Bakı Təşəbbüs Qrupu Yeni Kaledoniyada baş verən hadisələrlə bağlı Fransa hakimiyyəti tərəfindən həyata keçirilən son həbslər və komendant saatının tətbiqi ilə əlaqədar ciddi narahatlığını bildirir. Fransa təhlükəsizlik qüvvələrinin kanak xalqına qarşı törətdiyi zorakılıqlar bizdə dərin narahatlıq doğurur.

İctimai toplantıların qadağan edilməsi və müstəqillik tərəfdarlarının həbsi bu məsələnin davamlı həlli hesab edilə bilməz. Fransa Senatı və Milli Assambleyası Yeni Kaledoniyada qanunsuz konstitusiya dəyişikliklərini dayandırmalıdır. Təklif olunan dəyişikliklər məqsədyönlü şəkildə seçki elektoratını qeyri-kanaklar hesabına artırmaq məqsədi daşıyır. Bu da öz növbəsində haqlı olaraq insanların narazılığına, habelə etiraz və nümayişlərinə səbəb olub.

Təəssüf ki, Yeni Kaledoniyada təklif edilən konstitusiya dəyişiklikləri ilə əlaqədar paytaxt Numea şəhərində və ətraf ərazilərdə keçirilən ümumi etirazlardan sonra Fransa təhlükəsizlik qüvvələri səfərbər edilib, komendant saatı tətbiq olunub. Toqquşmalar nəticəsində 82 mülki şəxs hüquq-mühafizə orqanları tərəfindən həbs edilib.




Kanak xalqının rəyi nəzərə alınmadan Konstitusiyaya təklif olunan son dəyişikliklər, dinc etiraz aksiyalarında iştirak edən mülki şəxslərə qarşı zorakılıq və həbslər bir çox qanunların, o cümlədən insan hüquqlarının, ifadə azadlığının, xüsusən də Fransanın beynəlxalq öhdəliklərinin kobud şəkildə pozulması ilə müşayiət olunub.

Paytaxt Numea şəhərində, həmçinin ətraf ərazilərdə baş vermiş və insan həyatı üçün təhlükə yaradan hadisələr Bakı Təşəbbüs Qrupu olaraq bizi dərindən narahat edir. Hüquq-mühafizə orqanlarının fundamental insan hüquqlarına hörmət etməsi məcburidir. Fransa polisinin etirazçılara qarşı həddən artıq güc tətbiq etməsi bütün vətəndaşların təhlükəsizliyini və ləyaqətini təhdid altına qoyur.

Biz kanaklı dostlarımızla həmrəyik və onların ədalətli mübarizəsində daim yanlarındayıq. Fransa hökumətindən kanak xalqının qərarının nəzərə alınmasını tələb edirik. Bakı Təşəbbüs Qrupu olaraq dinc dialoqun, insan hüquqlarına hörmət və əsas problemlərin ədalətli həllinin tərəfdarıyıq. Öz müqəddəratını təyinetmə hüququ hər bir xalq üçün əsasdır və biz öz xalqı üçün daha yaxşı, layiqli gələcək istəyənləri dəstəkləyirik".

# Çinlə "yaşıl enerji" əməkdaşlığının inkişafı müzakirə edilib

**Energetika naziri Pərviz Şahbazovla "China Energy Engineering Group Co.Ltd" şirkətinin sədri Song Hailiangin rəhbərlik etdiyi və "China Energy International Group Co. Ltd" şirkətinin sədri Lyu Zexiangin də daxil olduğu nümayəndə heyəti arasında görüş keçirilib.**



Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə bərpaolunan enerji üzrə çoxistiqamətli əməkdaşlıq əlaqələrinin inkişafına və COP29 çərçivəsində Çin şirkətləri ilə birgə fəaliyyətə dair müzakirələr aparılıb. Çində və qlobal miqyasda energetika və infrastruktur sənayeləri üçün sistematik, inteqrasiya olunmuş, hərtərəfli inkişaf planları və xidmətləri təqdim edən "China Energy Engineering Group Co.Ltd" şirkətinin həyata keçirdiyi layihələr barədə məlumat verilib. Çin şirkətlərinin ölkəmizdə nəhəng bərpaolunan enerji potensialının reallaşdırılması üzrə genişmiqyaslı fəaliyyət sahələrində iştiraka maraq göstərdikləri diqqətə çatdırılıb.

"Yaşıl enerji" dəhlizləri və interkonnektorlarının yaradılması, "yaşıl enerji"nin ixracı, "yaşıl hidrogen" və "yaşıl ammonyak"ın istehsalı-nəqli, həmçinin enerji saxlanc sistemləri üzrə əməkdaşlıq imkanları dəyərləndirilib. Həmçinin Energetika Nazirliyi ilə "China Gezhouba Group Overseas Investment" şirkəti arasında imzalanmış 2 QVt gücündə bərpaolunan enerji layihələrinin həyata keçirilməsinə dair Anlaşma Memorandumundan irəli gələn məsələlər müzakirə edilib. 60 MVt və 100 MVt gücündə günəş-elektrik stansiyalarının tikintisi ilə bağlı görülən tədbirlər və növbəti addımlar nəzərdən keçirilib.

Söhbət zamanı işçi qrupun yaradılması ilə potensial əməkdaşlıq istiqamətləri üzrə təkliflərin dəyərləndirilməsi və nəticədə müvafiq layihələrlə bağlı əməkdaşlıq edilməsi üçün qarşılıqlı fəaliyyətin gücləndirilməsi razılaşdırılıb.

# Azərbaycan Milli QHT Forumunun yeni rəhbərliyi Fəxri və Şəhidlər xiyabanlarını ziyarət edib





Azərbaycan Milli QHT Forumunun yeni seçilmiş İdarə Heyətinin və Nəzarət Təftiş Komissiyasının üzvləri mayın 14-də Fəxri xiyabana gələrək Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib, önünə gül dəstələri düzüblər. AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da xatirəsi ehtiramla yad olunub. Daha sonra forumun yeni rəhbərliyi Şəhidlər xiyabanlarını ziyarət edib. Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizədə həlak olan şəhidlərin məzarları üzərinə gül dəstələri düzülüb.

# Azərbaycanın 2031-ci ildə Hərbçilərin Olimpiya Oyunlarına evsahibliyi müzakirə edilib

**Dünya Hərbi İdman Şurasının (CİSM) Balkan, Qaradəniz və Qafqaz ölkələri üzrə idman əlaqələndiricisi Nevzat Varol Milli Olimpiya Komitəsində olub.**



MOK-dan AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Azərbaycanın 2031-ci ildə Hərbçilərin Olimpiya Oyunlarına evsahibliyi etməsi məsələsi müzakirə edilib.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə qurumun MOK-un beynəlxalq idman əlaqələrindən danışıb. O, bu əlaqələrin hər zaman yüksək səviyyədə olduğunu deyib.

Bakıya səfərindən məmnunluğunu bildirən Nevzat Varol Azərbaycanda idmanın inkişafının beynəlxalq aləmə də səs saldığını bildirib.

Azərbaycanın I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, Bakı-2019 və digər mötəbər idman tədbirlərinə uğurla evsahibliyi etdiyini vurğulayan N.Varol 2031-ci ildə Azərbaycanda Hərbçilərin Olimpiya Oyunlarının keçirilməsi təklifi ilə çıxış edib.

"Beynəlxalq Hərbi İdman Şurası Beynəlxalq Olimpiya Komitəsindən sonra ikinci ən böyük multiidman təşkilatıdır. Hər Yay Olimpiya Oyunlarından bir il əvvəl Hərbçilərin Olimpiya Oyunları keçirilir. Burada əsas məqsədimiz Olimpiya Oyunlarına xidmət etməkdir. Bu günə qədər yeddi dəfə Hərbçilərin Olimpiya Oyunlarını keçirmişik. Sonuncu dəfə 2019-cu ildə Çinin Uhan əyalətində bu yarış uğurla təşkil olunub. Oyunlar 2023-cü ildə isə Cənubi Afrikada keçirilməli olsa da, onlar bunu 2027-ci ilə qədər təxirə saldılar. Biz artıq yeni layihələr üzərində çalışırıq. İstəyirik ki, 2031-ci ildə hərbçilərin IX Olimpiya Oyunlarını Azərbaycanda təşkil edək. Azərbaycan daha əvvəl I Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunları kimi mötəbər idman tədbirlərinə uğurla evsahibliyi edib. Bunun üçün də düşünürəm ki, Azərbaycanın bu idman tədbirinə evsahibliyi etməsi üçün maddi texniki bazası, lazımi infrastrukturu, könüllüləri və təcrübəsi var", - deyə Nevzat Varol bildirib.

MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə isə təklifi müsbət qarşılayıb. Təklifin dəyərləndirilməsi üçün Milli Olimpiya Komitəsinin rəhbərliyi ilə müzakirənin vacib olduğunu vurğulayıb.

Görüşdə komitənin baş katibi Azər Əliyev və idman idarəsinin müdiri Həsənağa Rzayev də iştirak ediblər.

# Azərbaycan Milli QHT Forumunun X qurultayı keçirilib

**Mayın 14-də Azərbaycan Milli QHT Forumunun X qurultayı keçirilib. AZƏRTAC xəbər verir ki, qurultayda əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü, suverenliyi uğrunda mübarizədə canlarını qurban verən şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub, Dövlət himni səsləndirilib.**



Qurultayda forumun Nizamnaməsinə köklü dəyişikliklər edilib, "prezident" postu ləğv olunub, əsas səlahiyyətlər İdarə Heyətinə ötürülüb, İdarə Heyəti üzvlərinin səlahiyyət müddəti 4 ildən 5 ilə qaldırılıb. Tədbirdə köhnə tərkib tam heyətlə buraxılıb, yeni tərkib formalaşıb.

Qurultayda son 15 ildə ilk dəfə olaraq rəhbər şəxs dəyişdirilib, 5 nəfərdən ibarət İdarə Heyəti yaradılıb.

İdarə Heyətinin sədri postuna "Hüquqi Təhlil və Araşdırmalar" İctimai Birliyinin rəhbəri **Ramil İSKƏNDƏRLİ** seçilib. O, QHT sahəsində 25 ilə yaxın iş təcrübəsinə malikdir, peşəkar hüquqşünasdır, ABŞ-nin, Britaniyanın, Almaniyanın nüfuzlu universitetlərində hüquq üzrə müxtəlif proqramları bitirib. Ramil İskəndərli xarici ölkələrdə beynəlxalq tədbirlərdə fəal iştirakı ilə seçilir. 2023-cü ilin iyul ayından Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın sədridir. Beynəlxalq hüquq və insan hüquqları sahəsində bir sıra elmi məqalələrin müəllifidir.

İdarə Heyətinin digər üzvləri də peşəkar QHT təmsilçilərindən formalaşıb. Onlar aşağıdakılardır:

**Pərvanə VƏLİYEVA** - "Sağlamlığa Xidmət" İctimai Birliyinin icraçı direktoru. O, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının məzunudur, "Prezident təqaüdçüsü" olub. Uzun illərdir QHT sahəsində fəaliyyət göstərir, BMT, ATƏT, ÜST və digər beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq təcrübəsinə malikdir. 2021-ci ildən Vərəm əleyhinə Avropa Koalisiyasının İdarə Heyətinin üzvüdür. 2023-cü ilin yayından Ermənistanın dağ-mədən sənayesinin ekoloji fəsadlarına qarşı fəaliyyətə başlayan "Environmental Protection First" (EPF) Koalisiyasının həmtəsisçisidir. 2024-cü ilin fevralında COP29 Təşkilat Komitəsinin üzvü təyin olunub.

**Azər ALLAHVERƏNOV** - "Avrasiya Miqrasiya Təşəbbüsləri Platforması" İctimai Birliyinin sədri.

Otuz ildən çoxdur QHT sahəsində fəaliyyət göstərir. O, Azərbaycan Gənclər İttifaqında, Uşaq və Gənclərin Xeyriyyə Fondunda çalışıb. Miqrasiya sahəsində genişspektrli beynəlxalq fəaliyyəti ilə seçilir. 2021-ci ildən Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının üzvüdür. 2023-cü ildən "İNJURİA" jurnalının redaksiya şurasının sədridir. Xarici elmi jurnallarda sosial və humanitar, o cümlədən miqrasiya mövzularında yazılmış onlarla elmi məqalələrin müəllifidir. "Tərəqqi" və digər medallarla təltif olunub.

**Xatirə VƏLİYEVA** - "Xankəndi" Məcburi Köçkünlərə Dəstək İctimai Birliyinin sədri.

Uzun illərdir QHT sektorunda fəaliyyət göstərir. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin İctimai Şurasında, keçmiş "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin İdarə Heyətində təmsil olunub. Erməni dilini bilir.

**Zaur İBRAHİMLİ** - "Prioritet" Sosial İqtisadi Araşdırmalar Mərkəzi İctimai Birliyinin sədri.

İyirmi beş ildən çoxdur QHT sektorunda fəaliyyət göstərir. "Konstitusiya" Araşdırmalar Fondunda vitse-prezident olub. Beynəlxalq təşkilatlarla sıx iş təcrübəsinə malikdir. İctimai iştirakçılıq, korrupsiyaya qarşı mübarizə və bir sıra istiqamətlər üzrə peşəkar təlimçidir. 2021-ci ildən Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının üzvüdür. Xarici nəşrlərdə bir sıra elmi məqalələrin müəllifidir.

* * *

Qurultayda çıxış edən Prezident Administrasiyasının QHT-lərlə iş və kommunikasiya şöbəsinin QHT-lərlə iş sektorunun müdiri Tural Əliyev tədbir iştirakçılarının səsverməsi ilə yeni formalaşmış İdarə Heyətinə fəaliyyətində uğurlar arzulayıb. O deyib: "Azərbaycan Milli QHT Forumu illərdir arzusunda olduğu islahatlar mərhələsinə qədəm qoyur, estafeti bir nəsil digərinə yüksək ləyaqətlə ötürür. Bu, Azərbaycan vətəndaş cəmiyyətində formalaşmış nümunəvi ictimai dəyərlərdən, yetkin mədəniyyətdən xəbər verir. Forumun Nizamnaməsində aparılan sistem xarakterli dəyişikliklər qurumun müasir dövrün tələblərinə uyğun çevik idarəçilik modelinə keçməsinə işarədir. Qarşıdakı müddətdə bunun müsbət praktiki nəticələrini görəcəyimizə ümid edirik. Biz yeni İdarə Heyətini hadisələrin arxasınca gedən deyil, əksinə, müsbət təşəbbüslərin bayraqdarı kimi təsəvvür edirik. Yeni İdarə Heyətindən QHT-lərin ictimai vəkilliyi işində, ictimai maraqların müdafiəsində, o cümlədən cəmiyyətdə kök salmış mənfi stereotiplərin təmizlənməsi işində yüksək fəallıq gözləyirik".

PA rəsmisi bildirib ki, qarşıdakı dövrdə QHT sektorunda islahatlar daha da dərinləşdiriləcək. Bu islahatlar QHT-lərin sağlam, münbit şəraitdə inkişafı, şəffaf, hesabatlı fəaliyyəti üçün meydanı daha da genişləndirəcək.

QHT-lərə Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva Rauf Zeyniyə fəaliyyəti dövründə agentliklə sıx əməkdaşlığa görə təşəkkürünü bildirib və onu diplomla təltif edib. A.Əliyeva yeni heyətə təbriklərini çatdırıb.

Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin sədri Ramil İsgəndərli etimada görə qurultay iştirakçılarına təşəkkür edib, gözləntiləri doğrultmaq üçün fəal iş aparacaqlarını bildirib.

**Beynəlxalq icmal**

# Udan yenə də üçüncü tərəfdir

**Çinin dövlət başçısı Si Cinpinin 5-10 mayda baş tutan Avropaya turnesindən bir neçə gün keçsə də, dünyada diqqətlə izlənilir, səfərin nəticələri mətbuatda və siyasi dairələrdə geniş müzakirə olunur. Və bu zaman fikirlər müxtəlif olsa da, həmin səfərə nədənsə Amerika-Çin münasibətləri kontekstində münasibət bildirilir.**

Məlumdur ki, CXR əvvəlcə Amerikaya iqtisadi, son dövrlər isə siyasi və hərbi məsələlərdə rəqib kimi çıxış edir. ABŞ xüsusilə Çinin Rusiya və İrana göstərdiyi dəstəkdən rahatsızdır. Çin isə okeanın o tayından edilən bütün xəbərdarlıqlara məhəl qoymayaraq bu istiqamətdə siyasətini davam etdirir.

Amerikanın rahatsızlığına son dövrlər Çin-Avropa yaxınlaşması da əlavə olunub. Belə ki, Almaniya Kansleri Olaf Şolts və Fransa Prezidenti E.Makronun Çinə səfərləri və mayın əvvəlində Si Çinpinin Avropa turnesi okeanın o tayındakı ABŞ-nin üzə vurmasa da, qanını qaraldıb. Çünki ABŞ Çin-Avropa yaxınlaşmasını işləyib hazırladığı dünya hegemonluğunu qorumaq strategiyasına təhdid kimi qəbul edir.

ABŞ-nin Avropa ilə ultimativ dildə danışmasının tarixinə nəzər yetirdikdə görürük ki, İkinci Dünya müharibəsinə kimi qlobal siyasəti Avropa müəyyənləşdirirdi. Müharibədən sonra isə məlum səbəbdən vəziyyət dəyişdi. Məlum səbəb də o idi ki, müharibədən çıxmış SSRİ və Avropa xarabalığa çevrilmiş, ağır iqtisadi böhran yaranmış, insanlar dərin depressiyaya düşüb ciddi sosial problemlər içində qalmışdı. ABŞ isə ərazisinə bir mərmi düşməmiş qalib idi. Üstəlik, ABŞ-nin "qoca qitə"ni SSRİ ilə qorxutmaq üçün fürsət yaranmışdı. Bu səbəbdən çarəsiz qalan avropalılar okeanın o tayından gələn direktivlərə boyun əyməyə məcbur idilər.

Tarix təkrar olunur. Bu gün də ötən əsrin 40-cı illərində baş verən hadisələr bu və ya digər formada cərəyan edir və Avropa bundan əndişələnir. Rusiya-Ukrayna müharibəsi "qoca qitə"yə baha başa gəlir. Avropa həm ucuz Rusiya qazından və ixrac bazarından məhrum olub, həm də bir əli Ukraynanın üzərindədir ki, Rusiya qalib gəlib qərbə doğru irəliləməsin.

Si Cinpinin Avropa turnesində Fransa, Macarıstan və Serbiyaya səfərləri nəzərdə tutulmuşdu. Əslində isə, bu səfərin məqsədi ümumilikdə Çin-Avropa danışıqları idi. Məlumdur ki, Angela Merkel siyasətdən getdikdən sonra yaranan boşluğu Fransa, daha doğrusu, E.Makron doldurmaq istəyir. Bu səbəbdən Fransa lideri Çinlə aparılan danışıqlarda daha çox Avropanın problemləri də müzakirə mövzusu oldu. E.Makronun Si Cinpindən dönə-dönə Rusiya-Ukrayna müharibəsinin dayandırılmasına yardımçı olması barədə xahişi isə Avropanın rahatsızlığından qaynaqlanır. Avropa ölkələri başa düşürlər ki, bu müharibə hər an bütün qitəyə yayıla bilər. Üstəlik, onun nüvə müharibəsinə çevriləcəyi ehtimalı da qalır. Rusiya dəfələrlə ali səviyyədə bəyan edib ki, əgər özünə təhlükə görərsə, strateji nüvə silahından istifadə edəcək. İndi Avropada anlamağa başlayıblar ki, iki ölkə arasındakı müharibə ABŞ-nin hərbi sənaye kompleksinə milyardlarla dollar xeyir gətirdiyi halda, Aİ iqtisadiyyatının itkiləri gündən-günə artır. O üzdən "qoca qitə" də Amerika siyasətindən narazıdır və düşdüyü vəziyyətdən çıxmaq üçün yollar axtarır.

Turne çərçivəsində Avropa ölkələri ilə Çin arasında olan müəyyən problemlərin həlli də müzakirə edildi. Həmin problemlərdən biri ondan ibarətdir ki, Çinlə Avropa arasındakı ticarətdə balans Asiya nəhənginə məxsusdur. Avropa bunu bərabərləşdirmək istəyir. Yəni bu dizbalansın hər iki tərəfin mənafeyinə uyğun olmasının marağındadır. Bunun üçünsə ÇXR-ə idxal artırılmalıdır.

Məlumdur ki, ABŞ-ni dünya hegemonu edən iki əsas gücüdür - iqtisadiyyatı və dolları. O da sirr deyil ki, Çin son dövrlər iqtisadiyyatını sürətlə inkişaf etdirərək beynəlxalq ticarət bazarında Amerikanı sıxışdırır. Məsələn, əvvəllər Cənubi Amerika bazarında ABŞ üstün mövqedə idi. Daha doğrusu, həmin bazarı ABŞ tam nəzarətə götürmüşdü. İndi Çin sürətlə bu bazara nüfuz edir. Hətta 2022-ci ildə Cənubi Amerika ilə ticarətdə Çin ikinci yerə yüksəlib. Yəni birinci olmağa çox qalmayıb. ABŞ isə bununla barışmaq istəmir.

Amerikanın fərdi ambisiyalarını təmin etmək üçün apardığı sanksiya siyasəti tərəfdaşlarına ziyan vursa da, rəqiblərinə xeyir gətirir. Avropanı da rahatsız edən budur. Məsələn, Avropa İttifaqının Rusiyaya qarşı yönələn sanksiyaları Çinin xeyrinə işləyir. Təkcə ÇXR-in sanksiyalardan dolayı çarəsiz qalan Rusiyadan ucuz qiymətə neft və qaz alması kifayət edir ki, Avropanın rahatsızlığının başqa yerdən qaynaqlanmaması aydın olsun. Biz hələ RF-nin müharibəni davam etdirməsi üçün qazanc mənbəyi əldə etməsini demirik.

Bu azmış kimi, məlum olub ki, Çin həmçinin sanksiya altında olan İrandan neft idxalını xeyli artırıb. Sinqapur və Malayziyadan vasitəçi kimi istifadə edən Çin sanksiyalardan bu yolla yayınaraq İrandan gündə 1,2 milyon barel ucuz neft alır. Bu isə illik 432 milyon barel ucuz neft deməkdir. Beləliklə, yenə də qazanan tərəf Çindir. Təbii ki, belə hal Amerikanı qəzəbləndirir və o, Çini cilovlamaq üçün yeni üsullar axtarır.

Lakin indi ABŞ seçki ərəfəsindədir. Bu səbəbdən o, Rusiyadan sonra Çinlə münasibətlərini gərginləşdirmək istəmir. Bununla belə, ara-sıra da olsa tezliklə Çinlə haqq-hesab çəkəcəkləri barədə bəyanatlar da səsləndirir. Xüsusilə bu məsələdə D.Tramp daha açıq danışır. İndidən bəyan edib ki, Çinlə ticarətdə tətbiq olunacaq vergilərin həcmini artıracaq.

Amma indinin özündə də Çini rahatsız edən səbəblər var. ÇXR ilk növbədə ABŞ-nin təzyiqi altında Rusiyanın xaricdəki, xüsusilə Avropadakı pullarının və daşınmaz əmlaklarından gələn gəlirlərinin Ukraynaya verilməsi barədə qəbul edilən qanundan çox əndişəlidir. Avropanın belə bir sənədə imza atmasını Çin gələcəkdə özü üçün təhlükə sayır. Niyə də saymasın?! Rusiyanın xaricdəki vəsaitinin həcmi 290 milyard dollardırsa, Çinin belə vəsaitinin məbləği trilyon dollarla ölçülür. Bu üzdən Çin liderinin Avropa turnesində belə qərarın qəbul edilməsinin doğru olmadığını dəfələrlə bildirməsi anlaşılandır.

Görünən odur ki, dünya Amerikanın hegemon olduğu birqütblü dünyadan imtina etmək barədə mübarizə aparır, ABŞ isə bunun əksinə olaraq, nəinki onu qorumaq, hətta əbədi etmək istəyir. Odur ki, ən azından böyük savaş Amerikadakı seçkilər başa çatdıqdan sonra başlanacaq. İndi hər kəs həmin savaşda yerini müəyyənləşdirməyə çalışır. Bu yer isə tərəfsizlik də ola bilər. Çünki iki tərəfin qarşıdurmasında udan adətən, üçüncü tərəf olur.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# *Türkiyəli politoloq:* "Ermənistanda delimitasiya əleyhinə etiraz edən revanşistlər heç bir ciddi nəticə əldə edə bilməyəcəklər"

**Ermənistanda revanşistlər həmişə olub, amma bu tendensiya 44 günlük müharibədən sonra xüsusilə güclənib. Amma həmin dairələrin ciddi dayağı və dəstəyi yoxdur. Onların gücü də azdır.**




Ermənistanda keçirilən son seçkilərin nəticələri, konkret desək, müharibədə məğlub olan Paşinyanın seçkilərdə qələbəsi erməni əhalisinin uzun müddət ermənilərə zülm edən Qarabağ klanından narazı olduğunu göstərir. Xalq regionda sülh istəyən, hadisələrə real baxan və son nəticədə Ermənistanın Cənubi Qafqazda normal mövcudluğu istiqamətində səylər göstərən baş nazir Paşinyanı dəstəkləyir.

Bu barədə AZƏRTAC-a müsahibəsində İrəvanda Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycanla sərhədin delimitasiyası üzrə siyasətinə etirazları şərh edən türkiyəli politoloq, Ankara Universitetinin professoru Toğrul İsmayıl bildirib.

İstər Ermənistanda, istərsə də xaricdə daşnaksütyun kimi müxtəlif qrupların və siyasi qüvvələrin bir əsrə yaxındır terrorla məşğul olduğunu, kritik şərait yaratmağa çalışdığını, "Böyük Ermənistan" mifi və ya qondarma "soyqırımı" ətrafında hay-küy saldığını söyləyən politoloq əlavə edib ki, bu qruplar və bəzi böyük dövlətlər bununla da öz imperiya və digər siyasi ambisiyalarını müxtəlif regionlarda, xüsusən də Cənubi Qafqazda reallaşdırmağa çalışırlar. Ekspert əlavə edib: "Lakin reallıq tamam başqadır. Bu gün reallıq ondan ibarətdir ki, Azərbaycan kifayət qədər balanslaşdırılmış, beynəlxalq hüquqa əsaslanan və geosiyasi amilləri nəzərə alan siyasət aparır. Məsələn, Türkiyə ilə Şuşa Bəyannaməsinin imzalanması iki ölkə arasında münasibətləri strateji tərəfdaşlıq müstəvisindən müttəfiqlik səviyyəsinə qaldırdı. Bundan əlavə, Azərbaycan Rusiya ilə analoji saziş imzalamaqla lazımi geosiyasi sabitliyi təmin etdi. Dünya gücləri də tədricən yeni reallıqları və Ermənistandakı revanşist qüvvələrə kənardan dəstək verməyə ehtiyac olmadığını dərk etməyə başlayırlar. Üstəlik, Paşinyanın Putinlə görüşündən sonra hesab edirəm ki, bəzi məsələlər artıq həll olunub".

Politoloqun sözlərinə görə, Rusiya da regionda reallıqları nəzərə alır və Ermənistanla vəziyyətin eskalasiyasından çəkinməyə çalışır. Beləliklə, hazırkı mərhələdə Ermənistanda baş verən hadisələrdə hər hansı ciddi nəticə əldə etmək mümkün deyil.

Azərbaycanın hərəkətlərinin beynəlxalq hüquq normalarına uyğun olduğunu vurğulayan ekspert əlavə edib ki, sərhədin demarkasiyası və delimitasiyası prosesi davam edəcək. Türkiyəli professor sözlərinə yekun vurub: "Biz Almatıda danışıqların pozitivliyini gördük, həmçinin Ermənistanın baş nazirinin son çıxışlarını eşitdik. Ümidvarıq ki, yaxın vaxtlarda sülh sazişi imzalanacaq və bizim regionda münaqişə tarixə qovuşacaq. Əlbəttə, Cənubi Qafqazda sülhün bərqərar olması, bütün region ölkələrinin iqtisadi cəhətdən sabit inkişafı və milli təhlükəsizliyi baxımından, təbii ki, əvvəlcə Azərbaycanla sülh sazişi bağlanmalı, sonradan isə Türkiyə də Ermənistanla danışıqlar prosesinə qoşulmalıdır".




# Fələstin Dövlətinin Prezidenti COP29-a dəvət olunub

**Azərbaycanın Fələstindəki Təmsilçilik Ofisinin rəhbəri İlham Nəzərli Fələstin Dövləti Prezidentinin diplomatik məsələlər üzrə müşaviri Macdi Əl-Xalidi ilə görüşüb.**



Təmsilçilik Ofisindən AZƏRTAC-a bildirilib ki, İ.Nəzərli BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirakla bağlı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasa ünvanlanmış dəvət məktubunu müşavirə təqdim edib.

İki ölkə arasında dostluq və əməkdaşlıq əlaqələrinin səviyyəsindən məmnunluq ifadə olunub.

Təmsilçilik Ofisinin rəhbəri ən böyük və mühüm dövlətlərarası tədbirlərdən biri olan COP29-a Azərbaycanın evsahibliyi, ölkəmizin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulması və "yaşıl enerji" sahəsində əldə etdiyi uğurlar barədə məlumat verib. O, "yaşıl enerji" istehsalının və bu enerjinin dünya bazarlarına nəqlinin hazırda Azərbaycanın enerji siyasətinin prioritet istiqamətlərindən sayıldığını, işğaldan azad edilmiş ərazilərin Prezident İlham Əliyev tərəfindən "yaşıl enerji" zonası elan olunduğunu vurğulayıb. Ofisin rəhbəri Azərbaycanın hər zaman islam həmrəyliyinə sadiq qaldığını, Fələstin xalqının dövlətçilik mübarizəsini daim dəstəklədiyini və İsrail-Fələstin münaqişəsinin beynəlxalq hüququn normaları, o cümlədən BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq iki dövlət prinsipi əsasında həllinə tərəfdar qaldığını vurğulayıb. O, münaqişə bölgəsində mövcud vəziyyətin, mülki əhali arasında davam edən itkilərin ciddi narahatlıq doğurduğunu qeyd edib.

Fələstin Prezidentinin müşaviri ölkəsinin COP tədbirlərinə daim xüsusi diqqət ayırdığını, 2015-ci ildə keçirilmiş COP21 tədbirində dünya dövlətlərini iqlim dəyişikliyi ilə mübarizə ətrafında birləşdirmiş Paris Sazişinə qoşulduğunu qeyd edib və Fələstin Dövlətinin COP29 tədbirində ən yüksək səviyyədə təmsil olunacağına əminliyini bildirib. O, Fələstin məsələsində sabit dost mövqeyinə, regional və beynəlxalq təşkilatlarda müvafiq qətnamələrə verdiyi daimi dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə, Azərbaycan hökumətinə və xalqına minnətdarlıq edib, regionda baş verən son hadisələr, Qəzza zolağında davam edən müharibə nəticəsində on minlərlə günahsız dinc insanın, o cümlədən uşaqların və qadınların ölümü və dəhşətli humanitar vəziyyət haqqında məlumat verib.

# Qlobal istiləşmə bəşəriyyətə isti heç nə vəd etmir

## Bu səbəbdən onunla mübarizə yolları COP29-un prioritet mövzusu olacaq

**Hər hansı bir ölkəni dünya birliyində cəlbedici edən əsas amillərdən biri onun beynəlxalq imicidir. Beynəlxalq təşkilatlar öz tədbirlərini keçirərkən həmin ölkənin iqtisadi imkanları və resursları ilə yanaşı, qlobal miqyasda mövqelərini də nəzərə alırlar.**




İndiyədək Azərbaycanda çoxsaylı beynəlxalq təşkilatların siyasi, iqtisadi və humanitar mövzularda mühüm tədbirləri keçirilib. Bu tədbirlər ölkəmizin özünütəsdiqi və təcrübəli olmasının göstəricisidir.

Noyabrda Bakıda ən böyük beynəlxalq tədbir - BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) keçiriləcək. COP29 kimi qlobal tədbirin Azərbaycanda keçirilməsi mühüm siyasi və iqtisadi əhəmiyyət daşıyır. Çünki bu, sadəcə ekoloji problemlərin müzakirə olunacağı konfrans deyil, həmin məsələlərin həlli üçün mühüm addımların birlikdə atılacağı böyük qlobal forum olacaq. Azərbaycanın aktual ekoloji problemləri aradan qaldırmaq və davamlı həll yolları tapmağa dair digər ölkələrlə birlikdə işləmək üçün böyük imkanları var. COP29 Azərbaycanda və dünyada iqlim dəyişikliyinin azaldılmasına və "yaşıl enerji"dən istifadəyə yönəlmiş qlobal təşəbbüslərin həyata keçirilməsində fəal rol oynayacaq. Təsadüfi deyil ki, Prezident İlham Əliyev müsahibələrinin birində demişdir: "Azərbaycan dünya miqyasında çox böyük hörmətə və yüksək imicə malik olan ölkədir. Əks təqdirdə, biz səkkiz il bundan əvvəl 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına seçilməzdik. Əks təqdirdə, Qoşulmama Hərəkatının yekdil qərarı ilə, 120 ölkənin qərarı ilə sədr seçilməzdik".

COP29-a evsahibliyi etmək bir günün, beş günün işi deyil. Bunun üçün aylarla hazırlıq aparılmalı, tədbirlər keçirilməli, dövlət başçıları, beynəlxalq qurumların nümayəndələri, çoxsaylı beynəlxalq təşkilatlarla birlikdə siyasi, iqtisadi və humanitar mövzuda tədbirlər planı tərtib edilməli, onun yerinə yetirilməsi istiqamətində mühüm addımlar atılmalıdır. Təbii ki, bu məsələlər Azərbaycan dövləti üçün çətin deyil, əksinə, ekoloji problemlər müzakirə edilərkən COP29-un formatı nəzərdən keçirilir, yeni əlavələr edilir. Bu məqsədlə ölkəmizə gələn xarici dövlətlərin nümayəndələrini bir çox halda Prezident şəxsən qəbul edir. Söhbətlər zamanı qlobal tədbirlə bağlı məsələlər müzakirə edilir, qarşı tərəfin təklifləri dinlənilir, bu günün və sabahın mövzusu diqqətə çatdırılır. Bu mənada dövlət başçısının mayın 13-də Millətlər Birliyi təşkilatının (Commonwealth) baş katibi Patrisia Skotlendi qəbul edərkən dediyi fikirlər COP-un gələcəyi ilə bağlı olduğu üçün maraqlıdır. Azərbaycanın Qoşulmama Hərəkatının "sədrlik üçlüyü"ndə yer aldığını deyən Prezident İlham Əliyev COP çərçivəsində də "üçlük" mexanizminin yaradıldığını qeyd edərək, bu istiqamətdə Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan və Braziliyanın birlikdə fəaliyyət göstərdiklərini, müxtəlif regionlarda yerləşmələrinə baxmayaraq, COP gündəliyinin birgə irəli aparılması üçün çalışdıqlarını vurğulayıb.

İqlim dəyişikliyinin fəsadı olan qlobal istiləşmə demək olar ki, bəşəriyyəti hər gün, hər saat təhdid edərək, birnömrəli problemə çevrilib. Ən çox da inkişaf etməkdə olan və kiçik dövlətlər istiləşməyə məruz qalıb. Onların çirklənməyə görə məsuliyyət daşıyan sənaye ölkələrinin köməyinə ehtiyacı var. Həmin dövlətlər havaya buraxılan emissiya qazlarını azaltmalı deyil, davamlı maliyyə yardımı almalıdırlar. Məhz bu, COP29-un gündəliyində yer alan əsas məsələdir. Həmin gün Baham Adaları Birliyinin xarici işlər naziri Mitçel Frederik Audleyi qəbul edən Prezident İlham Əliyev məhz bu məsələyə toxunaraq ehtiyacı olan ölkələrə ediləcək yardımdan söz açıb: "Konfransda müzakirə olunacaq ən mühüm məsələ maliyyədir. Vəsaitlərin ayrılması üzərində fəal çalışırıq ki, həmin məsələlər həllini tapsın. Eyni zamanda anlayırıq ki, iqlim dəyişmələri bəzi ölkələr üçün problemdir, lakin digərləri üçün mövcudluqla bağlı olan məsələdir. Biz bunu aydın şəkildə anlayırıq. Düşünürük ki, kiçik ada dövlətlərinə yardım bizim üçün mənəvi borcdur. Sizi əmin edə bilərik ki, kiçik ada dövlətləri məsələsi, onlara dəstəyin verilməsi, onların müdafiəsi müzakirələrin təməlində dayanacaq. COP29-un sədri kimi, biz bunu diqqət mərkəzində saxlayacağıq. Həmçinin digər kiçik ada dövlətləri ilə məsləhətləşərək, COP29 zamanı yüksəksəviyyəli nümayəndələrin görüşünün təşkil olunmasını təklif edirik. Eyni zamanda kiçik ada dövlətlərinə dəstəyin verilməsi məqsədilə praktiki töhfəni və maliyyələşmə addımlarını bəzi tərəfdaşlarla artıq müzakirə edirik".

Qlobal istiləşmə ilə bağlı tədqiqatlar aparan ekspertlərin sözlərinə görə, bu gün xeyli ölkə güclü dəniz qabarmalarından, kəskin siklonlardan, davamlı quraqlıqlardan və içməli suyun şorlaşmasından əziyyət çəkir. Bəzi adalar dünya okeanının səviyyəsinin qalxması üzündən suyun altına qərq olurlar. Alimlər planetin istiləşməsi tendensiyasına görə, kataklizmlərin daha tez-tez baş verdiyini söyləyirlər. Prezident İlham Əliyev bu təhlükənin qarşısının alınması istiqamətində görüləcək işlərdən danışaraq Mitçel Frederik Audleyə ölkəsini təhdid edən istiləşmənin aradan qaldırılmasına kömək edəcəyini vurğulayıb: "Qlobal istiləşmədə böyük payı olan ölkələr isə bundan əziyyət çəkən ölkələrin maraqlarına və gündəlik tələblərinə göz yummalı deyillər. Qlobal istiləşməyə siz səbəb olmamısınız, biz səbəb olmamışıq. Bizim payımız, ola bilsin, mində birdir. Biz axı əziyyət çəkirik. Siz daha çox əziyyət çəkirsiniz. Mən bir daha sizi əmin edə bilərəm ki, biz təkcə sözdə deyil, o cümlədən işdə göstərəcəyik. COP29-un nəticəsi kimi sizə maksimum gözəçarpan dəstəyin göstərilməsi üçün tərəfdaşlarımızla işləyəcəyik. Bizə gəldikdə, buna maliyyə töhfəsini verməyə hazırıq".

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# GDU-da "COP29 - Ekoloji dayanıqlığa və "yaşıl artım"a diqqət" mövzusunda "dəyirmi masa" keçirilib

**"BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi ilə bağlı qərar ölkəmizə növbəti dəfə böyük etimad və inamın göstəricisidir. Dünya birliyinin Azərbaycana göstərdiyi inam və etimad isə Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətin nəticəsidir. Bakının bu tədbirə ev sahibi kimi seçilməsi həm də onu göstərdi ki, Azərbaycan qlobal səviyyədə iqlim dəyişiklikləri ilə mübarizə aparan dövlət kimi özünü tanıda bilib və beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilib".**

AZƏRTAC xəbər verir ki, bu fikirləri Gəncə Dövlət Universitetində (GDU) "COP29 - Ekoloji dayanıqlığa və "yaşıl artım"a diqqət" mövzusunda keçirilən "dəyirmi masa"da humanitar məsələlər üzrə prorektor dosent Gülsüm Fətəliyeva bildirib. Tədbirdə Ekologiya və ətraf mühitin mühafizəsi kafedrasının müdiri professor Sevda Əhmədova "Təmiz ətraf mühitə nail olmaq və "yaşıl inkişaf"ın təşviqi" mövzusunda çıxış edərək ekoloji tarazlığın və ətraf mühitin qorunması, alternativ enerji mənbələrindən səmərəli istifadə, eləcə də iqlim dəyişmələrinin qarşısının alınması istiqamətində görülən işlərin əhəmiyyətindən danışıb. O, Azərbaycan Prezidentinin sərəncamı ilə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsinin ölkəmizdə ətraf mühitin mühafizəsi sahəsində aparılan məqsədyönlü və ardıcıl dövlət siyasətinin tərkib hissəsi olduğunu diqqətə çatdırıb.

Botanika kafedrasının professoru Aynur Bayramova "Azərbaycan COP29-un varisi kimi" mövzusunda məruzəsində COP29 kimi qlobal tədbirin ölkəmizdə keçirilməsinin böyük əhəmiyyətindən bəhs edib.

Ekologiya və ətraf mühitin mühafizəsi kafedrasının dosenti Tünzalə İsgəndərova "Azərbaycanda ətraf mühitin mühafizəsi və iqtisadi artım arasında tarazlığın yaradılması" mövzusunda çıxış edib. Diqqətə çatdırılıb ki, son illər dünyada ekoloji tarazlığın pozulması bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da bu sahəyə diqqətin artırılmasını zəruri edib.

İqtisadiyyat kafedrasının müəllimi Aytac Cəfərovanın "COP29-dan irəli gələn maliyyə və investisiya imkanları" mövzusunda məruzəsi dinlənilib. Vurğulanıb ki, COP29-dan irəli gələn maliyyə və investisiya imkanları Azərbaycanın iqtisadi istəkləri üçün çox vacibdir. COP29 təkcə ətraf mühit layihələri üçün deyil, həm də işğaldan azad edilmiş ərazilərə qayıdışla bağlı "yaşıl təşəbbüslər" üçün kanal rolunu oynayır.

Tədbir ətraf mühitin qorunması istiqamətində müzakirələrlə davam edib.

# COP29-la əlaqədar ticarət və ictimai iaşə müəssisələrinin əməkdaşları üçün təlim

**Bakıda təşkil olunacaq BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq işləri çərçivəsində Qida Təhlükəsizliyi Agentliyinin strukturuna daxil olan bölmələrdə çalışan əməkdaşlar üçün növbəti onlayn təlim keçirilib.**

Agentliyin İnformasiya təminatı və innovativ həllər şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, "Qida sahəsində gigiyena tələbləri" mövzusunda təşkil olunan təlimdə Bakı və Sumqayıt şəhərlərində yerləşən keytrinq, hotel və sanatoriyalarda qida təhlükəsizliyi vəziyyətinin öyrənilməsi məqsədilə müvafiq qiymətləndirmə, eləcə də sahibkarlarla bu istiqamətdə maarifləndirmə işləri aparan, həmçinin tədbir zamanı qonaqlara yüksək səviyyədə və təhlükəsiz xidmətlərin göstərilməsi üçün ticarət və ictimai iaşə müəssisələrində monitorinqlər həyata keçirən əməkdaşlar iştirak ediblər.

Qida Təhlükəsizliyi İnstitutunun mütəxəssisləri tərəfindən aparılan təlimdə iştirakçılara "Qida təhlükəsizliyi haqqında" qanun və həmin qanundan irəli gələn tələblər, müəssisələrdə qida məhsullarının qəbulu, emalı, saxlanılması, daşınması zamanı gigiyena qaydalarının tətbiqi, eləcə də təhlükəli amillər, çirklənmə növləri və digər məsələlər barədə məlumat verilib.

Təlim zamanı müzakirələr aparılıb, iştirakçıların sualları cavablandırılıb.

# Köndələnçay bağlara bar, ellərə var gətirəcək

**30 illik işğal dövründə erməni vandalları çaylarımıza qarşı da ekoloji terror törədərək onların sularını olmazın dərəcədə çirkləndirmişdilər. Eyni zamanda su ehtiyatlarından məqsədli şəkildə təzyiq vasitəsi kimi istifadə etmişlər. Kənd təsərrüfatında işlərin qızğın çağında, suvarmaya ciddi ehtiyac olduğu mövsümlərdə çayların qarşısını kəsmişlər.**



Daşqınlar baş verəndə, eləcə də əkinlərə su lazım olmayan vaxtlarda isə anbarların ağzını açaraq ciddi problemlər yaratmışlar. Su anbarlarının qəsdən dağıdılması o dövrdə düşmənin təkcə Qarabağın və Şərqi Zəngəzurun deyil, nəticə etibarilə ölkəmizin aqrar sahəsinə vurduğu ağır zərbədir.

Uzun müddət ərzində həmin taleyi Köndələnçay və çayın üzərindəki su anbarı da yaşayıb. Bu anbarların böyük ərazidə kənd təsərrüfatı üçün əhəmiyyətini nəzərə alaraq Prezident İlham Əliyev azad edilmiş bölgələrimizdə görüləcək işlər sırasında onların da təmir-bərpasını önə çəkmişdir.

"Görün, işğal altında qalan su anbarları nə qədər idi. Xudafərin - 1 milyard 600 milyon kubmetr su ehtiyatı olan ən böyük su anbarı, Qız qalası, Suqovuşan, Xaçın, Köndələnçay-1, Köndələnçay-2, Aşağı Köndələnçay, Ağdamkənd - bax, bu su anbarları işğal altında idi. İndi biz onları bərpa edirik və bərpa edəcəyik. Konkret layihələrə gəldikdə, mən bu sahədə hansı işlər görüləcəyini də bildirməliyəm. Həkəriçay su anbarının tikintisi nəzərdə tutulur, yeni su anbarı olacaq. Suqovuşan su anbarının və kanalın təmiri. Kanalın uzunluğu 5,2 kilometrdir, təmirdən sonra Suqovuşandan daha böyük əraziyə suyun verilməsi mümkün olacaq. Xaçınçay su anbarının və 7 kilometr uzunluğunda kanalın təmiri. Onu da bildirməliyəm ki, Xaçınçay su anbarı düz Fərrux dağının altındadır, Fərrux kəndinin düz böyründədir və ermənilərin hərbi mövqeləri bu su anbarının istismarını təhlükəyə salmışdı, yəni böyük bir təhlükə mənbəyi idi. Dəfələrlə oradan və digər kəndlərdən Ağdam istiqamətinə atəş açılırdı. Fərrux dağını, məncə, indi dünyada tanımayan yoxdur və Azərbaycanın böyük dağı olan Fərrux dağı bu gün bizim nəzarətimizdədir, Azərbaycan bayrağı orada dalğalanır. Xaçınçayın təhlükəsizliyi və bu sudan istifadə etmək üçün Fərrux dağının böyük əhəmiyyəti var. Ondan sonra Aşağı Köndələnçay, Köndələnçay-1 və Köndələnçay-2 su anbarlarının təmiri nəzərdə tutulur. Tərtərçay Sol Sahil kanalının, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının su təsərrüfatı kompleksinin yenidən qurulması, o cümlədən su mənbələrinin müəyyən edilməsi nəzərdə tutulur. Çünki sovet vaxtında olan su mənbələri bəzi səbəblərə görə uyğun olmaya bilər. Ona görə bu kompleks tədbirlər nəzərdə tutulur və Bərgüşad su anbarının layihəsinin hazırlanması bu il öz həllini tapmalıdır. Bu yaxınlarda verilən yeni təklif əsasında Zəngilan, ya da Qubadlı rayonlarının birində yeni su anbarının tikintisi nəzərdə tutulur və bu kanalların inşası bizə imkan verəcək ki, yaxın zamanlarda 10 min hektarı suvarma ilə təmin edək. Yenə də demək istəyirəm ki, bütün bu işlər ümumi su təsərrüfatı sistemimizə inteqrasiya edilməlidir". Bu sözləri dövlətimizin başçısı üç il əvvəl demişdi. Nəzərdə tutulan işlərin böyük bir hissəsi isə qısa müddətdə artıq görülüb. O cümlədən təmir-bərpadan sonra Füzuli rayonunda Köndələnçay su anbarları kompleksi də istifadəyə verilib. Qeyd edək ki, burada aparılan işlər daim Prezident İlham Əliyevin diqqət mərkəzində olub. Dövlətimizin başçısı həmin ərazilərə səfərləri zamanı Köndələnçay su anbarlarının inşaatçılarına da baş çəkib. Bu il mayın 10-da isə kompleksin açılışını edib.

Köndələnçay çayının məcrasında üç su anbarı var. Burada tikilmiş ümumi su tutumu 3,9 milyon kubmetr (faydalı həcmi 3,6 milyon kubmetr), hündürlüyü 14 metr olan Köndələnçay-1 su anbarı 1962-ci ildə istismara verilmişdi. İşğaldan azad olunmuş ərazilərimizdə kompleks meliorasiya-irriqasiya tədbirləri sırasında bu su anbarının təmir-bərpası da özünəməxsus yer tutur. Belə ki, bəndin qurğuları və mexaniki avadanlıqları sabit iş rejiminə gətirilib və istismar üçün normal vəziyyət yaradılıb.

1951-ci ildə istismara verilən Köndələnçay-2 su anbarının ümumi su tutumu 2,1 milyon kubmetr (faydalı həcmi 1,6 milyon kubmetr), hündürlüyü 23,35 metrdir. Bu su anbarında da müvafiq təmir-bərpa işləri həyata keçirilib. Layihələndirmənin məqsədi bəndin qurğularının və mexaniki avadanlıqlarının sabit iş rejiminə gətirilməsi və bundan sonrakı istismarı üçün normal vəziyyətin yaradılması idi ki, bu da artıq reallaşıb.

Ümumi su tutumu 9,5 milyon kubmetr (faydalı həcmi 9 milyon kubmetr), hündürlüyü 25 metr olan Aşağı Köndələnçay su anbarı isə 1980-ci ildə istismara verilib. Burada daş örtüklü torpaq bəndin yuxarı byefində çökmüş daş örtüyü bərpa olunub, drenaj sistemi və nəzarət ölçü cihazları quraşdırılıb, qülləli suburaxıcının yükdaşıyan elementlərinin dəmir-beton konstruksiyaları, dib borusunun bütün mexaniki və qaldırıcı avadanlıqları, qurğunun estakadası, metal və beton konstruksiyaları və digər avadanlıqları yenidən qurulub, yarımstansiya və elektrik xətti bərpa olunub, Quruçay üzərində suqəbuledici qurğu tikilib. Quruçaydan gələn sular bu anbara yönəldiləcək.

Bəli, Azərbaycan öz torpağını yağılardan azad etməyi də, onu cənnətə çevirməyi də bacarır. İndi heç kim, heç vaxt çaylarımızın axarını dəyişə bilməz! O cümlədən Köndələnçayın da. İndi Köndələnçay bağlara bar, çöllərə bərəkət, ellərimizə ruzi, var-dövlət gətirəcək.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## “Böyük qayıdış” proqramı sürətlə icra olunur

# Nəqliyyat, rabitə və yüksək texnologiyalar üzrə İşçi qrupunun növbəti iclası Xankəndidə keçirilib

**Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən Nəqliyyat, rabitə və yüksək texnologiyalar üzrə İşçi Qrupunun növbəti iclası Xankəndidə keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclasda "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda nəqliyyat və rabitə infrastrukturu üzrə qarşıya qoyulmuş tapşırıqların icrası ilə bağlı görülmüş işlər, hazırda davam edən layihələr və gələcək planlara dair aidiyyəti qurumların məlumatları dinlənib, layihələrin icrası ilə bağlı cari vəziyyət, qarşıya çıxan çətinliklər və onların həlli yolları ətraflı müzakirə edilib.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini, İşçi qrupunun rəhbəri Rəhman Hümmətov çıxış edərək bildirib ki, dövlət proqramına uyğun olaraq, hazırda həmin ərazilərdə avtomobil və dəmir yollarının bərpa və tikintisi, yeni hava limanlarının inşası, telekommunikasiya şəbəkələrinin qurulması kimi strateji layihələrin icrası davam etdirilir.

R.Hümmətov hazırda Laçın hava limanının tikintisi üzrə işlərin ümumi icra vəziyyətinin 65 faiz təşkil etdiyini, eləcə də ümumi uzunluğu 2500 kilometr olan 26 layihə üzrə avtomobil yollarının tikintisi işlərinin qrafikə uyğun aparıldığını qeyd edib. Bildirib ki, Bərdə-Ağdam (47,1 km) və Horadiz-Ağbənd (110,4 km) dəmir yolu xətlərinin tikintisi işləri də davam etdirilir. Layihələr üzrə əldə edilmiş fiziki tərəqqi müvafiq olaraq 92,5 və 52 faiz təşkil edir. Bununla yanaşı, hazırda Ağdam-Xankəndi dəmir yolu xəttinin layihə-smeta sənədlərinin hazırlanması üzrə işlər həyata keçirilir.

Qeyd olunub ki, işğaldan azad edilmiş ərazilərə əhalinin qayıdışı, bərpa-quruculuq işləri, eləcə də səfərlərin təşkili ilə əlaqədar Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi tərəfindən mövcud marşrutlara əlavə və tələbata uyğun olaraq yeni istiqamətlərdə avtobus marşrutlarının açılması üzrə işlər görülür. Qarabağa turist səfərlərinin genişləndirilməsi məqsədilə "Yolumuz Qarabağa" portalı vasitəsilə vətəndaşlara fərdi minik avtomobilləri ilə də Şuşa şəhərinə, Suqovuşan qəsəbəsinə və Laçın şəhərinə səfər etmək imkanı yaradılıb.

Bildirilib ki, Laçın şəhərinin baş planına uyğun olaraq, şəhərdaxili ictimai nəqliyyat xidmətlərinin təşkili məqsədilə nəqliyyat planı hazırlanıb, Şuşa şəhəri üzrə işlər davam edir. Bununla yanaşı, aparılmış təhlillər əsasında Xankəndi şəhərinin nəqliyyat planının layihəsi hazırlanıb. Nəqliyyat planında nəzərdə tutulan şəhərdaxili marşrut xətləri və marşrut sxemi, avtobus dayanacaqlarının sayı və yerləri, şəhərlərarası marşrut şəbəkəsi və marşrutları, eləcə də Xankəndi şəhərində avtovağzalın və avtobus deposunun yaradılması üzrə planlaşdırılan işlər və təkliflər əksini tapıb.

İclasda yaxın zamanda məskunlaşması nəzərdə tutulan ərazilərdə, o cümlədən Xocalı və Xankəndi şəhərlərində, Kərkicahan qəsəbəsində və Malıbəyli kəndində zəruri yol-nəqliyyat infrastrukturunun qurulması, ictimai nəqliyyat, sərnişindaşıma və telekommunikasiya xidmətlərinin təşkili məsələləri, mövcud tələbat və imkanlar geniş müzakirə edilib.

Sonra nazir müavini işğaldan azad edilmiş ərazilərdə radio-televiziya yayımı, mobil rabitə və sabit telekommunikasiya şəbəkəsi üzrə görülmüş və planlaşdırılan işlər barədə məlumat verib. Bildirib ki, hazırda ərazidə bərpa edilən radio-televiziya yayım stansiyaları vasitəsilə 10 televiziya və 7 radio proqramının yayımı həyata keçirilir. Mobil telekommunikasiya xidmətlərinin təşkili üçün antiterror tədbirləri nəticəsində işğaldan azad edilən ərazilər də daxil olmaqla, ümumilikdə 300 baza stansiyası quraşdırılıb. Şuşa, Laçın, Füzuli, Zəngilan, Xankəndi və digər ərazilərdə telefon və yüksəksürətli internet xidmətləri göstərilir.

Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının sektor müdiri Elmir Vəlizadə, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini Əvəz Qocayev, Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin İdarə Heyəti sədrinin müavini Heydər Rüstəmov, "Teleradio" İB-nin baş direktoru vəzifəsini icra edən Elman Həsənov, "Aztelekom" MMC-nin baş direktoru vəzifəsini icra edən Tural Pirverdiyev və digər iştirakçılar da iclasda çıxış ediblər. Çıxışlarda işğaldan azad edilmiş ərazilərdə "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq həyata keçirilən infrastruktur layihələrinin əhəmiyyəti, onların icrasının İdarələrarası Mərkəz vasitəsilə əlaqələndirilməklə aidiyyəti qurumlar tərəfindən həyata keçirilməsi, ərazilərdə mina təhlükəsizliyi üzrə tədbirlərin daim nəzarətdə saxlanılması, yeni salınacaq yaşayış məntəqələrinə əhalinin köçürülməsi və məşğulluğunun təmin edilməsi və digər vacib məsələlərlə bağlı qarşıda duran vəzifələrdən söz açılıb.

İclasda dövlət proqramında sahə üzrə nəzərdə tutulan tədbirlərin vaxtında icrası ilə əlaqədar aidiyyəti qurumlarla birgə tədbirlər görülməsi, həmçinin yerlərdə tikinti-quraşdırma və bərpa işlərində müasir texnologiyaların tətbiqinin zəruriliyi və digər məsələlərlə bağlı müvafiq qərarlar qəbul olunub.

Səfər çərçivəsində Xankəndi şəhərinin daxili yol-nəqliyyat şəbəkəsinin mövcud vəziyyətinə, şəhərdə telekommunikasiya şəbəkəsinin qurulması və rabitə xidmətlərinin təşkili üzrə görülən işlərə, Ağdam şəhərinin daxili yol-nəqliyyat, həmçinin kommunikasiya şəbəkəsinin qurulması işlərinə, Bərdə-Ağdam, eyni zamanda tikintisi davam edən Ağdam-Əsgəran-Xocalı-Xankəndi-Şuşa avtomobil yollarına baxış keçirilib.

# Şuşanın ilk sakinləri

**Uzun illərin həsrətindən sonra şuşalılar da öz yurdlarına qovuşurlar. Bu il mayın 10-da Şuşa ilk qayıdış karvanını qarşıladı, doğma sakinlərinə qucaq açdı. İlkin mərhələdə birinci yaşayış kompleksinə 20 ailə olmaqla 88 nəfər köçdü.**



Dünən isə daha 136 şuşalının nisgilinə son qoyuldu. Tarixi yenidən yazılan Şuşanın artıq 224 sakini var. Onlar doğma ocaqlarına dönməyin, bu yerlərdə yenidən qurub yaratmağın sevincini yaşayırlar.

Azərbaycan dövləti Şuşa sakinlərinin də rahat, firavan yaşayışı üçün bütün şəraiti yaradıb. Digər azad edilən torpaqlarda olduğu kimi, Şuşada da genişmiqyaslı quruculuq işləri gedir. Şəhərdə inşa edilən binalar Şuşanın ənənəvi memarlıq üslubunda tikilir. Prezident İlham Əliyev tərəfindən Şuşada 2021-ci ildə təməli qoyulan 23 binadan ibarət yaşayış kompleksi 28-i birotaqlı, 195-i ikiotaqlı, 190-ı üçotaqlı, 30-u dördotaqlı və 7-si beşotaqlı olmaqla 450 mənzildən ibarətdir.

Şuşada dini və mədəni abidələr bərpa edilir. Molla Pənah Vaqifin məqbərəsi yenidən qurularaq əzəli görkəminə qaytarılıb, Üzeyir bəy Hacıbəylinin heykəli qoyulub, Bülbülün ev-muzeyi, habelə Rəsm Qalereyası və Xalçaçılıq Qalereyası, Yuxarı Gövhər ağa, "Saatlı", "Mamayı", Mehmandarov məscidləri və Mehmandarovun evi bərpa edilib.

Şuşanı görmək bütün vətəndaşlarımızın və xarici qonaqların böyük arzusudur. Müharibədən dərhal sonra başlanılan və qısa müddət ərzində həyata keçirilən irimiqyaslı layihələr nəticəsində bu məqsədə də sürətlə nail olunur. Artıq Şuşada dörd mehmanxana fəaliyyət göstərir. Onların içində ən böyüyü olan "Şuşa" mehmanxanası şəhərin müasir görkəmini əks etdirir.

Şuşada həmçinin 3,7 hektara yaxın sahədə inşa edilən xəstəxananın tikinti işləri davam etdirilir. Xəstəxana binasının tikintisinə ötən ilin yanvarında başlanılıb. Bina 4-ü dördmərtəbəli, 2-si isə birmərtəbəli olmaqla 6 korpusdan ibarətdir. İnşası davam edən obyektlərdən biri də üçmərtəbəli və 960 şagird yerlik məktəbdir. Habelə Xan Şuşinski, Əbdürrəhim bəy Haqverdiyev, İsmayıl bəy Şəfibəyov, Xudadat bəy Məlik-Aslanov, Cabbar bəy Vəlibəyov, Yusif Vəzir Çəmənzəminli, Cavad bəy Məlik-Yeqanov, Rüstəm bəy Axundov, Əhməd bəy Ağaoğlu və Soltan bəy Vəlibəyov kimi görkəmli şəxsiyyətlərin təhsil aldıqları Şuşa Realnı Məktəbi bərpa olunur.

Sevindirici haldır ki, qısa müddətdə artıq 1805 ailə - 7053 nəfər keçmiş məcburi köçkün dədə-baba torpağına qovuşub. İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 493 ailə (1838 nəfər) Laçın şəhərinə, 822 ailə (3132 nəfər) Füzuli şəhərinə, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndinə, 20 ailə (75 nəfər) Laçın rayonunun Sus kəndinə, 58 ailə (224 nəfər) Şuşa şəhərinə qayıdıb.

Böyük qayıdış davam edir. Tezliklə Cəbrayıl, Kəlbəcər, Xankəndi və Xocalı da sakinlərini qarşılayacaq. 2025-ci ildə isə Ağdam, Zəngilan, Qubadlı şəhərlərinə keçmiş məcburi köçkünlərin qayıtması nəzərdə tutulur. Daha sonra Laçın rayonunun Sus kəndin, Xocalı rayonunun Kərkicahan, Malıbəyli, Turşsu kəndlərinin də bərpasına başlanılacaq.

Düşməndən azad etdiyimiz ərazilərimizin tam məskunlaşmasına, keçmiş məcburi köçkünlərin yurd həsrətinin bitməsinə çox az qalıb. Artıq 2026-cı il, Böyük qayıdışın birinci mərhələsi bitənə qədər Qarabağ və Şərqi Zəngəzurda 140 min nəfərin, 34 min 500 ailənin dədə-baba torpaqlarında daimi məskunlaşması təmin ediləcək. Düşmənin viran qoyduğu şəhər və kəndlərimiz yenidən qurulduqca uzun illərdir yurd nisgili ilə, əsarət altında qalmış torpaqlarına qovuşmaq arzusu ilə yaşayan yüz minlərlə vətəndaşımız əzəli torpaqlarına qovuşacaqdır.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# Növbəti köç karvanı Şuşa şəhərinə çatıb

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Şuşa şəhərinə növbəti köç karvanı yola salınıb.

AZƏRTAC xəbər verir ki, respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı mayın 14-də Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb. Bu mərhələdə Şuşa şəhərinə 38 ailə - 136 nəfər köçürülüb.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Doğma yurda qayıdan Şuşa şəhəri sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.













* * *

Şuşa şəhəri doğma sakinlərini qarşılamağa davam edir. Bu gün səhər saatlarında Bakı şəhərinin Qaradağ rayonundan yola salınan növbəti köç karvanı Şuşa şəhərinə çatıb.

* * *

Növbəti köç karvanı ilə Şuşaya çatan ailələrə yeni mənzillərinin açarları təqdim olunub. Açarların təqdim edilməsi mərasimində Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəsmiləri və digər şəxslər iştirak ediblər.

Ailələr mənzillərinin açarlarını sevinc hissi ilə təhvil alaraq, yeni evlərində məskunlaşıblar.

## Keçmiş məcburi köçkün: "Biz artıq şuşalıyıq"



**"Şuşanın dağları artıq "başı dumanlı" deyil. Biz yenidən şuşalıyıq". AZƏRTAC xəbər verir ki, bu sözləri Şuşa şəhərinə qayıdan keçmiş məcburi köçkün Təranə Məhərrəmova deyib.**

"Allah bu günü bizə yaşadan Prezident İlham Əliyevə cansağlığı versin, şəhidlərimizin ruhu şad olsun. Onlar üçün, onların ailələri üçün nə desək, nə qədər arzu diləsək, yenə də azdır. Əvəzsiz xidmət göstərdilər bu xalqa, bu vətənə", - deyə o əlavə edib.

## Şuşa sakini: "Mənə sanki yeni bir həyat bəxş olunub"



**"Bu gün sevinc içindəyəm. Doğma yurduma qayıdış məni çox sevindirir. Hisslərimi sözlərlə ifadə edə bilmirəm. Həqiqətən, qəribə duyğulardır".**

AZƏRTAC xəbər verir ki, bu sözləri Şuşa şəhərinə qayıdan keçmiş məcburi köçkün Telman Rəcəbov deyib.

"Mənə sanki yeni bir həyat bəxş olunub. Xəyallarım həddən artıq çoxdur. İnşallah hər şey daha yaxşı olacaq. Ən böyük arzuma çatmışam. Allah hamını arzusuna çatdırsın. Şəhidlərə rəhmət olsun, Tanrı Azərbaycan Prezidentinə kömək olsun", - deyə o əlavə edib.

# Gülablıdan Cıdır düzünə və bütün dünyaya

## Ağdamdan başlayıb Şuşa və Laçınadək zəfər yolu keçən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı artıq qlobal mədəniyyət carçısına çevrilib






Bu, bir yaz çiçəyinin hekayətidir...

Əbədi məhəbbətin, Vətən eşqinin rəmzinə çevrilən bir gülün....

Gözəllikdə bir-biri ilə yarışan çiçəklər arasından zərifliyi, əsrarəngiz görünüşü ilə seçilən, heyrətlər yaradan möcüzəvi bitkinin...

Təbiətin hicran tişəsi ilə yonduğu heykəlin...

Bir xalqın torpaq həsrətinin, yurd nisgilinin, el-oba özləminin simvoluna çevrilən xarıbülbülün hekayəti...

O xarıbülbül ki, Vətənin torpağı, havası, suyu olmadan yaşaya bilmir...

Qərib ellərdə kök sala, boy ata, Günəşə boylana bilmir...

Qəlbini xar atəşi qovurur, göz yaşları içərisində köksündə əbədi uyumuş bülbülə sevgi nəğməsi deyir, içdiyi əhdi-peymana sədaqətin təntənəsini nümayiş etdirir...

Onilliklər boyu Şuşasız, Ağdamsız, Laçınsız, Kəlbəcərsiz... Qarabağsız əzab çəkən, torpaq həsrəti çəkən yüz minlərlə soydaşımız da Xarıbülbülə çevrildi...

Yaşadıqları didərginlik günlərində bir dəfə də olsun ürəkdən şadlana, gülə, sevinə bilmədilər... Vətən özləmi ilə göz yaşları tökdülər... Bu dünyadan köçəndə də dillərindəki son söz "Ana yurd" oldu... Və elə ürəklərində yaşatdıqları torpaq sevgisinin gücü, inamı ilə də yenidən o torpaqlara qayıtdılar, özlərinkinə qovuşdular...

Yenidən Cıdır düzündə həyata qaytarılan, Qarabağdan dünyaya mədəniyyət ismarışı verən "Xarıbülbül" Musiqi Festivalı isə milli ruhumuzun dirçəlişinin göstəricisi oldu.

### Bir bahar günü

1989-cu il, düz 35 il əvvəlin may ayı idi...

Günəşin zərrin şəfəqləri aləmi nura boyadığı, gül-çiçəyin üzərindəki jalənin inci kimi parladığı, bülbüllərin şən cəh-cəhlərinin dünyanı başına götürdüyü bir yaz səhərində Ağdamın Gülablı kəndində təntənə qurulmuşdu...

Şuşanın, Qarabağın, ümumilikdə Vətənin rəmzi sayılan gülün adını daşıyan "Xarıbülbül" Musiqi Festivalı ilk dəfə bu yurdda keçirilirdi. Həmin vaxt festival məşhur xanəndə, pedaqoq, Xalq artisti Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar Gülablı kəndində başlayıb, Şuşada davam etmiş və Ağdamda yekun konsertlə başa çatmışdı...

İlk "Xarıbülbül" Festivalının Ağdamın bu kəndində keçirilməsi təsadüfi deyildi, çünki bu gül həm də yamyaşıl, al-əlvan çiçəkli, sularından da gül ətri gələn Gülablı dağlarında bitirdi.

Görkəmli şair Mirvarid Dilbazi də şeirində məhz Gülablıda rast gəldiyi xarıbülbülü vəsf edirdi...

*Çox gəzmişəm sorağında,*
*Doğma vətən torpağında.*
*Gülablının yaylağında*
*Tapdım səni, xarıbülbül...*

...Beləcə, Ağdamın cənnətməkan kəndində uğurlu təməli qoyulan və şöhrəti dünyaya yayılan "Xarıbülbül" Musiqi Festivalı ənənəvi olaraq Qarabağda keçirilməyə başlanır.

Ötən 35 il ərzində bu festival keşməkeşli dövrlərdən adlayır, uzun illər şad günlərinin yerini ağrı-acılı zamanlar tutur, amma bu gün artıq "Xarıbülbül" Şuşada, Qarabağda, haqq etdiyi zirvədədir.

Vətən müharibəsindəki tarixi zəfərimizdən sonra festival yenidən vətəni Şuşaya qayıdıb.





### Tarixi ənənə bərpa edildi

"Xarıbülbül" festivalı 1990-cı ildə beynəlxalq status alıb. Qarabağ münaqişəsinin başlaması ilə əlaqədar əsas konsertlər Ağdamda təşkil edilib. Festivalın bir sıra konsertləri Ağcabədi və Bərdədə təşkil olunub.

Şuşanın işğal altına düşməsinə görə 2021-ci il mayın 12-nə qədər "Xarıbülbül" də doğma diyarından didərgin düşüb.

Azadlığından dərhal sonra qədim şəhərimiz Şuşa Prezident İlham Əliyev tərəfindən mədəniyyət paytaxtımız elan edildi. 2021-ci il mayın 7-də imzalanan sərəncamla Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği başlıca məqsədlər kimi müəyyən olundu.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu qala şəhərimizdə vandal düşmən tərəfindən dağıdılan, Azərbaycan xalqının milli sərvəti olan tarixi, dini, mədəni abidələrin bərpasını aparır. Eyni zamanda fond tərəfindən qədim şəhərimizdə var olan tarixi-mədəni ənənələrimiz müvəffəqiyyətlə bərpa edilir ki, bunlardan birincisi 2021-ci il mayın 12-də Şuşada, Cıdır düzündə təşkil olunan möhtəşəm "Xarıbülbül" Musiqi Festivalı oldu.

Onilliklərin ardından yenidən öz yurdunda keçirilən festivalın açılışındakı çıxışında Prezident İlham Əliyev söylədi ki, biz bu gözəl ənənəni bərpa etdik və bundan sonra "Xarıbülbül" festivalı Şuşada hər il keçiriləcək. Builki festival Azərbaycanda yaşayan xalqların nümayəndələrini əhatə edir. Bugünkü festivalda ölkəmizdə yaşayan müxtəlif xalqların nümayəndələri çıxış edəcəklər: "Bu tövsiyəni festivalın təşkilatçısı olan Heydər Əliyev Fonduna mən vermişdim, çünki Vətən müharibəsində Azərbaycanda yaşayan bütün xalqların böyük payı vardır. Vətən müharibəsi bir daha onu göstərdi ki, Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və bu 44 günlük müharibə bir daha onu göstərdi ki, ölkəmizdə milli birlik, milli həmrəylik vardır".

### Möhtəşəmlik...

Şuşa şəhərinin 270 illiyinə təsadüf edən V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı 2022-ci il may ayının 12-14-də keçirilib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın açılışında iştirak etdikləri festivala xarici ölkələrdən müxtəlif folklor üslublarında çıxış edən musiqiçilər, rəqs kollektivləri, həmçinin Azərbaycanın müxtəlif regionlarından folklor kollektivləri qatılıblar.

Ötənilki "Xarıbülbül" Musiqi Festivalı Qarabağın baş tacı Şuşada Ulu Öndər Heydər Əliyevin 100 illiyi ərəfəsində təşkil olundu. 9-11 may tarixlərdə keçirilən festivalda Azərbaycanla yanaşı, Qazaxıstan, Qırğızıstan, Macarıstan, Moldova Respublikasının Qaqauziya Muxtar Ərazi Qurumu (Qaqauz Yeri), Özbəkistan, eləcə də Özbəkistanın Qaraqalpaqıstan Muxtar Respublikası, Rusiya Federasiyasının Altay, Xakasiya, Saxa (Yakutiya), Tatarıstan, Tıva respublikaları, Şimali Kipr Türk Cümhuriyyəti, Türkiyə, Türkmənistan nümayəndələri təmsil olundular. Bu festival TÜRKSOY-a daxil olan dövlətlər, regionun türkdilli ölkələri və xalqlarının yaradıcı kollektivlərinin iştirakı ilə əlamətdar oldu.

Festival çərçivəsində Mehmandarovların malikanə kompleksində Ulu Öndər Heydər Əliyevə həsr olunan "Ümummilli Lider Heydər Əliyev - sevimli mahnılar" adlı konsert proqramı keçirildi. "Xarıbülbül" festivalının qonaqları Şuşadakı Yaradıcılıq Mərkəzinin ekspozisiya salonunda Ulu Öndərin 100 illik yubileyi çərçivəsində "Heydər Əliyev və Qarabağ" sərgisi ilə tanış oldular, eyni zamanda Şuşa şəhərində Ümummilli Liderin anadan olmasının 100 illiyi münasibətilə nümayiş olunan "İz" adlı sənədli filmə tamaşa etdilər. "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının ikinci günü Şuşada Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar atəşfəşanlıq təşkil edildi.

### Azərbaycan ruhu

Bu il 11-13 may tarixlərdə keçirilən "Xarıbülbül" Musiqi Festivalının isə bir ayrı təmtərağı oldu. Bu festival həm də illərin həsrətindən sonra əbədi olaraq doğma yurdlarına dönən şuşalıların qayıdış xoşbəxtliyi yaşadıqları möhtəşəm məqamla üst-üstə düşdü. Qarabağın büllur qəsrində bayram bayrama qarışdı, sevinc göz yaşları selə döndü... Xarıbülbül həsrəti birdəfəlik bitdi.

Şuşalılar düz 28 il boyu bu günləri görməyin həsrəti ilə yaşamışdılar. Doğma torpaqlarına qədəm basmaları, Vətənli xoşbəxt çağlarına qovuşmaları üçün əl açıb Tanrıya dualar etmişdilər.

2020-ci il noyabrın 8-i şuşalıların diriliş, 2024-cü il mayın 10-u qayıdış günü kimi Azərbaycan tarixinə parlaq hərflərlə yazıldı. Şuşalıların doğma şəhərlərinə qovuşduqları bir zamanda "Xarıbülbül" festivalının keçirilməsi ilə həm də bir daha bu qədim yurdun əzəli sahiblərinin qayıtmasının, mədəni, mənəvi ruhunun dirçəldilməsinin müjdəsi dünyaya çatdırıldı.

"Dünən Şuşa şəhərinin dirçəldilməsi istiqamətində növbəti addım atılmışdır, ilk sakinlər uzun fasilədən sonra öz doğma şəhərinə qayıdıb burada məskunlaşmışlar. Şuşanın tarixi simasının bərpası istiqamətində fəal işlər gedir. Şuşa, sözün əsl mənasında, dirçəlir", - deyə VII "Xarıbülbül" festivalında bu tarixi günlərin əhəmiyyətini dilə gətirən Prezident İlham Əliyev söylədi ki, işğala baxmayaraq, Şuşa öz ruhunu - Azərbaycan ruhunu qoruyub saxlaya bildi.

Dövlət başçısı onu da əlavə etdi ki, Şuşaya gələn hər bir insan əyani şəkildə görür ki, burada Azərbaycan ruhu var. Şuşa işğal, əsarət dövründə əyilmədi və biz - Azərbaycan xalqının nümayəndələri Şuşaya qayıtmalı idik: "Qan tökərək, şəhidlər verərək, - Allah bütün şəhidlərimizə rəhmət eləsin, - Şuşanın azad edilməsi, şəhər döyüşləri nəticəsində azad edilməsi tariximizin parlaq səhifəsidir".

### "Səsin gəlsin, xarıbülbül"

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirak etdikləri VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı və "Şuşa - islam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış mərasimindəki konsertdə "Xarıbülbül"ün bütün iştirakçılarının yer aldığı açılış kompozisiyasının müşayiəti ilə 27 Qarabağ atından ibarət süvari dəstə ICESCO-ya üzv ölkələrin bayraqları ilə Cıdır düzünə daxil oldu.

Qeyd edək ki, Şuşa şəhəri 2024-cü il üçün islam dünyasının mədəniyyət paytaxtı elan olunub. Prezident İlham Əliyev ötən ilin noyabrında bununla bağlı tədbirlər haqqında sərəncam imzalayıb.

Builki festivalın iştirakçıları arasında həm də ICESCO-ya üzv ölkələrdən ifaçılar və yaradıcı kollektivlər yer aldı. Möhtəşəm mədəniyyət hadisəsinə çevrilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalında Azərbaycanla yanaşı, Birləşmiş Ərəb Əmirlikləri, İndoneziya, İran, Qazaxıstan, Qətər, Qvineya, Mərakeş, Özbəkistan, Türkiyə də təmsil olundu. Açılış konsertində müxtəlif ölkələrdən məşhur ifaçılar çıxış etdilər. Azərbaycanın Xalq artistləri Arif Babayev, Polad Bülbüloğlu, Zeynəb Xanlarovanın çıxışları isə xüsusi diqqət çəkdi. Konsert iştirakçıların ifasında festivalı rəmzi olaraq təcəssüm etdirən "Səsin gəlsin, xarıbülbül" mahnısı ilə yekunlaşdı.

Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalına mayın 13-də Laçında yekun vuruldu.

"Aşıq mahnıları yeni səslənmədə" adlı konsert proqramı Həkəri çayı ətrafında açıq səma altında təşkil olundu və festival bütün iştirakçıların ifasında "Bütöv Azərbaycan" mahnısının sədaları altında başa çatdı.

Dünyanın bir çox ölkəsindən çoxsaylı musiqiçilərin iştirak etdikləri bu dostluq və musiqi bayramı Azərbaycan mədəni irsinin zəngin ənənələrinin qorunub saxlanılması, yaşadılması ilə yanaşı, müxtəlif ölkələri təmsil edən musiqiçilərə ünsiyyət və əməkdaşlıq üçün əlverişli mühit yaradaraq, mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə böyük töhfə verir.

### Al-əlvandır Vətən bağı

Artıq Qarabağ da, Şərqi Zəngəzur da şan-şöhrətli, qonaq-qaralı günlərinə qovuşub. Azərbaycanın mədəniyyət paytaxtı Şuşa zəngin ənənələri, mənəvi irsi ilə könülləri yenidən fəth edir. İndi Qarabağın mirvarisi Şuşaya səfər edən hər kəs zəfər qalamızın ecazkarlığının vurğununa çevrilir, aşılmaz sıldırımlardan keçərək bu uca şəhəri azad edən qəhrəman oğullarımızın şücaətinə heyran olur.

2024-cü ilin yazında isə dünya Azərbaycan mədəniyyətinin "Xarıbülbül" vasitəsilə Şuşanın Cıdır düzündən, Laçının Həkəri çayının sahilindən sərgilənən təntənəsinə bir daha heyranlıqla tamaşa etdi.

Beləcə, Vətən rəmzinə çevrilən sevgi çiçəyinin adını daşıyan "Xarıbülbül"ün 35 il əvvəl Ağdamın Gülablı kəndindən başlayan hekayəsi də vüsalla bitdi.

*...Bizə bahardan hədiyyə,*
*Mən səni gec tapdım niyə!*
*Xarıbülbül deyə-deyə,*
*Ömrüm oldu yarı, bülbül.*
*Bu Gülablı qızlarının*
*Fəxri, iftixarı, bülbül!..*

Artıq Azərbaycan xalqı bir daha heç zaman bu çiçəyin və o çiçəyi yetişdirən torpağın həsrətini çəkməyəcək. Gözüyaşlı halda Vətən bağındakı güllərin içərisində xarıbülbülü gəzməyəcək...

Daha Vətən torpağımız da, onun bitirdiyi gül-çiçək də azaddır və varlıqları ilə ruhumuza nur çiləyirlər...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***







# REGİONLAR

## "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində seminar keçirilmişdir

**Ağstafada "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "Dayanıqlı yaşamın gələcəyi" mövzusunda seminar keçirilmişdir.**



Seminarı giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Seymur Orucov diqqətə çatdırmışdır ki, Ümummilli Lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycanda ətraf mühitin qorunmasına daim diqqət yetirmişdir: "Ulu Öndərin həyata keçirdiyi ekoloji siyasət sayəsində insanların təbiətə olan münasibəti dəyişmiş, su ehtiyatları və yaşıllıqların bərpası, artırılması ilə yeni meşələrin, parkların salınması diqqət mərkəzində saxlanılmışdır. Bu gün Prezident İlham Əliyev Ulu Öndərin başladığı ekoloji tarazlığın qorunmasını davam etdirir. Məhz bunun nəticəsidir ki, dünyanın ən nüfuzlu tədbirlərindən hesab olunan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un bu il Azərbaycanda keçiriləcəyi qərara alınmışdır".

YAP rayon təşkilatının sədri Etibar Hacıyev, Tatlı kənd tam orta məktəbin direktoru Fəridə Həsənova, Keşikçidağ Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktor müavini Lalə Yusifzadə, 2 saylı Regional Meşə Təsərrüfat Mərkəzinin əməkdaşı Elşən Orucov və başqaları çıxış edərək ölkəmizdə ekoloji problemlərin həlli, ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın qorunması istiqamətində görülən işlərdən danışmışlar.

Seminar Ağstafa rayonunda ətraf mühitin qorunmasından bəhs edən videoçarxın nümayişi ilə başa çatmışdır.

## Əmək yarmarkasında Göygölün 100-dən artıq sakini özünə iş tapdı

**Göygöl Rayon İcra Hakimiyyətinin və Dövlət Məşğulluq Agentliyi Gəncə-Daşkəsən Regional Məşğulluq filialının birgə təşkilatçılığı ilə rayon Gənclər Evində əmək yarmarkası keçirilmişdir.**



Yarmarkanın açılışında rayon icra hakimiyyətinin başçısı Elvin Paşayev, Gəncə-Daşkəsən Regional Məşğulluq filialının müdiri Elməddin Qurbanov çıxış edərək diqqətə çatdırmışlar ki, belə yarmarkalar sakinlərin məşğulluğuna müsbət təsir etməklə yanaşı, işəgötürənlərin də uyğun kadrlar seçimində müsbət rol oynayır.

Sonra işəgötürənlər tərəfindən müvafiq vakansiyalar üzrə iştirakçılara ətraflı məlumat verilmişdir. Bildirilmişdir ki, yarmarkada işaxtaran şəxslərə müxtəlif sahələr üzrə 200-ə yaxın boş iş yerləri təqdim edilmişdir.

Müraciət edən şəxslərin CV-ləri qəbul edilərək nəzərdən keçirilmiş və uyğun namizədlərin qeydiyyatı aparılmışdır. Bütün gün davam edən yarmarkada 100-dən artıq vətəndaş işlə təmin olunmuşdur.

## Şəmkirli gənc ABŞ-nin nüfuzlu universitetinə qəbul olmuşdur



**Şəmkir Rayon İcra Hakimiyyətində bu il Amerika Birləşmiş Ştatlarının LYNN Universitetinə tam təqaüdlə qəbul olunan Qarəcəmirli kənd sakini Səbinə Qasımova ilə görüş keçirilmişdir.**

Rayon icra hakimiyyətinin başçısı Rəşad Tağıyev S.Qasımovanı təbrik edərək onun bu uğurlarında xidmətləri olan valideynlərinə və müəllimlərinə minnətdarlığını bildirmişdir. Qeyd etmişdir ki, bu gün ölkəmizdə təhsilin inkişafı diqqət mərkəzindədir və dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Səbinəni və onun timsalında tələbə adını qazanan bütün məzunları təbrik edən RİH-in başçısı ölkəmizin, o cümlədən Şəmkir rayonunun sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edən bütün gənclərə nailiyyətlər arzulamışdır. Sonra Səbinə Qasımovaya rayon icra hakimiyyətinin fəxri fərmanı və xatirə hədiyyəsi təqdim olunmuşdur.

Səbinə Qasımova və valideynləri görüşün təşkilinə, göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirmişlər.

## Qazaxda sel sularının vurduğu ziyanın aradan qaldırılması üçün tədbirlər görülür

**Xəbər verdiyimiz kimi, son günlər intensiv yağan leysan yağışları nəticəsində Kür çayının Qazax rayonunun Aşağı Salahlı və Orta Salahlı kəndləri ərazisindən keçən hissəsində baş vermiş daşqınlar örüş sahələrinə, kənd sakinlərinə məxsus pay torpaqlarına, eləcə də təsərrüfatlara xeyli ziyan vurmuşdur.**



Baş vermiş təbii fəlakətlə bağlı rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov Suvarma Sistemləri İdarəsinin, Qazax Dövlət Aqrar İnkişaf Mərkəzinin, Azərbaycan Meliorasiya Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin tabeliyində olan Kür-Araz Çaylarında Bəndlərin İstismarı İdarəsi Qazax Sahəsinin və digər aidiyyəti təşkilatların rəhbərləri ilə birlikdə Aşağı Salahlı kəndində mövcud vəziyyətlə tanış olmuşdur. Vətəndaşların Kür çayının daşması səbəbindən çaya yaxın ərazilərdə yerləşən pay torpaq sahələrinin yuyulmasının qarşısının alınması üçün görülməsi vacib olan işlərlə bağlı idarə rəhbərlərinə lazımi tapşırıqlar verilmiş, problemin həlli istiqamətində aidiyyəti qurumlar qarşısında məsələ qaldırılacağı diqqətə çatdırılmışdır. Fürsətdən istifadə edilərək hadisə yerinə yaxın ərazilərdə yaşayan sakinlərlə söhbət zamanı təsərrüfat sahiblərinə aqrar sığortanın əhəmiyyəti, faydaları və fermerlər üçün üstünlükləri barədə də ətraflı məlumat verilmişdir. Baş verən təbii fəlakətlər, dolu və sel-subasma hadisələri zamanı aqrar sığortanın fermerlərə böyük kömək olduğu diqqətə çatdırılmışdır.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Biçin yaxınlaşır

## Kombaynlar start xəttindədir

**Texnikaya "əkinçinin sağ əli" də deyirlər və bu, həqiqətdir. Kəndli-fermer, sahibkar onun vasitəsilə şum aparır, mala çəkir, toxum səpir, becərmə işləri görür, yetişdirdiyi məhsulu yığır və s.**



Bu prosesi görəndə "Qanlı zəmi" filmindəki Qaçaq Nəbinin yoldaşları ilə birlikdə qollarını çirmələyib taxılbiçən kəndliyə kömək etməsi səhnəsi göz önündən keçir. Ardınca kolxoz quruluşu zamanında keçmiş SSRİ-də istehsal olunan kombaynlar yada düşür. Sonralar onları "Niva"lar əvəz etdi. Bu texnika sələflərinə nisbətən mütərəqqi idi. Kabinəsi, hətta kabinəsində ventilyatoru vardı. Onların bəziləri bu günədək işləyir.

Son 20-25 ildə isə ən yeni kənd təsərrüfatı texnikaları ölkəmizə "ayaq açıb". Onlar dövlətin kəndliyə dəstəyi olmaqla əkinçinin "sağ əlini" daha güclü edir. Belə texnikalar indi, demək olar, bütün rayonlarda, təsərrüfatlarda var.

Taxıləkən fermerlərin aylardan bəri gözlədikləri vaxt yaxınlaşır. Keçən ilin payızında əkdikləri taxıl yetişir. Arpa sahələri öz yaşıl donunu ağ rənglə əvəz edir. Bu il taxılçılar üçün uğurlu gəlir. Fermerlər deyirlər ki, yanvar ayında bir neçə gün qar, mart-aprel aylarında yağışların yağması zəmilərin boy atmasına şərait yaratdı. Ataların "6 ayda bir, bir ayda 6 qarış" məsəli özünü təsdiq etdi. Amma taxılçılar da yalnız təbiətə bel bağlayıb durmadılar. Lazımi aqrotexniki tədbirləri vaxtında və keyfiyyətlə həyata keçirdilər.

Neftçala Dövlət Aqrar İnkişaf Mərkəzi bitkiçilik sektorunun müdiri Vidadi Bağırov:

- Cari ilin məhsulu üçün 2023-cü ilin payızında 33 min 595 hektar sahəyə taxıl əkilmişdir. Bunun 26 min 715 hektarı arpa, 6 min 880 hektarı buğdadır. Təbiətin mərhəməti və fermerlərin gərgin əməyi sayəsində yaxşı məhsul ərsəyə gəlir. Keçən illə müqayisədə məhsuldarlığın 4-5 sentner çox olacağını gözləyirik. Bu gərgin əmək əkinlərə düzgün qulluq nəticəsində əmələ gəlir. 32 min 900 hektara yemləmə gübrəsi verilib. İki dəfə vegetasiya suvarması aparılıb. 167 hektarda gəmiricilərə, 37 hektarda digər zərərvericilərə və 1800 hektarda alaq otlarına qarşı mübarizə tədbirləri həyata keçirilib.

Neftçala rayonunun əkin sahələrinin çoxu, xüsusən Xəzərkənd kəndi ərazisindəki dəmyə torpaq sahələri dəniz altından çıxdığından qumsaldır. Qum isə günəşin hərarətindən tez qızdığı üçün taxılı başqa yerlərlə müqayisədə tez yetişdirir. Bir neçə gündən sonra burada biçinə start veriləcək. "Aqroservis" ASC Neftçala rayon filialının sədri Vaqif Qurbanovun dediklərindən məlum oldu ki, ərazidə 26 "Nowholland", "Klass" və "Sampo" markalı kombaynlar var. Onlardan hər biri, eyni zamanda taxıl biçinində iştirak edəcək digər texnikalar - yükdaşıyan avtomobillər, lafet və traktorlar start xəttinə gətirilmişdir. Kombaynçılardan Asif Kərimov, Qulam Rəsulov, Əli Mirzəyev, Heydər Quliyev və başqaları idarə etdikləri kombaynların biçinə tam hazır olduğunu, günü sabah işə başlaya biləcəklərini dedilər.

Bəli, taxıl biçininə az vaxt qalır. Birazdan sahələrə çıxarılacaq "səhra gəmiləri" çöllərin sükutunu pozaraq əkinçinin aylardan bəri əziyyət çəkib yetişdirdiyi arpa və buğdanı biçməyə başlayacaq. Biz isə bu başdan onlara "İşiniz avand, məhsulunuz bol olsun!" deyirik.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Şiyəkəranın körpü problemi həll edildi

**İllərdir sakinləri rahatsız edən, problemə çevrilən, Astaranın Şiyəkəran kəndini iki hissəyə ayıran Pensərçay (Təngərüdçay) üzərindəki körpü qəzalı vəziyyətdə idi.**

Kənddə yaşayan 6 min nəfərə yaxın əhalinin həyatında və fəaliyyətində bu körpü mühüm rol oynayır. Əkin aparılan pay torpaqlarına yol bu körpüdən keçdiyindən əhali təsərrüfat işləri ilə məşğul olmaqda böyük əziyyət çəkir, uşaqlarını məktəbə göndərə bilmirdi. Üstəlik keçən ilin sentyabr ayında yağan intensiv yağışların yaratdığı güclü sel suları nəticəsində körpünün dayaqları daha da zədələnmiş, təhlükəli həddə çatmışdır.

Nəhayət, kənd camaatının səsi eşidildi. Prezident İlham Əliyevin tapşırığına əsasən, yeni körpünün tikintisinə başlanıldı. Qısa müddət ərzində uzunluğu 34, eni 10 metr olan körpü inşa olundu. Bu günlərsə rayon rəhbərliyinin, ictimaiyyətin nümayəndələrinin iştirakı ilə körpü istifadəyə verildi. Açılış mərasimində söz alan kənd sakinləri bu diqqətə görə Prezident İlham Əliyevə, eləcə də inşaatçılara minnətdarlıq etdilər.

## Şirvanda yeni istirahət yeri salınıb

**Şirvanın Bayramlı qəsəbəsində müasir memarlıq üslubunda salınan yeni istirahət parkı sakinlərin istifadəsinə verilib. Ardınca parkın ərazisində ağacəkmə aksiyası keçirilib.**

Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, Milli Məclisin deputatı İltizam Yusifov, şəhərin hüquq-mühafizə orqanlarının, regional təşkilatların rəhbərləri, qəsəbə sakinləri və ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbir istirahət parkının önündə salınmış "Şəhidlər" memorial abidə kompleksinin ziyarəti ilə başlayıb. Sonra istirahət parkında aparılan yenidənqurma işlərinə baxış keçirilib. İştirakçılar minifutbol stadionu, uşaqlar üçün müxtəlif əyləncə qurğuları, söhbətgahların quraşdırıldığı yeni parkda görülən işləri yüksək qiymətləndiriblər.



Aksiyadan sonra şəhər icra hakimiyyətinin başçısı İlqar Abbasov qəsəbə sakinlərinin problemlərini dinləyib, həlli istiqamətində aidiyyəti üzrə müvafiq tapşırıqlar verib. Qəsəbə sakinləri göstərilən diqqət və qayğıya, vətəndaşların rahatlığı üçün aparılan abadlıq-quruculuq və yenidənqurma işlərinə görə minnətdarlıqlarını bildiriblər.

*S.CAVADOV,*
*"Azərbaycan"*

## Yaylaqlara köç edəcək fermerlər mina təhlükəsizliyi ilə bağlı təlimlərin ikinci mərhələsinə qatılıblar

**Kənd Təsərrüfatı Nazirliyinin Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) ilə birlikdə işğaldan azad edilmiş ərazilərdə yerləşən yaylaqlara köç edəcək təsərrüfatların rəhbərləri üçün mina təhlükəsizliyinə dair keçirdiyi təlimlərin ikinci mərhələsi başlayıb.**

Gəncə şəhərində keçirilən təlimlərdə 1110 fermer iştirak edir. Təlimlərə ilkin mərhələdə hər hansı səbəbdən iştirak etməmiş, yaxud qeydiyyatdan gec keçmiş təsərrüfat rəhbərləri cəlb olunub.

Xatırladaq ki, bundan əvvəl Füzuli və Yevlax rayonlarında, Sumqayıt və Gəncə şəhərlərində işğaldan azad edilmiş ərazilərdə yerləşən yaylaqlara köç edəcək təsərrüfatların rəhbərləri üçün mina təhlükəsizliyinə dair təlim keçirilib. Təlimlərdə 4042 fermer iştirak edib.

ANAMA mütəxəssisləri tərəfindən keçirilən təlimlərdə azad olunmuş ərazilərdəki dislokasiya nöqtələrində davranış qaydaları, partlamamış sursat və minaların müəyyən olunması, mina və partlayıcı qurğuların təhlükəsi, törədə biləcəyi xəsarətlər, tanış olmayan şübhəli ərazilərdə davranış qaydaları barədə geniş məlumat verilib. Təlim iştirakçılarına vizual tanımaq üçün müxtəlif növ hərbi sursat və minaları əhatə edən təlim sursatlarının nümunələri göstərilib, azad olunmuş ərazilərdə əsas davranış qaydalarına dair təlimat kitabçası, buklet, broşür və plakatlar təqdim olunub.

Təlimi başa vuran fermerlər azad olunmuş ərazilərdə, təsərrüfatları aparacaqları dislokasiya nöqtələrində davranış qaydalarına dair təlimatlarla tanış olduqları barədə iltizamnamə imzalayırlar. Təlimlərdə iştirak etmiş, müvafiq iltizamnaməni imzalamış fermerlər yaylaqlara köç prosesində iştirak edə biləcəklər.



## Naxçıvanda ümumi məhsul istehsalı 2,6 faiz artıb

**Cari ilin yanvar-aprel aylarında muxtar respublikada ümumi daxili məhsul istehsalı 424 milyon 762 min 800 manat olub.**

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu, 2023-cü ilin müvafiq dövründəki göstəricidən 2,6 faiz çoxdur.

Sözügedən dövrdə əhalinin hər nəfərinə düşən ümumi daxili məhsul istehsalı 2 faiz artaraq 905,9 manat olub. Həmçinin bu ilin yanvar-aprel aylarında muxtar respublikada 171 milyon 191 min 800 manatlıq sənaye məhsulu istehsal edilib ki, bu da ötən ilin müvafiq dövründəki göstəricini 10,9 faiz üstələyib.

## Astaranın dağ kəndlərinin yolunun yenidən qurulması davam edir

**Azərbaycan Respublikası Prezidentinin sərəncamına uyğun olaraq, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən Astara rayonunun Düriyyə - Şümrüd avtomobil yolunun əsaslı təmiri son mərhələdə olmaqla davam etdirilir.**

Əsasən torpaq əsaslı olan yolda xüsusən payız-qış aylarında gediş-gəliş çətinləşir, istər avtonəqliyyat vasitələrinin, istərsə də vətəndaşların hərəkətində maneələr yaşanırdı. Bütün bunlar nəzərə alınaraq layihə çərçivəsində ümumi uzunluğu 5 km təşkil edən yolun eni 8 metrə qədər genişləndirilib, bura 4 metr hərəkət hissə və 2 metr çiyin hissələr daxildir.

Artıq layihə üzrə yol yatağının yararsız qruntunun çıxarılması, əks-dolğu və zəruri qruntun tökülərək kipləşdirilməsi işləri, lazım olan yerlərdə müxtəlif diametrlərə malik yeni suötürücü dəmir-beton boruların quraşdırılması yekunlaşıb.

Sözügedən yolboyu işlər texnoloji ardıcıllığa riayət olunmaqla və yüksək sürətlə aparılır.

Qeyd edək ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən tikinti ərazilərinə kifayət qədər canlı qüvvə və texnika cəlb olunmaqla aparılan yenidənqurma işləri çərçivəsində əsasən torpaq əsaslı olan yol çınqıl örtüklü olmaqla 5-ci texniki dərəcəyə uyğun təkmilləşdirilir.

Düriyyə-Şümrüd avtomobil yolunun yenidən qurulmasında məqsəd 2 yaşayış məntəqəsinin əhalisinin rahat gediş-gəlişini təmin etmək, yük və sərnişin daşımasını asanlaşdırmaqdır.





# Mədəniyyət



**Qarabağ Azərbaycandır!**

## İndi Qarabağda sülh nəğməsi oxunur, qardaşlıq marşları çalınır

**Festivallar xalqların həyatında böyük mədəni hadisədir. Dünyada elə şəhərlər var ki, adı məhz orada keçirilən festivalların adları ilə bağlıdır. İslam dünyasının mədəniyyət paytaxtı Şuşa şəhərində keçirilən VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı "Şuşa - islam dünyasının mədəniyyət paytaxtı 2024"də tarixi əhəmiyyəti və rəngarəngliyi ilə dünyanın diqqət mərkəzini cəlb edən əsl mədəniyyət hadisəsi idi.**



Dünyanın bir çox ölkəsindən çoxsaylı musiqiçilərin iştirak etdikləri bu dostluq və musiqi bayramı mədəni irsimizin zəngin ənənələrinin qorunub saxlanılması ilə yanaşı, müxtəlif ölkələri təmsil edən musiqiçilərə ünsiyyət və əməkdaşlıq üçün əlverişli şərait yaradaraq mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə töhfə verir.

Şuşa yalnız məkan baxımından əzəmətli dağların zirvəsində qərar tutmayıb. Şuşa həm də bütünlüklə Qafqazda musiqinin paytaxtı, təsviri sənətin məkanı, Azərbaycan xalçasının vətəni, fikir və şairlər yurdu olması ilə zirvədə qərar tutan bir şəhərdir.

Şuşa dünyada bir mədəniyyət ocağı kimi tanınsa da, həm də qəhrəmanlıq rəmzidir, zəfər rəmzidir və sülhün rəmzidir.

VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalında qonaqları səmimiyyətlə salamlayan Prezident İlham Əliyev vurğulamışdır: "Builki "Xarıbülbül" festivalı bu hadisəyə - Şuşanın islam dünyasının mədəniyyət paytaxtı elan olunmasına həsr edilib. Bu gün bir çox müsəlman ölkələrinin kollektivləri bizim üçün müqəddəs olan Cıdır düzündə öz məharətlərini ifadə edəcəklər. Bu, birlik bayramı olacaq, bu, həmrəylik bayramı olacaq".

Şuşa 2021-ci ildə Azərbaycanın mədəniyyət paytaxtı, 2023-cü ildə türk dünyasının mədəniyyət paytaxtı seçildi. Dünyada az şəhər tapılar ki, üç il mədəniyyət paytaxtı adına layiq olsun. Bu şəhər 2024-cü ilin bu günündə isə İslam dünyasının mədəniyyət paytaxtı kimi qürurverici bir statusa sahiblənib.

VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının açılışında çıxış edən ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik Şuşa və şuşalıları belə təsvir etdi: "Şuşa paklıq, saflıq və xoş ab-hava şəhəridir. Şəhərin adı da elə buradan gəlir. Bizlərdən kimsə dünyada adı saflığa və təmizliyə uyğun gələn başqa şəhər tanıyırmı? Buranın havası təmiz, insanların hissləri pakdır".

İşğaldan azad olduğu gündən Şuşa dünyada sülh, əmin-amanlıq, musiqi və dostluq şəhəri ənənəsini davam etdirir. 32 ildən sonra şuşalıların doğma yurdlarına qayıdışı da festival iştirakçılarına ruh verirdi. Sanki doğma insanlarının nəfəsini duyan dağların da gözləri gülürdü. ICESCO-ya üzv ölkələrin bayraqları ilə 27 Qarabağ atından ibarət süvari dəstənin Cıdır düzünə daxil olması isə coşqunu daha da artırdı.

Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən builki festivalın proqramı ifaçıların və repertuarın zənginliyi, fərqli təqdimatlar ilə seçilirdi. Builki festival ICESCO-ya üzv ölkələrin ifaçıları və yaradıcı kollektivlərinin yer alması ilə fərqlənirdi. Festivalda müxtəlif ölkələrdən məşhur ifaçılar - Azərbaycandan Xalq artistləri Arif Babayev, Polad Bülbüloğlu, Zeynəb Xanlarova, Gülyanaq Məmmədova, Zülfiyyə Xanbabayeva, Sevda Ələkbərzadə, Əməkdar artist Rəşad İlyasov, Qazaxıstandan Əməkdar artist Əlişir Kərimov, Qvineyadan Aboubakar Silla, Özbəkistandan Xalq artisti Nəsibə Abdullayeva, Türkiyədən Hüsnü Şenlendirici, həmçinin "Aşıqlar qrupu", Azərbaycan Dövlət Rəqs Ansamblı, "Natiq" ritm qrupu, Birləşmiş Ərəb Əmirliklərindən "Almazyood", İndoneziyadan "Sendja Community", Qətərdən "Qılınc rəqqasları", Mərakeşdən "Tizwit" qrupları, Özbəkistandan "Navbahor" Mahnı və Rəqs Ansamblı, Türkiyədən "Anadolu ateşi" rəqs qrupu və digərləri çıxış etdilər. Konsert iştirakçılarının ifasında festivalı rəmzi olaraq təcəssüm etdirən "Səsin gəlsin, xarıbülbül" mahnısı ilə Şuşada yekunlaşan VII Beynəlxalq Musiqi Festivalı mayın 13-də Laçında "Aşıq mahnıları yeni səslənmədə" adlı konsert proqramı ilə Həkəri çayı ətrafında açıq səma altında davam etdirilib. Konsertdə Xalq artistləri Aygün Kazımova, Nazpəri Dostəliyeva, Tünzalə Ağayeva, Əməkdar artistlər Ehtiram Hüseynov, Lalə Məmmədova, Elnarə Abdullayeva və digərləri tanınmış aşıqlarımızla duet oxuyublar. Festival iştirakçılarının birgə ifasında səslənən "Bütöv Azərbaycan" mahnısı ilə başa çatıb. Artıq bütün dünya bir həqiqəti görür və anlayır. İşğaldan azad edilmiş ərazilərdə insanlar məskən salır, sürətlə abadlıq-quruculuq işləri gedir. Bir zamanlar dünyanın münaqişə ocağı kimi tanıdığı Qarabağa müxtəlif xalqların musiqisi səslənir. İndi Qarabağda silahlar yox, musiqi alətləri daşınır. İndi Qarabağda sülh, qardaşlıq marşları çalınır.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

**Elm xadimləri**

## Sevimli müəllim, unudulmaz insan...



**Əgər yaşasaydı, Bakı Dövlət Universitetinin kafedra müdiri, filologiya elmləri doktoru, professor Şamil Qurbanovun 90 yaşı tamam olacaqdı. Təəssüflər olsun ki, ömür vəfa etmədi. Şamil müəllim 2004-cü il yanvarın 16-da ömrünün 70-ci ilində dünyasını dəyişdi, yaxınlarını, doğmalarını və onu sevənləri kövrəltdi.**

Sadə, sadə olduğu qədər də şərəfli bir ömür yaşamış Şamil müəllim 1934-cü il mayın 10-da Bolnisi rayonunun Faxralı kəndində anadan olmuşdu. 1955-ci ildə orta məktəbi bitirmiş və həmin il ADU-nun (indiki BDU-nun) Jurnalistika şöbəsinə daxil olmuşdu. Universiteti fərqlənmə diplomu ilə bitirərək "Azərbaycan məktəbi" jurnalında ədəbi işçi kimi ilk addımlarını atmışdı. Bir-birindən maraqlı məqalələri ilə oxucuların diqqətini çəkmişdi. 1961-ci ildən isə məzunu olduğu ali təhsil ocağının Jurnalistika fakültəsində baş laborant kimi işləməyə başlamışdı. Şamil müəllimin gələcəyə gedən uğurlu yolları da bu təhsil ocağından start götürmüşdü. Bir il sonra o, Azərbaycan ədəbiyyatı tarixi kafedrası üzrə aspiranturaya qəbul olmuşdu. 1965-ci ildə "Zaqafqaziya rus dilli mətbuatında Azərbaycan ədəbiyyatı (1905-1917)" mövzusunda dissertasiyanı vaxtından əvvəl müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsi almışdı. Müdafiəsini başa vurduqdan sonra yenə də mətbuata üz tutmuş, "Bakı" və "Baku" qəzetlərində Ədəbiyyat şöbəsinin müdiri işləmişdi. Amma elmə, təhsilə olan böyük maraq və sevgi yenidən onu universitetə qaytarmışdı. O, 1968-ci ildən "Azərbaycan dili və onun tədrisi metodikası" kafedrasında dosent işləmişdi. Böyük sevgi və məhəbbət bəslədiyi Azərbaycan dilini tədris etmişdi.

Şamil Qurbanov 1971-ci ildən rus ədəbiyyatı tarixi kafedrasına keçmiş və rus ədəbiyyatından mühazirələr oxumuşdu. 1975-ci ildə "XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan-rus ədəbi əlaqələri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdi. Alim apardığı tədqiqatlar zamanı Azərbaycan ədəbiyyatında yeni səhifələr açmış, o vaxta qədər ictimaiyyətə məlum olmayan və yaxud da az məlum olan yaradıcı şəxsiyyətləri üzə çıxarmışdı. Bunlar Hüseyn Minasazov, Rəhim bəy Məlikov, Məmməd Qarayev, Həmzət bəy Qəbulov-Şirvanski, Sona xanım Axundova, Kərim Yaycılı və başqalarıdır. Onun Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Ceyhun bəy Hacıbəyli, Məhəmməd Əmin Rəsulzadə haqqında da dərin tədqiqat əsərləri var. Şamil müəllimin ən böyük ədəbi xidməti Ömər Faiq Nemanzadə və Şeyx Cəmaləddin Əfqani haqqında dəyərli tədqiqatlarıdır. Professor bu görkəmli ziyalılar haqqında məqalələrdən əlavə, kitablar da nəşr etdirmişdir. Bu kitablarda Ömər Faiq Nemanzadənin və Şeyx Cəmaləddin Əfqaninin ədəbi xidmətləri ətraflı şərh olunmuşdur.

Şamil Qurbanov 1978-ci ildən 1992-ci ilə qədər doktorluq elmi dərəcəsi verən Elmi Şuranın elmi katibi işləmişdir. 1981-1992-ci illərdə Filologiya fakültəsinin qiyabi və axşam şöbəsinin dekanı olmuşdu. Bundan başqa, o, 10-dan çox beynəlxalq simpozium və konfranslarda iştirak etmiş, Daşkənd və Tbilisi ali məktəblərində Azərbaycan ədəbiyyatını tədris etmişdi. Şamil Qurbanov 22 kitabın, 300-dən çox məqalənin müəllifidir. Məqalələri təkcə ölkəmizdə deyil, İran, İraq, Türkiyə, Gürcüstan və digər ölkələrdə çap olunmuşdur.

Professor Şamil Qurbanov həm insan, həm də müəllim kimi çox səmimi idi. O, Bakı Dövlət Universitetinin "Türk və Şərqi slavyan xalqları ədəbiyyatı" kafedrasının müdiri olmuşdur.

Şamil müəllim 1995-ci və 2000-ci illərdə Bakı şəhərinin Nizami rayonundakı 12 saylı seçki dairəsindən Milli Məclisə deputat seçilmişdi. Millət vəkili kimi parlamentdəki müzakirələrdə fəal iştirak etmişdi. Şamil Qurbanov Milli Məclisin Elm və təhsil məsələləri daimi komissiyasının üzvü kimi müstəqil Azərbaycan Respublikasında qanunvericilik aktlarının hazırlanıb qəbul edilməsində yaxından iştirak etmiş, ölkəmizdə həyata keçirilən islahatların qanunvericilik bazasının təkmilləşdirilməsində əlindən gələni əsirgəməmişdir. Onun Azərbaycanla Gürcüstan arasında parlamentlərarası əlaqələrin möhkəmləndirilməsi və inkişaf etdirilməsində də çox böyük xidmətləri olmuşdur.

Tanınmış ictimai xadim, təcrübəli alim-pedaqoq, qayğıkeş insan Şamil Qurbanov 2004-cü il yanvarın 16-da Bakı şəhərində dünyasını dəyişmişdir. Onun əziz xatirəsi doğmalarının, əzizlərinin və onu tanıyanların qəlbində daim yaşayacaq. Şamil müəllimi yaşadan həm də onun bir vaxtlar böyük əziyyətlərə qatlaşaraq yazdığı kitablardır. Onun əsərləri hələ bundan sonra da nəsillərin yollarına işıq salacaq və həmişə xoş təəssüratlarla xatırlanacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

**İstedadlar**

## Dünyanı xoşbəxt görmək istəyən sənətkar



**"Dünya rənglərdən ibarətdir. Yaşadığımız dünyaya rəngarəng dünya deyirik... Ağlı-qaralı dünya deyirik. İnsan həyatı da ağlı-qaralı günlərdən keçir. Ağ rəngin öz çalarları var. Düşünürəm ki, insanın vicdanı da ağ rəngdə olmalıdır. Rəng qruplarından (isti, soyuq, neytral) bir və ya bir neçəsinin rənglərinin birləşməsi rəng palitrası yaradır... Dünyada baş verən kataklizmlər yaşadığımız dünyanın rəngini qarışdırsa da, çox şükür ki, Azərbaycan dünyaya işıq saçır. Qürur duyuram ki, ölkəmiz dünyaya sülh çağırışı edən mərkəzə çevrilib. Qətiyyətlə deyə bilərəm ki, rənglər dünyasında özünəməxsus yeri olan, açıqürəkli, vicdanlı insanların yaşadığı vətənimiz Azərbaycanın rəngi də ağdır..."**



Redaksiyamızın qonağı olan gənc rəssam Nərmin Hümmətova maraqlı düşüncələri ilə bizi həm də sözünün sehrinə saldı. "Kiçik yaşlarımdan meylimi rənglər dünyasına salmışam. Rənglərin öz sirri, öz sehri var. Yaxşı birləşən rənglər insanda arzuolunan əhvali-ruhiyyə, gözəl hiss yaradır. İsti rənglər dinamik hisslər, soyuq rənglər sakitləşdirici hisslər yaradır; neytrallardan bunlardan birini artırmaq və ya yumşaltmaq, yaxud zərif hisslər yaratmaq üçün istifadə edilə bilər. Qalıcı rəng palitrası insanlara şəxsiyyət haqqında düşüncə, bir təmas nöqtəsi verməklə müxtəlif hissləri birləşdirir... Beləliklə, rəssam fırçası ilə, rənglərlə yeni dünya yaradır".

Nərmin Hümmətova 1991-ci ildə Bakıda anadan olub. 2007-ci ildə Respublika İncəsənət Gimnaziyasının rəssamlıq ixtisasını bitirib. O, hələ orta məktəb illərində bir çox beynəlxalq və respublika müsabiqələrində iştirak edib və qalib olub.

"Rənglər dünyasının sirlərinə daha yaxından vaqif olmaq üçün 2007-ci ildə Ə.Əzimzadə adına İncəsənət Kollecinə daxil oldum və oranı 2011-ci ildə fərlənmə diplomu ilə bitirdim. Daha sonra 2011-2015-ci illərdə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Rəngkarlıq fakültəsində təhsilimi davam etdirdim. İkinci ali təhsilimi 2019-2021-ci ildə ADRA-nın Təsviri incəsənət müəllimliyi fakültəsində aldım. Hazırda rəssam olmaq arzusunda olanlara rənglər dünyasından dərs keçirəm. Qürurla deyə bilərəm ki, çox layiqli yetirmələrim var".

Gənc rəssam Nərmin Hümmətovanın 2011-ci ildə Litva, Latviya, Estoniya və Finlandiyada fərdi sərgisi keçirilib. 2012-ci ildə vətənimizi Almaniyanın Berlin şəhərində təmsil edən rəssam "Almaniya Azərbaycan rəssamlarının gözü ilə" adlı sərgisinin qalibi olub. 2014-cü ildə isə Moskvada keçirilən Lermontovun 200 illiyinə həsr olunan sərgidə rəssamın Xocalı faciəsinə həsr etdiyi "Uşaq harayı" əsəri xüsusi mükafata layiq görülərək diplomla təltif olunub. 2016-cı ildə "Asfalt üzərində ən yaxşı rəsm" müsabiqəsində birinci yerə layiq görülən Nərmin xanım Azərbaycanla Türkiyə arasında keçirilən simpoziumda iştirak edən ilk azərbaycanlı rəssamlardan olub.

Dəfələrlə Latvia, Estoniya, və Finlandiyada sərgisi təşkil edilən gənc rəssam vətənə qalib kimi, fəxri fərman və diplomlarla qayıdıb.

Nərmin Hümmətova rəssamlıq həyatının yaddaqalan gününü xatırlayaraq deyir. "Ekspo Mərkəz"in açılışı idi. Dövlətimizin başçısı İlham Əliyev tədbirdə iştirak edirdi. Ulu Öndərin Azərbaycan ilə sintez olunmuş portretini çəkmişdim. Prezidentimiz rəsmi çox bəyəndi və Ulu Öndərin rəsmi ilə şəkil çəkdirdikdən sonra mənimlə xususi olaraq görüşdü. Diplomla təltif olundum".

2007-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvü, Prezident təqaüdçüsü rəssam Nərmin Hümmətova dəfələrlə "Yarat" və IDEA ictimai birliklərinin təşkil etdiyi Mamuka Japaridze, İnga Şmit, Poll Cordwell master-klaslarda iştirak edib və fərdi sərgiləri təşkil olunub. 2023-cü ildə Cənubi Koreyanın paytaxtı Seulda keçirilən "Art of Cultural Diplomacy" sərgisində Asiyada Azərbaycan mədəniyyətini və incəsənətini təmsil edən ilk rəssamlardan biri də Nərmin Hümmətova olub. Sərgidə rəssamın beş əsəri - "Qarabağın işğaldan azad olunması", "Qarabağ atları", "Naturada nar rəsmi", "Natürmort janrında çəkilmiş nar şərab", "Müasir və Qədim Bakı" nümayiş etdirilib.

***E.QƏNİYEV,***
***"Azərbaycan"***

## Vyanada Azərbaycan Mədəniyyət Mərkəzində milli musiqi axşamı təşkil olunub

**Vyanada Azərbaycan Mədəniyyət Mərkəzinin təsis edilməsinin 11-ci ildönümünə həsr olunmuş konsert keçirilib.**



Tədbiri açan Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri Leyla Qasımova yarandığı gündən indiyədək mərkəzin fəaliyyətinə nəzər salıb, önəmli layihə və tədbirlərdən söz açıb. Bildirilib ki, Azərbaycan mədəniyyətinin Avstriyada təqdimatında və iki ölkə arasında mədəni əlaqələrin inkişafında mühüm rol oynayan mərkəz eyni zamanda Azərbaycan dilinin həm əcnəbilər üçün tədrisini, həm də Avstriyada yaşayan soydaşlarımızın övladları üçün həftəsonu kurslarını təşkil edir.

Vurğulanıb ki, Azərbaycan Mədəniyyət Mərkəzi Azərbaycan tarixinin önəmli gün və hadisələrini daim diqqət mərkəzində saxlayır. Bu günlərdə Azərbaycanda və ölkəmizin hüdudlarından kənarda görkəmli siyasətçi Heydər Əliyevin anadan olmasının 101 illiyi, həmçinin onun adını daşıyan, Azərbaycan mədəniyyətinin təbliğində əvəzsiz xidmətlər göstərən Heydər Əliyev Fondunun 20 illik yubileyi qeyd edilir.

Sonra Avstriyada yaşayan azərbaycanlı musiqiçilər Abuzər Manafzadə (fortepiano), Günel Şirinova (soprano) və Ümid Gürci (bariton) Azərbaycan bəstəkarlarının əsərləri və xalq mahnılarından ibarət konsert proqramı ilə çıxış ediblər. Eləcə də A.Manafzadə yeni işıq üzü görmüş "İnsomnia" albomundan bir neçə əsər ifa edib və Azərbaycan mədəniyyətinin təbliğində göstərdiyi fəaliyyətə görə imzalı diskini Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri Leyla Qasımovaya təqdim edib.

## II Bakı Müasir Musiqi Günləri keçiriləcək

**Mayın 20-dən 26-dək Elm və Təhsil Nazirliyi və Mədəniyyət Nazirliyinin dəstəyi ilə "II Bakı Müasir Musiqi Günləri" festivalı keçiriləcək.**




Festivalda yerli musiqiçilərlə yanaşı, Avstriya, Almaniya, Macarıstan, Norveç, ABŞ və Rusiyadan dəvət olunmuş ifaçıların da iştirakı nəzərdə tutulur.

Festivalın proqramı səhər, gündüz və axşam sessiyalarından ibarətdir - konsertlərin hamısı ictimaiyyət üçün açıqdır. Həmçinin Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində və Beynəlxalq Muğam Mərkəzində ustad dərsləri, seminarlar və mühazirələr keçiriləcək.

Eyni zamanda Beynəlxalq Muğam Mərkəzində və Muzey Mərkəzində "Portretlər" adlı yaradıcılıq gecələri təşkil ediləcək. Festivalın hər bir günü ya Beynəlxalq Muğam Mərkəzində, ya da Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında axşam konserti ilə başa çatacaq.

## İsmayıl Şıxlının anadan olmasının 105 illik yubileyi qeyd edilib

**Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin M.Ş.Vazeh adına Mərkəzi Kitabxanasının təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində görkəmli yazıçı, pedaqoq, dramaturq, ictimai-siyasi xadim, Xalq yazıçısı İsmayıl Şıxlının 105 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.**



Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Vətən torpaqlarının azadlığı uğrunda gedən döyüşlərdə şəhid olanların əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Sonra Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru, tarix üzrə fəlsəfə doktoru, Fəxri mədəniyyət işçisi Lətifə Məmmədova tədbiri açıq elan edərək yazıçının həyat və yaradıcılığından ətraflı danışıb. Onun Azərbaycan ədəbiyyatında böyük xidmətlərinin olduğunu vurğulayıb. İsmayıl Şıxlının "Dəli Kür" romanının onun yaradıcılığının ana xətti olduğunu bildirib. Ulu Öndər Heydər Əliyevin İsmayıl Şıxlı haqqında söylədiyi dəyərli fikirləri tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Milli Məclisin deputatı Aydın Mirzəzadə İsmayıl Şıxlının yaradıcılığından söz açıb. Vurğulayıb ki, yazıçı "Dəli Kür" romanı üzərində 10 il çalışıb. Sonda adı Azərbaycan ədəbiyyatı tarixinə böyük hərflərlə yazılmış əsər yaradıb.

Moldova Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Aleksandr Esaulenko tədbirə dəvətə görə təşkilatçılara öz təşəkkürünü bildirib. Çıxışında yazıçının Azərbaycan ədəbiyyatında neorealizmin yaradıcısı kimi tanındığını söyləyib.

Əməkdar jurnalist, filologiya elmləri doktoru, professor Qulu Məhərrəmli İsmayıl Şıxlının Azərbaycan ədəbiyyatına verdiyi dəyərli töhfələrdən danışıb. Professor yazıçının sonuncu əsəri olan "Ölən dünyam" romanı haqqında ətraflı söz açaraq onun müəllifin ömrünün son akkordu olduğunu nəzərə çatdırıb.

"Qazax" Xeyriyyə Cəmiyyətinin sədri, professor İlham Pirməmmədov tədbirin təşkilatçılarına təşəkkürünü bildirib, İsmayıl Şıxlı ilə bağlı xatirələrini bölüşüb.

Qarabağ Əlillərinə Qayğı İctimai Birliyinin sədr müavini Vidadi Şabanov, "Altun kitab" nəşriyyatının rəhbəri Rafiq İsmayılov, şair Zərəngiz Mansurova, dosent Cəmilə Qacarlı, yazıçılar Səbinə Yusif, Qaysın Quliyev, Sevinc Ağa Xəlilqızı, "Dədə Qorqud" vəqfinin rəhbəri, "Azərbaycan dünyası" jurnalının təsisçisi və baş redaktoru Eldar İsmayıl çıxışlarında İsmayıl Şıxlının yaradıcılığını yüksək qiymətləndiriblər.

Tədbirin bədii hissəsində muğam müsabiqələrinin iştirakçıları Oksana Aslanova "Segah", Mətin Cəfərov "Qatar" təsnifini oxuyublar. Sənətşünaslıq üzrə fəlsəfə doktoru, bədii qiraətçi Zülfiyyə Eldarqızı yazıçının "Ölən dünyam" romanından bir parçanı səsləndirib.

Ədibin oğlu, Azərbaycan Jurnalistlər Birliyinin sədri Elçin Şıxlı çıxış edərək tədbirin təşkilatçı və iştirakçılarına atasının xatirəsini andıqlarına görə minnətdarlığını bildirib.

***V.MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# "Azərişıq" ASC Gədəbəydə yenidənqurma işlərini davam etdirir

**Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən "Azərişıq" ASC regionlarda yenidənqurma işlərini davam etdirir. İnvestisiya Proqramı çərçivəsində Gədəbəyin də elektrik şəbəkəsi yenilənir. Sovet dövründənqalma köhnə elektrik xətləri tamamilə müasir standartlara uyğun şəkildə yeniləri ilə əvəzlənir.**



Qurumun Mətbuat xidmətinin verdiyi məlumata görə, Gədəbəyin 350 abonenti olan Xar-xar kəndində sakinlərin dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmini üçün işlər davam edir. Kənddə 0.4 kV-luq yeni kabel xətləri çəkilib və dayaqlar basdırılıb. Müasir standartlara cavab verən yeni tipli sayğac qutuları quraşdırılıb və sayğaclara giriş naqilləri çəkilib. Əlavə 250 KVa-lıq transformator quraşdırılıb.

Rayonun Arısu kəndində yenidənqurma işləri yekunlaşıb. Kənddə sakinlərin dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin olunması üçün 0.4 kV-luq özünüdaşıyan izolyasiyalı kabel xətləri çəkilib, dayaqlar basdırılıb.

Arıqıran və Zəhmət kəndlərində isə elektrik təsərrüfatının yenilənməsi işləri davam etdirilir. Yeni elektrik xətlərinin keçdiyi ərazilərdə dayaqlar basdırılır.

"Azərişıq" ASC İnvestisiya Proqramına uyğun olaraq paralel şəkildə bütün regionlarda yenidənqurma və əsaslı təmir işlərini davam etdirir. Bölgələrdə elektrik təsərrüfatının yenilənməsi abonentlərin fasiləsiz elektrik enerjisi ilə təmin olunmasına və elektrik enerjisi itkilərinin minimuma endirilməsinə hədəflənib.

## 15 May Beynəlxalq Ailə Günüdür

# Dünyanın nümunəvi ailə modellərindən biri - Azərbaycan ailəsi

**BMT-nin Baş Assambleyasının qətnaməsinə müvafiq olaraq 1994-cü ildən bəri hər il mayın 15-də Beynəlxalq Ailə Günü qeyd edilir. Azərbaycan bu ənənəyə 2008-ci ildən qoşulub.**



Azərbaycan ailəsi həmişə özünün uzunömürlü olması və möhkəmliyi ilə seçilib. Bu, əsasən milli-mənəvi dəyərlərin, adət-ənənələrin qorunub saxlanılmasından, müasir dövrə uyğunlaşdırılmasından irəli gəlir. Ailə institutunun cəmiyyətdəki mövqeyinin möhkəmləndirilməsinin bütün dünyada aktual məsələ olduğu bir zamanda bu, xüsusi əhəmiyyət kəsb edir. Bu gün Azərbaycan ailəsi haqlı olaraq dünyada ən yaxşı ailə modellərindən biri sayılır.

Azərbaycan ailəsi iki insanın daim birlikdə olmaq, birgə ömür sürüb xoş həyat yaşamaq, övlad böyütmək, nəvə-nəticə görmək arzusu ilə yaranır. Hər ailə "yüz ölçülüb bir biçilərək" qurulur. Təkcə keçən il ölkəmizdə 54 min 200 nikah bağlanıb, bu ilin ilk iki ayında isə 6 min 739 toy çalınıb.

Bəzən hətta gənclərin ailə qurması prosesinin uzun çəkdiyi, toy-nişan tədbirlərinin həddən çox uzandığını tənqid də edirik. Elçilik, razılıq ("hə" cavabı almaq), məsləhətləşmə, nişan, xınayaxdı, toy... Əslində, bu mərhələnin hər biri özünəməxsus əhəmiyyət daşıyaraq ailənin təməl daşlarına çevrilir. İstər evlənən cavanların, istərsə də onların doğmalarının bir-birini tanımasında, necə deyərlər, qaynayıb-qarışmasında böyük rol oynayır. Qohum-əqrabanın, dost-tanışın bir araya gəlib toyda iştirak etməsi, gənclərin bu əziz gününə şərik olması onların məsuliyyətini artırır. Ağsaqqal, ağbirçək xeyir-duası ilə qurulan evin bünövrəsi möhkəm, divarları davamlı olur.

Azərbaycan ailəsinin möhkəmliyi həmişə qadının ismətindən, sədaqətindən, kişinin qeyrətindən, mərdliyindən qaynaqlanıb. Nə xoş ki, bu əvəzsiz ərməğan nəsildən-nəsilə keçərək indi də yaşayır.

Bugünkü gənc xanımlar da ailəcanlıdırlar. Müasir Azərbaycan qadını cəmiyyətdə yüksək mövqe tutsa da, bilik, intellekt, sənət, vəzifə sahibi olsa da, ana olmağı, övlad böyütməyi özünün ən böyük missiyası sayır. Azərbaycanın Birinci vitse-prezidenti, birinci xanım Mehriban Əliyeva bu barədə belə deyib: "Əlbəttə, hər şəxsin formalaşmasında ailənin, ailə mühitinin, ailə tərbiyəsinin rolu əvəzsizdir. Ailəyə bağlılıq, ailə dəyərləri, uşaqlara qayğı, böyüklərə hörmət Azərbaycan xalqına məxsus olan ən gözəl xüsusiyyətlərdən biridir... Hər bir qadın üçün onun ailəsi, onun uşaqları həyatının ən vacib, ən mühüm hissəsidir. Mən özüm üç uşaq anası olaraq analıq missiyasını həyatımın ən vacib missiyası kimi dəyərləndirirəm".

Azərbaycan kişisi üçün də ailə müqəddəsdir. O, ailəsinin güzəranı, övladlarının xoşbəxt və firavan böyüməsi üçün zəhmətə qatlaşır. Xanımı onun üçün həm oğlunun, qızının anası, həm də dost, həmdəm, evinin, ömrünün yaraşığı, namus-qeyrətinin tacidarıdır.

Həyat yoldaşı Səyyarə xanımla 60 ildən çox xoşbəxt ömür sürmüş mərhum yazıçımız Əfqanla ailə dəyərləri barədə söhbətimizi xatırlayıram: "Bilirsinizmi, mən kişini və qadını evin divarının çöl və iç tərəflərinə bənzədirəm. Divar hər tərəfdən möhkəm olmalıdır. Kişi evi çölün-bayırın sərt təsirlərindən qorumağı, evin içərisindən muğayat olmalıdır. Qadın isə evin daxili ab-havasının keşiyində dayanmalı, evi uşaqlar üçün isti qucağa çevirməlidir. Evin içindən çölünə, çölündən isə daxilinə zərbə dəyməməlidir. Bizim 60 ildən çoxdur davam edən ailə həyatımızın kodeksi belə olub".

Azərbaycan ailəsinin ən qiymətli varı övladdır. Oğul haqlı olaraq arxa-kömək, düşmən sipəri, vətənin, torpağın müdafiəçisi, qız isə gələcəyin anası, qayğıkeşlik, mehribanlıq mücəssəməsidir. Nəvə ömrün şirin barıdır. Odur ki, ölkəmizdə əhalinin sayı əsasən təbii artımla, yəni yeni doğulanların hesabına çoxalır. Bu xoşbəxtlik heç də hər xalqa qismət olmur. Yeri gəlmişkən qeyd edək ki, keçən il Azərbaycanda 112 min 620 körpə dünyaya göz açıb. Bu ilin ilk iki ayında isə 17 min 81 uşaq anadan olub.

Hazırda gənc ailələrin hər birində əsasən iki övlad böyüyür. Üçuşaqlı ailələr də az deyil. İstər şəhərlərimizdə, istərsə də kəndlərimizdə dörd, beş və daha çox övladı olan valideynlərə də rast gəlmək mümkündür. Çoxuşaqlı ana Zərnigar Hüseynova deyir: "Dörd qızımız, bir oğlumuz var. Mənim anam da, qayınanam da çoxuşaqlı olublar. Həmişə deyiblər ki, övlad insanın qol-qanadıdır. Əvvəlcə qızlarımız dünyaya gəldi. Hər birinin gəlişini sevinclə qarşıladıq. Sonbeşiyimiz isə qızların qardaş payıdır. İndi onun toyuna hazırlaşırıq. Bacılarının isə hamısı artıq xoşbəxt ailə sahibidir. Doğrudur, uşaqları araya-ərsəyə gətirincə çətinliyimiz az olmayıb. Amma hamısına yaxşı tərbiyə və təhsil vermişik. İndi onlara baxdıqca qəlbimiz fərəhlə döyünür".

Azərbaycan ailəsində həmişə böyüyə hörmət, ağsaqqala, ağbirçəyə ehtiram hökm sürüb. Qocalara qayğı göstərmək hər kəsin müqəddəs, mənəvi borcu və vəzifəsidir. Bizlər bundan məmnunluq duyuruq.

Ailəyə qayğı Azərbaycan dövlətinin prioritet kimi qarşıya qoyduğu vəzifələrdən biridir. Prezident İlham Əliyev ailənin əhəmiyyətini vurğulayaraq demişdir: "Ölkəmizin inkişafı, müstəqilliyimizin daha da möhkəmləndirilməsi üçün və milli dəyərlərin tam şəkildə bərqərar edilməsi üçün ailə dəyərləri daim yüksək olmalıdır".

Dövlət ailədən hərtərəfli qayğısını əsirgəmir. Uşaq dünyaya gələndə ailəyə birdəfəlik müavinət verilir. Aztəminatlı ailələr dövlət sosial yardımı alırlar. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ilin əvvəlinə ölkəmizdə 65 minədək aztəminatlı ailənin 275 minədək ailə üzvü ünvanlı dövlət sosial yardımı almış və onun bir nəfərə düşən orta aylıq məbləği təxminən 114 manat təşkil etmişdir. Ailələrin yaxşı güzəranının təmin edilməsi məqsədilə yeni iş yerləri yaradılır, məktəblər, uşaq bağçaları, xəstəxanalar, idman kompleksləri və s. inşa edilir.

Ailələr arasında bir ailə də var ki, hamımız üçün, bütün xalqımız üçün əziz və doğmadır. Bu, şəhid ailəsidir. Onu ən müqəddəs əmanət bilməyimiz də yüksək mənəviyyatdan, vətənpərvərlikdən və insansevərlikdən qaynaqlanır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**



**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*



## "Səba" ASC-nin səhmdarlarının nəzərinə

28 iyun 2024-cü il tarixdə saat 15:00-da Abşeron rayonu, Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 1 ünvanında "Səba" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının növbəti (illik) ümumi yığıncağı keçiriləcəkdir.

*Ümumi yığıncağın gündəliyinə aşağıdakı məsələlərin müzakirəsi daxil edilmişdir:*

**1. "Səba" Açıq Səhmdar Cəmiyyətinin 2023-cü il üçün illik (maliyyə) hesabatları barədə.**

Ümumi yığıncağa gələn səhmdarlar şəxsiyyəti təsdiq edən sənəd, səhmdarların nümayəndələri isə şəxsiyyəti təsdiq edən sənəd və nümayəndənin səlahiyyətini təsdiq edən etibarnamə təqdim etməlidirlər.

**Əlaqə telefonu: +994124044441**
**Ünvan: AZ0100, Abşeron rayonu, Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 1**

***"Səba" ASC-nin İdarə Heyəti***


# Erməni xalqı Azərbaycanla sülh müqaviləsini dəstəkləyir

## Müxalifət Paşinyan əleyhinə mitinqlərdə kütləviliyi təmin edə bilmir

**Hayastanda baş verən son proseslər erməni cəmiyyətində artıq yeni qarşıdurma mərhələsinin başlandığını göstərir. Müxalif qüvvələr Nikol Paşinyan iqtidarına qarşı fəaliyyətini dayandırmaq istəmir, bu xüsusda keçmiş hərbi xunta yenidən önə çıxmağa cəhd edir. Ancaq Xocalı soyqırımını törədənlər və son savaşda məğlub olan müharibə canilərinin Paşinyanı hakimiyyətdən devirmək planları heç də asanlıqla həyata keçmir.**



Hökumət əleyhinə etiraz aksiyaları mediada təqdim edildiyi qədər genişmiqyaslı deyil. Yəni müxalifətçilər Paşinyan əleyhinə mitinqlərdə kütləviliyi təmin edə bilmirlər. Etirazlar aprelin 19-da İrəvan və Bakının Tavuşdan delimitasiyaya başlamağa razılaşdığı məlum olduqdan sonra başlayıb. Revanşist qüvvələrin, habelə xarici dairələrin ssenarisi əsasında təşkil olunan etiraz aksiyalarının "lideri" rolunu oynayan, mayın 9-da Tavuşdan İrəvana yürüş keçirən Erməni Apostol Kilsəsinin Tavuş yeparxiyasının rəhbəri, arxiyepiskop Baqrat Qalstanyan baş naziri istefaya çağırıb. İstefa tələbi cavabsız qaldıqdan sonra Qalstanyan itaətsizlik aktlarının başladığını elan edib.

Dünən də "Vətən naminə Tavuş" hərəkatının tərəfdarları yürüşü davam etdiriblər. Onlar bir neçə küçənin kəsişməsini bağlasalar da, hüquq-mühafizə orqanlarının bəyanatından sonra geri çəkiliblər. İki deputat - Artur Xaçatryan və Qeqam Manukyan da etirazçılarla birlikdə olublar. Polis səhər tezdən aksiya keçirən 60-dan çox nəfəri saxlayıb. Onlar hökumət nümayəndəsinin qanuni tələblərinə tabe olmamaqda günahlandırılırlar.

İlk günlərdə Paşinyan hesab edirdi ki, bu etirazlar onun Azərbaycanla danışıqlarda əlini gücləndirə bilər. Ona görə də etirazların qarşısını almağa həvəsli deyildi. Hətta Baqrat Qaltstanyanın gah maşınla, gah piyada üzü İrəvana yürüş etməsinə də əngəl törədilmədi, bunun "erməni xalqının etirazı" kimi təqdim edilməsinə şərait yaratdı. Amma artıq bu, qanunsuz dəstə Paşinyan üçün təhlükələr vəd edir.

Hayastanın baş naziri Nikol Paşinyan bildirib ki, bu etirazların başında II Qaregin və sabiq prezident Robert Koçaryan dayanır. Artıq Paşinyan özü də görür ki, kilsə etirazları getdikcə genişlənir və günün birində təhlükəli miqyas ala bilər. Baş nazir "Katolikos II Qaregin bu gün siyasi hərəkata rəhbərlik edir, hərəkatın benefisiarı isə Robert Koçaryandır", - deyir və kimin nə oyunlarla məşğul olduğundan xəbərsiz olmadığını bildirir. Paşinyanın dediyinə görə, hələ 2021-ci ildə Robert Koçaryan kilsənin köməyi ilə hakimiyyətin dəyişməsi ssenarisini təqdim edib.

Saxlanılan radikallar arasında "ASALA" terror təşkilatının üzvü olan Ambik Sasunyan da var. Həmin bu Sasunyan 1982-ci ildə Türkiyənin Kaliforniyadakı konsulu Kemal Arıkanı qətlə yetirib. Sasunyan törətdiyi qətlə görə 1984-cü ildə ömürlük həbs cəzasına məhkum olunsa da, 2021-ci ilin fevral ayında Los-Anceles Ali Məhkəməsi tərəfindən azadlığa buraxılıb. Türk qatili indi Ermənistandakı etirazların başına keçib. Bu, çox şeydən xəbər verir. Faktın özü etirazların təkcə Ermənistan-Azərbaycan arasındakı sülhə qarşı deyil, həm də Türkiyə ilə münasibətlərin tənzimlənməsinə qarşı yönəldiyini deməyə əsas verir.

Erməni Apostol Kilsəsinin Tavuş yeparxiyasının primatı, arxiyepiskop Baqrat Qalstanyan isə deyib ki, hakimiyyət kilsənin işlərinə daim müdaxilə edib və bundan sonra da qarışmağa çalışacaq. Revanşist keşişin sözlərinə görə, o, vaxtaşırı bütün ermənilərin katolikosu II Qareginlə görüşür.

Erməni Ali Ruhani Şurasının onun fəaliyyətindən narazı olması ilə bağlı iddialara toxunan arxiyepiskop bildirib ki, qeyri-adi heç nə etmir: "Həyat həmişəki kimi davam edir. İnsanları öz hisslərini ifadə etməyə və həqiqəti söyləməkdən çəkinməməyə təşviq edirəm. Bunda qəribə nə var? Deyirəm: özümüzü təmizləyək, barışaq. Burada pis nə var ki".

Maraqlıdır ki, təxribatçı keşiş Hayastanda dinin hansı hüquqla dövlət işlərinə qarışdığını demir. Deyəsən, Ermənistanda bu sualı verən də yoxdur.

Hayastan parlamentinin "Vətəndaş Müqaviləsi" fraksiyasının deputatı, ölkənin keçmiş səhiyyə naziri Arsen Torosyan Ermənistandakı xristian kilsəsini 1700 illik tarixini tamamilə məhv edilməli olan mif hesab edir. O, həmçinin kilsəni erməni dövlətçiliyini məhv etməkdə ittiham edib.

Görünən odur ki, Hayastanda daxili siyasi vəziyyət tədricən mürəkkəbləşməyə doğru gedir. Bununla da ölkə sonu görünməyən daxili siyasi böhrana qədəm qoyacaq.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20


**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Milli Məclisin deputatı Sevinc Fətəliyevaya əzizi

**ÇİNGİZ HƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4353
Sifariş 1062

Qiyməti 60 qəpik